# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 219 (8535) CÜMƏ, 23 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV Qarabağı Azərbaycanın ən inkişaf etmiş məkanına çevirəcək

## Azad edilmiş bölgələrin güclü iqtisadi potensialı ölkəmizin yüksəlişinə böyük təkan verəcək

Azərbaycan Ordusu Vətən müharibəsindəki qələbələri ilə hər gün xalqımıza qürur dolu sevinc bəxş edir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz yüzdən artıq yaşayış məntəqəsini, o cümlədən Cəbrayıl, Füzuli və Zəngilan şəhərlərini işğaldan azad edib. Bütün cəbhəboyu əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

İşğal altında olan rayonlarımız azad edildikcə qarşıda bizi yeni vəzifələr gözləyir. Təbii ki, Böyük Qayıdış ilk növbədə bu ərazilərin yenidənqurulması ilə başlayacaq. Eyni zamanda işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafı da gələcək prioritetlər sırasındadır. Təsadüfi deyil ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) bu sahədə ciddi tədqiqatlar aparmaqdadır.

### Ordumuz beşinci nəsil müharibə aparır

İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı Azərbaycan iqtisadiyyatının postkonflikt dövründə inkişaf perspektivləri barədə mətbuata açıqlamasında bu haqda ətraflı məlumat verib. O, Azərbaycan iqtisadiyyatının bu zəfərdən necə faydalanacağı barədə danışarkən bildirib ki, qələbənin gətirdiyi ruh yüksəkliyi ilk növbədə Azərbaycan cəmiyyətində özgüvən üçün vacibdir: “Məsələn, M.Tetçer 1982-ci ildə Argentinanı məğlub edərək 74 günə Folklend adaları üzərində Britaniyanın nəzarətini təmin etdikdən sonra, Britaniya bu qələbədən pərvazlandı: tetçerizm iqtisadi modeli uğur qazandı, Britaniyanı yenidən “böyük” adlandırmağa başladılar, M.Tetçer dünyada “dəmir ledi” kimi nüfuzunu artırdı.

İkincisi, indiyə qədər Azərbaycan iqtisadiyyatı Ordunu dəstəkləyirdisə, indi Ordu iqtisadiyyata töhfə verir. Azərbaycan 5G - beşinci nəsil müharibə aparır və qanuni torpaqlarını azad edir. İşğaldan azad edilmiş torpaqlar, oradakı faydalı qazıntılar, su və meşə resursları Azərbaycanın iqtisadi gücünü artıracaq. Xüsusən də Azərbaycan xalqının Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi islahatların daha da dərinləşdirilməsi üçün əsasları gücləndirir”.

- *Ermənistan Azərbaycanla son müharibənin ilk 20 günündə 3,5 milyard dollar və ÜDM-in 30 faizi həcmində itki ilə üzləşib.*
- *Bu müharibədəki ziyanını bağlamaq üçün Ermənistana 10 il vaxt lazım olacaq.*
- *Artıq Tərtər rayonunun yenicə azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpası başlayır.*
- *Qarşıdakı illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələr üzrə məhsulun ümumi buraxılışı 2 milyard manatdan çox arta bilər.*
- *Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaq var.*
- *İşğal olunmuş ərazilər vaxtilə Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi.*
- *Ərazilərimizin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə böyük töhfə verəcək.*
- *Azərbaycan Ermənistanın ölkəmizə qarşı apardığı hidro müharibəyə son qoyacaq, həm də Ermənistanın özünə də nəzarət imkanı qazanacaq.*
- *Mineral su ehtiyatlarımızın 40 faizə qədəri işğal altındakı torpaqlardadır.*
- *İşğaldan sonra cəmi 25 min nəfərin yaşadığı tarixi ərazilərimizdə vaxtilə 1 milyona yaxın azərbaycanlı yaşayırdı.*
- *Qarabağ Ermənistan üçün iqtisadi yük, Azərbaycan üçün isə iqtisadi potensialdır.*

*Ardı 4-cü səh.*

## Prezident İlham ƏLİYEV:

## “Azərbaycan Ordusu Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 4, Zəngilan rayonunun 13 kəndini və Ağbənd qəsəbəsini işğaldan azad edib”



Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

* * *

Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

## Prezident İlham ƏLİYEV:

## “Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu”

Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

## “Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonağı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Salam, xoş gəlmisiniz.

**Şərəf MALKOÇ:** Xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Şadam ki, gəlmisiniz. İndiki şəraitdə sizin Azərbaycanda olmağınızın xüsusi mənası var. Bildiyiniz kimi, Ermənistan Azərbaycana qarşı növbəti təcavüz aktı törədib, növbəti terror aktı törədib. Həm bizim mülki vətəndaşlara, həm də hərbçilərimizə qarşı hərbi cinayət törədib. Bilirəm ki, siz səfər çərçivəsində Gəncə şəhərinə gedəcəksiniz. Orada özünüz görəcəksiniz ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Onlar döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmirlər və çalışırlar ki, bu acı məğlubiyyətin əvəzini dinc insanlardan çıxsınlar. Gəncəyə iki namərd hücum və Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir.

*Ardı 3-cü səh.*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:

## “Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

*- Hər vaxtınız xeyir, hörmətli Mehriban xanım. İlk növbədə, Azərbaycanın bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibətilə Sizi öz adımızdan və oxucularımızın adından təbrik etmək istərdim.*

- Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar.

*Ardı 4-cü səh.*

◆**Müəllifi İlham Əliyevdir**

## Gəlsin zəfər xəbərin, Azərbaycan əsgəri!

### Atəş altında olsa da, terrora məruz qalsa da, Gəncədə İlham Əliyevin müzəffər ordusuna ASAN dəstək göstərilir

Cəbhə bölgəsindən kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri - Gəncədəyik. O şəhər ki, günlərdir Ermənistan silahlı qüvvələrinin raket hücumlarına məruz qalır.

Ermənistanın hərbi-siyasi rəhbərliyi səviyyəsində həyata keçirilən terror aktları nəticəsində 24 dinc sakin - azyaşlı uşaqlar, qadınlar, qocalar həlak olub, 100-ə yaxın insan ağır yaralanıb. Qətlə yetirilən uşaqlar arasında məktəblilərin, hətta dünyaya yeni göz açmış körpənin olması, ermənilərin yenə də insanlığa qarşı cinayət törətdiklərini təsdiqləyir.

Ancaq şəhərdə şahidlik etdiyimiz mənzərə bizdə nikbinlik yaradır. Çünki



şəhər iki dəfə raket atəşinə tutulmasına baxmayaraq, həyat öz axarı ilə davam edir, vətəndaşlar arasında heç bir ruh düşkünlüyü yoxdur. İctimai nəqliyyat da normal qaydada fəaliyyətini davam etdirir. Əhali əvvəlki qaydada gündəlik işləri ilə məşğuldur, insanlarda heç bir təşviş yoxdur. Bir sözlə, hər zamankı kimi ayaqdadır gəncəlilər.

### 7 ildə 4 milyona yaxın müraciət

Şəhərdə bütün dövlət qurumları, özəl təşkilatlar ölkə ərazisində elan edilən hərbi vəziyyətin tələblərinə və həmçinin karantin qaydalarına uyğun fəaliyyətlərini davam etdirirlər. Vətəndaşların daha çox müraciət etdikləri qurum isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Gəncə “ASAN xidmət” mərkəzidir.

*Ardı 6-cı səh.*

## Onların əfsanələri puç, bizim arzularımız çin olur

### “Könlüm Zəngilanı istər...”

Erməni işğalçılarının iddiası və hikkəsi yerə-göyə sığmırdı. İş o yerə çatmışdı ki, qondarma Dağlıq Qarabağ qurumunun “müstəqilliyini” tanımağımız üçün bizi yeni torpaqlarımızın işğalı ilə hədələyirdilər. Elə sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti təcavüz aktının törədilməsinin səbəbi də bununla bağlı idi. Ancaq qoy onlar saydıqlarını saysınlar...

Ermənistan və havadarları Dağlıq Qarabağın “müstəqilliyi” barədə qurduqları xam xəyalın puç olduğunu gördülər. Rəşadətli Azərbaycan Ordusu müqəddəs Qarabağ torpağının kimə məxsus olduğunu hamıya sübut etdi.

Bu gün işğal olunan torpaqları azad etmək üçün azərbaycanlılar cəbhəyə könüllü şəkildə getdiyi halda, erməni gənclər döyüş bölgələrinə “dubinka” ilə gətirilir. Gələn kimi də Azərbaycan əsgəri bir çoxunu məhv edir, salamat qalanlar isə canlarını qurtarmaq üçün döyüş meydanından qaçırlar.

*Ardı 6-cı səh.*

**Düşmənin ümumilikdə 280 tankı, 50 piyadaların döyüş maşını, özüyeriyən 20 artilleriya qurğusu, 53 tank əleyhinə vasitə, 70 “Qrad” qurğusu, 2 “Uraqan”, 2 “Yars”, 1 TOS, 4 “S-300” zenit-raket kompleksi, 198 top, 58 minaatan, 3 “Tor” zenit-raket kompleksi, 40-a yaxın “Osa” zenit-raket kompleksi, 5 “Kub” və “Kruq” zenit-raket kompleksi, 10 pilotsuz uçuş aparatı, 2 əməliyyat-taktiki raket kompleksi - “Elbrus”, 1 ballistik raket, 1 “Toçka-U” raketi, 8 radioelektron mübarizə vasitəsi, 198 yük avtomobili məhv edilib. 12 minaatan, 25 qumbaraatan, piyadaların 24 döyüş maşını, 105 yük avtomaşını hərbi qənimət kimi götürülüb.**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək”

## Prezident İlham Əliyev Yaponiyanın “Nikkei” qəzetinə müsahibə verib

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Yaponiyanın “Nikkei” qəzetinə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

*- Dağlıq Qarabağ münaqişəsi haqqında soruşmaq istəyirəm. Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri cümə günü Vaşinqtona səfər edəcəklər. Bu görüşdən nə gözləyirsiniz? Siz üçtərəfli formatda bəzi şərtlərlə danışıqlara hazırsınızmı?*

- Bilirsiniz ki, əslində, Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa Ermənistan və Azərbaycan arasında olan münaqişənin həll yolunu tapmaq üçün mandatı olan Minsk qrupunun üç həmsədr ölkələridir. Ona görə bizim nazirlərimizin bu üç paytaxtda görüşməsi təbiidir. Bu cür görüşlər əvvəllər dəfələrlə olmuşdur. Bilirsiniz ki, Moskvaya da səfər edilmişdir, orada da görüş olmuşdur. Beləliklə bu, münaqişənin sülh yolu ilə nizamlanması üzrə danışıqların davamıdır. Əlbəttə ki, indi yerdə vəziyyət dəyişmişdir. Satus-kvo artıq mövcud deyil. Təmas xətti də mövcud deyil. Buna görə, əlbəttə, mən hesab edirəm ki, indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır. Beləliklə, bu müzakirələrdə bizim əsas məqsədimiz Ermənistan rəhbərliyinin ərazilərimizin boşaldılmasına hazır olub-olmamasını və hazır olduğu təqdirdə bunun nə vaxt baş verəcəyini müəyyən etməkdir.

*- Prezident Putin Sizi də Moskvaya dəvət edib?*

- Xeyr.

*- Dəvət olunsaydınız, getməyə hazırsınızmı?*

- Mən dəfələrlə Prezident Putin tərəfindən dəvət olunmuşam və Moskvaya dəfələrlə səfər etmişəm. Bəzi illərdə hətta il ərzində bir neçə dəfə səfər etmişəm. Odur ki, bu yüksəksəviyyəli təmasların tərəfdaş və qonşu ölkələr arasında olması adət edilmiş bir haldır. Həmçinin Prezident Putin də Azərbaycana dəfələrlə səfər edib.

*- Əgər cümə günü nazirlərin görüşündə hər hansı bir irəliləyiş olsa, Moskvada Ermənistanın baş nazirinin qatılacağı üçtərəfli görüş keçirilə bilərmi?*

- Bəli, əlbəttə ki, bu, mümkündür, çünki bu növ görüşlər əvvəllər də olmuşdur. Əgər belə bir görüş olsa, bu, gündəliyin nədən ibarət olduğundan asılı olacaqdır. Əfsuslar olsun ki, Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu üzrə nizamlanması perspektivləri çox uzaqdır. Çünki Ermənistan rəhbərliyi tərəfindən verilmiş çox səmərəsiz və təhrikedici bəyanatlar, edilmiş hərəkətlər, əslində, danışıqları mənasız etmişdir. Çünki danışıqlar masasında əsas mövzu həmişə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılması idi. Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” bəyan edəndə, Azərbaycanın qondarma “Dağlıq Qarabağ hökuməti” ilə danışıqlar aparmalı olduğunu deyəndə, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və Azərbaycanın digər şəhərlərinə gündəlik olaraq hücum edəndə, danışıqları aparmaq üçün o qədər də imkan qalmır. Buna görə də biz Ermənistan hökumətinə sübut etməli idik ki, artıq onlar bu cəzasız təcavüzkar addımları ata bilməzlər. Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu, mümkün olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik.

*- Siz ikinci atəşkəsin artıq uğursuz olduğunu, yaxud bitdiyini və döyüşün davam etdiyini deyərdiniz?*

- Atəşkəsə nail olmaq üçün ikinci cəhd ona görə uğursuz oldu ki, atəşkəs qüvvəyə mindikdən 2 dəqiqə sonra onlar atəşkəsi pozdular, onlar yenə də bizim dinc şəhərlərimizə hücum etdilər. Bu səhər saat 6-dan 8-ə qədər onlar dinc əhalinin yaşadığı və ən çox ziyan görən Tərtər şəhərinə 100-dən çox raket atıblar. Onlar bizim hərbi mövqelərimizə hücum edirlər. Onlar artıq azad edilmiş əraziləri yenidən geri götürmək istəyirdilər. Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozublar.

Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik. Sizə deyə bilərəm ki, onlar ikinci dəfə atəşkəsi pozandan sonra biz Zəngilan şəhərini və bir çox kəndləri azad etdik. Beləliklə, döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir.

*- Hələ ki atəşkəs əsirlərin və cəsədlərin mübadiləsi də daxil olmaqla humanitar məqsədlər üçün elan edilmişdir. Sizcə bu atəşkəsin, - ola bilsin başqa atəşkəs də olacaqdır, - əsirlərin mübadiləsindən sonra bitəcəyi deməkdir? Yəni, bu, qüvvədə olacaq əsaslı atəşkəs, yoxsa müvəqqəti atəşkəs olacaqdır?*

- Bəli, atəşkəs humanitar zəmində elan olunmuşdur. Bildiyiniz kimi, Moskva bəyannaməsində substantiv danışıqlara və danışıqlar formatının dəyişməz olaraq qaldığına da istinad var idi. Bu isə Ermənistan tərəfindən qondarma “Dağlıq Qarabağ hökumətini” danışıqlara cəlb etmək cəhdlərinin artıq olmayacağı deməkdir. Bu, bizim tərəfimizdən və Minsk qrupu tərəfindən rədd edilmişdir. Buna görə, əlbəttə, əgər Ermənistan danışıqlara sadiq qalarsa və əraziləri boşaltmaq üçün üzərinə ciddi öhdəlik götürərsə, - hansını ki, onlar hələ də elan etməyiblər, - bu halda bu atəşkəs uzunmüddətli olacaqdır. Çünki biz bu problemi sülh yolu ilə həll etmək istəyirik. Lakin, əgər onlar resurslarını səfərbər etmək, əlavə əcnəbi hərbi yardım almaq və bizə qarşı yeni hücuma keçmək üçün bu atəşkəsdən istifadə etməyə cəhd göstərəcəklərsə, əlbəttə, bu atəşkəs uzun müddət davam etməyəcəkdir. Bu, onlardan asılıdır.

*- Beləliklə, danışıqlar masasına oturmaq üçün hər hansı danışıqları aparmadan öncə əvvəlcədən Ermənistandan ən azından yeddi rayonun bəzilərini boşaltmağa razılaşmağı tələb edəcəksiniz?*

- Onlar bu əraziləri boşaldacağına dair üzərilərinə ciddi öhdəlik götürməlidirlər. Çünki bu, Minsk qrupunun vasitəçiliyi ilə iki ölkə arasında razılaşdırılmış əsas prinsiplərin bir hissəsidir. Əsas prinsiplərdə deyilir ki, işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır, bizim qaçqın və məcburi köçkünlərimiz işğal olunmuş bütün ərazilərə qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağın ərazisinə, o cümlədən qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə. Buna görə Ermənistan hökuməti bu prinsiplərə sadiq olduğunu, bu əraziləri boşaldacağını açıq şəkildə bəyan etməlidir və bundan sonra əlbəttə ki, danışıqlar başlayacaqdır. Biz indi birinci olaraq ərazilərin boşaldılması və sonra danışıqların başlanılması ilə bağlı ilkin şərti irəli sürmürük. Biz hazırda Ermənistan tərəfindən, bu zorakılığa və dinc əhaliyə qarşı hərbi cinayətlərin törədilməsinə görə məsul olan şəxsdən, şəxsən baş nazirdən tələb edirik ki, o, Ermənistanın işğal olunmuş əraziləri boşaldacağını desin. Bundan sonra əlbəttə ki, münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçəcəkdir.

*- Ermənistan desə ki, onlar ilkin olaraq beş rayonu boşaltmağa hazırdır, Siz danışıqlara getməyə hazır olarsınızmı?*

- Azərbaycanın bütün rayonları boşaldılmalıdır. Bütün. Əlbəttə ki, biz vaxt çərçivəsindən danışa bilərik və əsas prinsiplərdə vaxt çərçivəsi ilə bağlı müəyyən fikirlər var idi. Hansı mərhələdə rayonların birinci, hansı mərhələdə rayonların ikinci hissəsi boşaldılacaq. Beləliklə, bunu müzakirə etmək olar. Lakin aydındır ki, işğal olunmuş bütün ərazilər qaytarılmalıdır.

*- Bu, əvvəlcədən elan olunmalıdır.*

- Bütün azərbaycanlılar öz qədim torpaqlarına qayıtmalıdır.

*- Rusiyanın müşahidəçi qruplarının göndərilməsinə dair təklifinə və ya beynəlxalq müşahidəçilərlə bağlı nə deyərdiniz?*

- Beynəlxalq müşahidəçilər və ya sülhməramlı qüvvələr əsas prinsiplərin bir hissəsidir. Lakin bu, sonuncu hissəsidir, ünvanlanmalı olan ən son məsələlərdən biridir və əlbəttə ki, hər iki tərəf, - Azərbaycan və Ermənistan bu beynəlxalq müşahidəçilərin və ya sülhməramlıların kim olacağına razılaşmalıdır. Buna görə, biz danışıqlar çərçivəsində bu məsələni ciddi müzakirə etməmişik. Hesab edirəm ki, Minsk qrupunun həmsədrləri olan üç ölkə, əlbəttə, öz adından bu müşahidəçilərin tərkibi, sayı, onların nə zaman və hara göndəriləcəyi ilə bağlı təkliflərini verəcəklər.

Çünki bu, həm də texniki nöqteyi-nəzərdən vacibdir. Çünki indi döyüş əməliyyatlarının aktiv fazasıdır. Bu müşahidəçilər və ya sülhməramlılar harada yerləşdiriləcək? Onların həyatı risk altında ola bilər. Onların mandatı necə olacaq? Onlara mandatı kim verəcək? Aydındır ki, biz bu barədə danışanda, Azərbaycan ərazisi barədə danışırıq. Bu, Ermənistanın ərazisi deyil. Ona görə də, əlbəttə ki, bununla bağlı həlledici sözü biz deməliyik. Bu səbəbdən, sözsüz ki, bütün bu məsələlərlə məşğul olmaq lazımdır. Prinsipcə, biz bunu inkar etmirik. Lakin sözsüz ki, vaxtı gələndə biz öz şərtlərimizi irəli sürəcəyik.

*- Minsk qrupundan söz düşmüşkən, Türkiyə Minsk qrupunu tənqid edərək ona ağılsız deyir. Siz bununla razılaşardınız?*

- Mən bu yaxınlarda demişdim ki, Minsk qrupu 30 il ərzində heç bir nəticə əldə etmədi. Eyni zamanda, mən dedim ki, biz Minsk qrupunun vasitəçiliyi ilə keçmiş Ermənistan hökumətləri ilə irəliləyişə nail ola bilmişdik. Böyük olmasa da, hər halda irəliləyiş idi. Lakin əgər 30 il ərzində bir ölkələr qrupu nəticə əldə edə bilmirsə, bu, özü hər şeyi göstərir. Həmçinin Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bu ölkələrin iştirakı və bu ölkələrin səsverməsi ilə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrə niyə əməl edilmədiyi sual olunur. Çünki Minsk qrupunun həmsədrləri və daimi üzvlər eyni ölkələrdir. Beləliklə, bu, açıq sualdır.

*- Siz Minsk qrupunun həmsədrləri arasında Rusiyanın vasitəçi kimi, aparıcı vasitəçi kimi rolu barədə nə deyə bilərsiniz? Siz deyə bilərsiniz ki, Rusiya ədalətli olub?*

- Bilirsiniz, Minsk qrupunun üç həmsədrinin eyni hüquqları və eyni mandatı var. Odur ki, mənim bildiyimə görə, bu ölkələr arasından lider seçilməyib. Onların hamısı bərabərdir və biz onlara vasitəçi kimi baxırıq. Əgər hər hansı bir ölkə vasitəçi rolunu üzərinə götürürsə, bu ölkə neytral olmalıdır. Əgər o, neytral deyilsə, vasitəçi ola bilməz. Neytrallıq səviyyəsi, əlbəttə ki, münasib zamanda ünvanlanacaq başqa bir məsələdir. Lakin düşünürəm ki, Minsk qrupunun həmsədrləri zorakılığı dayandırmaq və 28 il ərzində yerinə yetirilməyən mandatı yerinə yetirmək üçün xüsusilə indi, Ermənistanın döyüş meydanında, demək olar ki, məğlub olduğu bir vaxtda öz rollarını oynayacaqlar.

*- Siz Türkiyənin Qafqazdakı məsələlərlə bağlı daha çox söz sahibi və bu danışıqlar prosesində daha fəal olmağını istəyirsinizmi?*

- Bu, sözsüz ki, Türkiyənin siyasi gündəliyindən asılıdır. Mən Türkiyənin adından danışa bilmərəm. Demək istədiyim odur ki, əlbəttə, biz Türkiyənin regional məsələlərdə fəal iştirakına hər zaman güclü dəstək veririk. Faktiki olaraq, bu iştirak açıq-aşkardır. Türkiyə indi təkcə bizim regionumuzda deyil, Qafqazda deyil, daha geniş coğrafiyada və dünyada mühüm rol oynayır. Bu, reallıqdır və bu, bizim üçün çox yaxşı reallıqdır. Çünki Türkiyə bizim üçün qardaş ölkədir, ən yaxın müttəfiqimiz və dostumuzdur. Əlbəttə ki, Türkiyə de-fakto, həm də Minsk qrupunun üzvü olaraq hüquqi baxımdan artıq cəlb olunub. Mən bir dəfə müsahibələrimdən birində demişdim ki, Türkiyə hətta həmsədr də ola bilərdi. Əgər biz həmsədrləri bu gün seçsəydik, Azərbaycan sözsüz ki, Türkiyənin namizədliyini dəstəkləyərdi və əminəm, Türkiyə həmsədr olmaqda israr edərdi. Əfsuslar olsun ki, 1992-ci ildə bu, baş vermədi. Beləliklə, bu, hüquqi tərəfdir. Praktiki tərəfdən, bildiyiniz kimi, Türkiyə və Rusiyanın prezidentləri, Xarici İşlər nazirləri, Müdafiə nazirləri görüşüblər, söhbət aparıblar, bu məsələni müzakirə ediblər. Ona görə də, Ermənistanın dediyi kimi, əgər kimsə deyirsə ki, Türkiyə orada olmamalıdır, bu, Ermənistanın işi deyil, Türkiyə artıq oradadır və cəlb olunmalıdır, çünki o, sabitlik gətirəcək. Həmçinin düşünürəm ki, Türkiyə Qafqazın 3 ölkəsi ilə sərhədi olan yeganə ölkədir. Başqa heç bir ölkənin onların hər üçü ilə sərhədi yoxdur. Əlbəttə ki, Türkiyə fəal şəkildə cəlb olunmalıdır, Türkiyə cəlb olunub və biz bunu möhkəm dəstəkləyirik.

*- Beynəlxalq hüquq nöqteyi-nəzərindən Qarabağ Azərbaycanın ərazisidir. Lakin, eyni zamanda, orada çox sayda erməni əhalisi var. Siz zəmanət verə bilərsinizmi ki, Azərbaycan nəzarəti geri qaytarandan sonra erməni əhali orada təhlükəsiz şəraitdə və bərabər hüquqlarla yaşaya biləcək?*

- Bəli, sözsüz ki. Mən münaqişənin bu aktiv fazası ərzində artıq dəfələrlə bununla bağlı bəyanatlar vermişəm ki, Dağlıq Qarabağda yaşayan həmin ermənilər bizim vətəndaşlarımızdır. Onların təhlükəsizliyi, hüquqları Azərbaycanın digər insanlarının hüquqları kimi tam təmin olunacaq. Sizə deyə bilərəm ki, hazırda azərbaycanlıların olmadığı Ermənistandan fərqli olaraq, bu gün Azərbaycanda minlərlə erməni əsilli adam var və Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Beləliklə, orada heç bir milli azlıq yaşaya və sağ qala bilməz. Onlar bugünkü Ermənistan Respublikasının ərazisində bir zamanlar yaşayan bütün millətləri qovublar. Ən böyük icma azərbaycanlılar idi. XX əsrin əvvəlində İrəvan şəhərinin əhalisinin 70 faizi azərbaycanlılar idi. Ermənilər bizim bütün tarixi, dini abidələrimizi dağıdıblar. Onlar təkcə İrəvanda deyil, bugünkü Ermənistanın bir çox başqa regionlarında da Azərbaycan mədəniyyətinin izlərini siliblər. Yeri gəlmişkən, 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti, əfsuslar olsun ki, mayın 29-da, - bu, haqq qazandırılması mümkün olmayan böyük bir səhv idi, - İrəvanı paytaxt kimi Ermənistana verməyi qərara aldı. Beləliklə, onlar bizim bütün dini və mədəni irsimizi dağıdıblar. Onlar bizim məscidlərimizi, abidələrimizi dağıdıblar. Burada - Bakının mərkəzində isə çox sayda erməni kitablarının olduğu erməni kilsəsi var. Bu gün Bakıda və Azərbaycanın başqa yerlərində çox sayda, minlərlə erməni yaşayır. Sizin orada yaşayan çox sayda erməni ilə bağlı dediyiniz məqama gəlincə, bizdə olan məlumata görə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, işğal edilmiş ərazinin real əhalisi təqribən 65 min nəfərdir. Bu, böyük icma deyil. Lakin müharibədən əvvəl, 1990-cı illərin əvvəlində Dağlıq Qarabağda, əsasən Şuşada, həmçinin Xankəndidə, ermənilərin törətdiyi soyqırımının qurbanı olan Xocalı şəhərində və bir çox başqa şəhərlərdə 40 mindən çox azərbaycanlı yaşayırdı. Ermənilər bizə qarşı etnik təmizləmə həyata keçiriblər. Biz bunu heç vaxt etməmişik. Hətta bu toqquşmalar zamanı biz eyni yolla cavab verməmişik. Biz nə Dağlıq Qarabağ ərazisinə, nə də Ermənistan ərazisinə ballistik raketlərlə hücum etməmişik. Mən demişdim ki, biz qisas alacağıq, lakin biz qisası döyüş meydanında alacağıq. Beləliklə, Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək. Dağlıq Qarabağdakı cinayətkar xunta kənarlaşdırılandan sonra onlar daha yaxşı yaşayacaqlar. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar və ölkəmizdəki istənilən başqa insanlar üçün etdiyimiz kimi, biz onlar üçün də bütün sosial və iqtisadi imtiyazları təmin edəcəyik.

*- Dağlıq Qarabağı geri qaytarandan sonra Siz Madrid prinsiplərində qeyd olunduğu kimi, onların öz müqəddəratını təyinetmə hüququna hörmət edəcəksinizmi və referenduma razılıq verəcəksinizmi?*

- Xeyr, əlbəttə ki, xeyr. Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər yaşadıqları hər yerdə öz müqəddəratlarını təyin etsələr nə baş verər, dünyada neçə kiçik Ermənistan olar. Bu, əks təsir verən yanaşmadır. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm amilidir. Lakin o, Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır. Öz müqəddəratını təyinetmənin müxtəlif növləri var, icmaların müxtəlif növləri var. Məsələn, mədəni muxtariyyət ola bilər. Biz Avropanın inkişaf etmiş ölkələrində bu nümunələri görürük ki, insanların öz bələdiyyələrində, öz icmalarında müəyyən hüquqları var. Azərbaycanın istənilən yerində olduğu kimi, əlbəttə, Azərbaycanda yaşayan ermənilərin də bu formada təmasları ola bilər. Lakin biz heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verməyəcəyik. Bundan söhbət gedə bilməz. Bir sözlə, referendum olmayacaq, heç vaxt.

*- Döyüş meydanından danışarkən, Ermənistanın Liviyada, Suriyada yaşayan erməniləri cəlb etdiyinə dair məlumatlar var. Eyni zamanda, QHT, dəqiq desək, Suriya İnsan Haqlarının Müşahidəsi Qrupu iddia edir ki, Suriyadan çox sayda etnik türkmən döyüşçü hazırda Sizin qüvvələrinizlə birlikdə döyüş meydanındadır. Bu, doğrudur, ya yox?*

- Xeyr, bu, doğru deyil. İlk növbədə, mən bildirmək istərdim ki, Ermənistanın Yaxın Şərqdən muzdluları və döyüşçüləri cəlb etməsi faktı sirr deyil. Hətta Ermənistanın baş naziri bunu etiraf edib. Lakin o bildirib ki, onlar köklü ermənilərdir. Birincisi, heç kim bilmir onlar köklü ermənilərdir, ya yox. Bizdə məlumat var ki, başqa millətlərin nümayəndələri hazırda Ermənistan tərəfdən döyüşür. İkincisi, əgər insan etnik ermənidirsə və başqa ölkənin vətəndaşıdırsa, bu, o demək deyil ki, o, muzdlu deyil. Döyüş meydanında zərərsizləşdirilənlər arasında Livan pasportu olan, Kanada pasportu olan insanlar var. Bizdə Fransa, ABŞ vətəndaşlarının, erməni əsilli, lakin bu ölkələrin vətəndaşları olan şəxslərin, keçmiş sovet ölkələrinin vətəndaşlarının, Yaxın Şərq ölkələrinin vətəndaşları ilə birlikdə bizə qarşı döyüşməsinə dair dəlillər var. Ermənistan birinci Qarabağ müharibəsində muzdlulardan istifadə edirdi. Bu, sirr deyil. Onlardan bəziləri Azərbaycan tərəfindən zərərsizləşdirilib və ermənilər onların şərəfinə böyük abidələr ucaldıblar, beynəlxalq terrorçuların şərəfinə abidələr. Bu, Ermənistanın terrorçu dövlət olduğunu göstərir.

Azərbaycana gəlincə, birincisi, Suriya İnsan Haqlarının Müşahidəsi Qrupu adlandırılan QHT etibarlı təşkilat deyil. Biz onların Suriyadakı müharibə ilə bağlı yaydığı çox sayda feyk xəbərləri bilirik. Bu, siyasi motivasiyalı olan “QHT”yə etibar, etimad yoxdur. Birincisi, biz kimin maliyyələşdirdiyini yoxlamalı, sonra bu şayiələrin arxasında kimin durduğunu öyrənməliyik. İkincisi, bizə heç bir ölkə tərəfindən bir dəlil belə təqdim olunmayıb. Yalnız şayiələr, yalnız əsassız bəyanatlar. Mən sübut tələb etdim. Dedim yaxşı, biz artıq 20 gündən çoxdur ki, münaqişənin aktiv fazasındayıq, sübutlar haradadır? Bizə dəlil təqdim edin. Heç bir sübut yoxdur. Ona görə də bu şayiələrə son qoyulmalıdır. Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur. Bizim kifayət qədər insanlarımız, nizami ordumuzda kifayət qədər əsgər və zabitlərimiz var. Əhalimizin sayı 10 milyon nəfərdir. Əgər bizim əlavə döyüşçüyə ehtiyacımız olsa, səfərbərlik elan edərik, cəlb edərik. Beləliklə, buna ehtiyac yoxdur. Bu, tamamilə yanlış məlumatdır.

*- Sizin dəfələrlə dediyiniz kimi, heç bir mücahid, hətta heç bir türkmən yoxdur?*

- Xeyr, başqa ölkələrdən gəlmiş Azərbaycan əsilli insanlar ola bilər. Biz bunu istisna etmirik. Çünki bizdə çox sayda könüllülər var. İnsanlar könüllü şəkildə öz ölkələrini müdafiə etmək istəyə bilər. Biz istisna edə bilmərik ki, başqa ölkələrdən Azərbaycan əsilli insanlar gəlir. Lakin bu, təqdim olunduğu kimi deyil ki, Azərbaycan döyüşmək üçün terrorçuları dəvət edib. Bu, yanlış məlumatdır.

*- Siz Azərbaycan əsilli həmin könüllülərdən xəbərdarsınız?*

- Mən dedim ki, istisna etmirəm. Ola bilər. Lakin biz xaricdə yaşayan azərbaycanlılardan gəlib tarixi Vətəni uğrunda döyüşmək üçün çox sayda müraciət, çox sayda məktub alırıq. Lakin bizim mövqeyimiz belədir ki, buna ehtiyacımız yoxdur. Döyüş meydanında kifayət qədər insanımız var.

*- Yaponiya şirkətləri Azərbaycanın neft kəməri layihələrinə qoşulub. Onlar burada investordur. Sizin kəmərlərin təhlükəsizliyi ilə bağlı narahatlığınız varmı? Bu yaxınlarda, bu il ərzində açılması planlaşdırılan TAP kəmərinin təxirə salınması riski varmı?*

- Xeyr, TAP kəməri ilə bağlı hər şey qrafikə uyğun gedir. Bu, artıq edilib. TAP-ın rəsmi açılışı ola bilsin ki, ayların deyil, əlavə bir neçə həftənin işidir. Kəmərdə hər şey hazırdır. Bakıdan Avropaya tarixi kəmər tamamlanıb. Bizim digər kəmərlərimizə, xüsusilə neft-qaz kəmərlərinə gəlincə, Azərbaycan ərazisində bütün bu illər ərzində, Bakı-Tbilisi-Ceyhanın istismara verildiyi 2006-cı ildən bu yana bizdə heç bir hadisə baş verməyib. Bizim kəmərlərimiz bizim ərazimizdə lazımi qaydada qorunur. Lakin, əlbəttə, biz Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıb.



**Ardı 3-cü səh.**

# “Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir”

*Əvvəli 1-ci səh.*

Ermənistan rəhbərliyi bu cinayətə görə cavab verəcək. Bu, qəsdən törədilmiş cinayətdir. Məhz mülki əhalinin yaşadığı yerləri məqsədyönlü şəkildə atəşə tutublar. Bildiyiniz kimi, çoxlu itkilərimiz var, yaralılarımız var, o cümlədən uşaqlar, qadınlar, qocalar. Bu, bir daha erməni faşizminin yırtıcı mahiyyətini göstərir. Bu, bir daha göstərir ki, biz erməni faşizminin belini qırmaqla bölgəmizi böyük bəladan, böyük faciədən xilas etmiş oluruq.

Bununla bərabər, bizim bütün cəbhəboyu şəhərlərimiz və kəndlərimiz hər gün atəşə tutulur. Bu gün mənə verilən məlumata görə, səhər saat 6-dan 8-ə qədər təkcə Tərtər rayonuna 190 mərmi düşüb. Ağdam rayonuna 90-dan çox mərmi düşüb. Elə günlər var idi ki, Tərtər rayonuna 2 min mərmi düşüb. Yəni, onlar bizim şəhərlərimizi dağıtmaq istəyirlər, Azərbaycan xalqının iradəsini qırmaq istəyirlər. Ancaq buna nail ola bilmirlər və daha da çox azğınlaşırlar. Biz intiqamımızı döyüş meydanında alırıq. Biz heç zaman mülki əhaliyə qarşı heç bir addım atmamışıq və atmayacağıq. Baxmayaraq ki, onlar bizim qədim tarixi şəhərimizi - Gəncəni atəşə tuturlar, biz nə Ermənistan şəhərlərini, nə də ki, Dağlıq Qarabağda yerləşən şəhərləri atəşə tutmuruq və tutmayacağıq. Bizim üstünlüyümüz, bax, bu mənəvi dəyərlər çərçivəsində də bir daha özünü büruzə verir və bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir. Ermənistanda hökm sürən kriminal faşist rejimi bölgəmiz üçün ən böyük təhdiddir və Azərbaycan bu təhdidin aradan qaldırılması üçün əlindən gələni edir. Hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün yeni şəhərləri, kəndləri işğalçılardan azad edirik. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını icra edir.



Sizin bu gün Azərbaycanda olmağınızın çox böyük mənası var. Bildiyiniz kimi, qardaş Türkiyə ilk saatlardan bizə öz dəstəyini göstərmişdir. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan, mənim əziz qardaşım ilk saatlardan bildirmişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Türkiyənin digər yüksəkvəzifəli şəxsləri də buna oxşar bəyanatlar vermişlər. Türkiyə xalqı bizə öz dəstəyini göstərir. Türkiyə mətbuatında bu münaqişə geniş işıqlandırılır. Azərbaycanın haqq işi Türkiyə mətbuatı vasitəsilə dünyaya çatdırılır. Bunun da çox böyük önəmi var. Çünki əfsuslar olsun ki, bir çox ölkələrin mətbuatı birtərəfli qaydada Ermənistanın tərəfini tutur. Bu, böyük ədalətsizlikdir. Bu, saxtakarlıqdır. Bu, hadisələrin təhrifi deməkdir. Azərbaycanı işğalçı, yaxud da ki, təcavüzkar dövlət kimi təqdim etmək cəhdləri, əlbəttə, heç bir əsasa malik deyil. Ona görə Türkiyə mətbuatının ilk günlərdən burada olması və döyüş bölgələrindən reportajların verilməsi dünyada da bu məsələ ilə bağlı düzgün məlumatın olmasına xidmət göstərir.

Bir də ki, biz bu illər ərzində beynəlxalq aləmə sübut edirdik və hesab edirəm, sübut edə bilmişik ki, biz haqlıyıq, biz işğala məruz qalmışıq. Bu gün işğaldan azad edilmiş şəhərlərin, kəndlərin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik. O şəhərlərdə, o kəndlərdə, onların böyük əksəriyyətində bir dənə də salamat bina qalmayıb. Füzuli şəhərini tamamilə dağıdıblar. Bir salamat bina tapa bilmədik ki, orada Azərbaycan bayrağını qaldıraq və nəhayət, bu mərasim də keçirildi. Bütün kəndlərimizin binaları dağıdılıb, məscidlərimiz dağıdılıb. Dünən internetdə Zəngilanın bir kəndində dağılmış məscidin görüntülərini bütün dünya gördü. O məsciddə donuzlar saxlayıblar. Bizim məscidlərimizi təhqir ediblər. Bizim bütün tarixi abidələrimizi dağıdıblar. Evlərdən, demək olar ki, yalnız daşlar qalıb. Bütün dam örtükləri, pəncərələr, əşyalar talan edilib.

Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində xaricdən gələn dəstək hesabına onlar bizim torpaqlarımızı zəbt ediblər. İndi də, indiki şəraitdə də biz görürük ki, onlara xaricdən yardım edilir. Oraya muzdlular, pullu əsgərlər göndərilir. Oraya böyük silahlar göndərilir. Buna baxmayaraq, biz bu çirkin rejimin belini qırırıq, qıracağıq. Haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik. Bir daha sizə təşəkkür edirəm, xoş gəlmisiniz.

* * *

Türkiyənin Baş Ombudsmanı **Şərəf MALKOÇ** dedi:

- Xoş gördük, cənab Prezident. Çox sıx iş qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik, sağ olun.

Azərbaycan torpaqları 30 ildir işğal altındadır. Bütün danışıqlara baxmayaraq, 30 il boyunca irəliləyiş olmadı. Ona görə Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq. Bu, beynəlxalq hüququn da, insan vicdanının da, insan əxlaqının da ən təbii və doğru haqqıdır. Siz bunu qeyri-adi dərəcədə gözəl həyata keçirirsiniz.

Sizin hər axşam neçə kəndin, neçə şəhərin işğaldan azad edildiyi barədə açıqlamalarınız bütün Türkiyədə insanların könlünə fərəh, sevinc gətirir.

Biz Türkiyə Ombudsmanı olaraq, eyni zamanda, İslam Ölkələri Ombudsmanları Assosiasiyasına sədrlik edirik.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Gəncə şəhərində son günlərdə yaşayış binalarına edilmiş hücum nəticəsində, habelə Dağlıq Qarabağdakı hərbi əməliyyatlarda həyatını itirmiş insanların yaxınlarına və zərər çəkmiş şəxslərə dərin hüznlə başsağlığı vermək istərdik. Mülki insanlara qarşı yönəlmiş bütün qanunsuz hərəkətləri qınayırıq.

BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycanın BMT tərəfindən qəbul edilmiş ərazi bütövlüyü çərçivəsində dərhal icra edilməlidir.

Cənab Prezident, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqa, İsmail Serageldin və mərkəzin baş katibi Dağlıq Qarabağla bağlı təbliğat işləri aparmaq məqsədilə hər həftə beynəlxalq səviyyədə tanınmış şəxslərin və alimlərin bir araya toplaşdığı veb-konfrans təşkil edirlər.

Bir-birimizə hörmətlə yanaşdığımız Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Sizin dostlarınızın bir araya gəldiyi ailədir.

Cənab Prezident, Sizə yüksək hörmət və ehtiramımızı bildiririk.

***Oskar Ribas REYQ,***
***1982-1984, 1990-1994-cü illərdə Andorranın Baş Naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

***Musa MARA,***
***2014-2015-ci illərdə Malinin Baş Naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Ermənistanın Gəncəyə hərbi təcavüz aktı ilə bağlı bəyanat yayıb

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Ermənistanın Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə hərbi təcavüz aktı ilə bağlı bəyanat qəbul edib.

AZƏRTAC bəyanatı təqdim edir:

“Oktyabrın 11-də Ermənistanın Vardenis rayonundan Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə raket hücumu nəticəsində 10 nəfər dinc sakin həlak olub, azyaşlı uşaqlar da daxil olmaqla 30-dan çox mülki şəxs bədən xəsarətləri alıb, böyük dağıntılar baş verib.

Bu terror aktı Ermənistanın təcavüzkar siyasətini bir daha açıq şəkildə nümayiş etdirir. Humanitar atəşkəsi kobud şəkildə pozan erməni təcavüzkarlarının törətdiyi bu cinayət Cenevrə konvensiyalarına tamamilə ziddir.

Dünya ictimaiyyətini beynəlxalq terrorizmə düzgün qiymət verməyə, onu qəti və açıq şəkildə qınamağa çağırırıq”.

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

# “Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək”

## Prezident İlham Əliyev Yaponiyanın “Nikkei” qəzetinə müsahibə verib

*Əvvəli 2-ci səh.*

Ona görə də Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər.

*- Sizinlə görüşmək imkanımız çox nadir hallarda olduğundan, icazə verin, ümumilikdə ölkənin gələcəyi ilə bağlı bir neçə sual verim.*

- Bəli, buyurun.

*- Azərbaycan dünyada sənaye üsulu ilə neft istehsal edən ilk ölkədir.*

- Bəli, doğrudur.

*- Sizcə, ölkə postneft dövrünə necə keçəcək? Yaponiya şirkətlərinin bunda iştirakına dair Sizin hansısa gözləntiləriniz varmı?*

- Bəli, əlbəttə ki, bizim iqtisadiyyatımızın şaxələndirilməsi ilə bağlı gündəliyimiz var və bu proses uğurla davam edir. Hətta baxmayaraq ki, bu il ümumi daxili məhsulumuz aşağı düşür - çox ciddi deyil, indiyədək geriləmə 4 faizdən aşağı olub. Bəzi başqa ölkələrlə müqayisədə bu, pis nəticə deyil. Lakin qeyri-neft sənayesinə gəldikdə, bizdə artım var. Bu, onu göstərir ki, bizim şaxələndirmə proqramımız çox uğurla icra olunur. Sənaye, biznes imkanları, turizm, innovasiya sektoru və kənd təsərrüfatı, əlbəttə ki, pandemiyadan əvvəl sürətlə inkişaf edirdi. Əlbəttə ki, əsas məsələyə gəlincə, biz indi Azərbaycanın öz ərazilərini azad etdiyini görürük.

Biz, ilk olaraq, on minlərlə hektar torpağı su ilə təchiz edəcək çox mühüm su anbarını azad etdik. Ermənistan faktiki olaraq bizə qarşı ekoloji terror törədib. Onlar Tərtər çayının qabağını bağlayırdılar və beləliklə, yüz minlərlə hektar torpaq su ilə təchiz olunmurdu. Onlar bunu yayda, insanların ehtiyacı olanda bağlayırdılar və qışda açırdılar, bu isə daşqına səbəb olurdu. Beləliklə, Ermənistanın terrorçu xisləti hər addımdadır. Biz əraziləri geri qaytarandan sonra, - bu, müxtəlif məhsullar becərmək, mal-qara saxlamaq üçün çox münbit torpaqlardır, - əlbəttə ki, bu, kənd təsərrüfatımızın inkişafına yeni təkan verəcək. Biz ərazilərin azad edilməsi ilə əlaqədar kənd təsərrüfatımızın gələcək inkişafını artıq planlaşdırmağa başlamışıq. Əlbəttə, düşünürük ki, insan kapitalına investisiyalar bizə inkişaf üçün yaxşı imkanlar yaradacaq. Çünki bir gün neft və qaz tükənəcək, baxmayaraq ki, bizim ehtiyatlarımız çox böyükdür. Biz böyük həcmdə təbii qaz ixrac etməyə yenicə başlamışıq və neft istehsalı sahəsi qarşıdakı onilliklərdə, ümumilikdə sabit olacaq. Lakin, əlbəttə ki, qeyri-neft sektoru prioritetdir.

Yaponiya şirkətlərinə gəlincə, onlar burada enerji sahəsində çox fəaldırlar. Yaponiya banklarından alınan kreditlərlə biz Bakıda iki böyük elektrik stansiyası tikmişik. Onların gücü 800 meqavata yaxındır. Beləliklə, bu elektrik stansiyaları istehlakımızın və ixracımızın əhəmiyyətli hissəsini təmin edir. Yeri gəlmişkən, biz həm də elektrik enerjisini ixrac edirik. Biz Yaponiya şirkətlərini hazırda prioritetlərdən biri olan bərpaedilən enerji sahəsində görmək istəyirik. Biz artıq bəzi investorlarla ilkin razılaşmalar imzalamışıq. Beləliklə, əminik ki, çox ümidverici olan və xüsusilə Abşeron yarımadasında günəş və çoxlu külək sayəsində potensialı olan bu sahədə və bir çox başqa sahələrdə əməkdaşlıq olacaq. Bu gün Yaponiya şirkətləri ilə avadanlıq, maşınqayırma, texnologiya, eləcə də kənd təsərrüfatı sahələrində əməkdaşlığımız var. Biz Yaponiya ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın səviyyəsindən məmnunuq.

*- Siyasi islahatlar barədə nə deyə bilərsiniz? Əsasən Qərb ölkələri tərəfindən tənqidlər var ki, Siz özünüz atanızdan sonra hakimiyyətə gəlmisiniz, indi xanımınız Birinci vitse-prezidentdir. Siz demokratiyanı təşviq etməyə, müxalifətə hakimiyyətə yol açmağa hazırsınızmı?*

- Düşünürəm ki, ölkədə demokratik inkişaf müsbət məcrada gedir. Azərbaycanda bütün əsas azadlıqlar təmin olunub, siyasi fəaliyyət azadlığı, media azadlığı, ifadə azadlığı, sərbəst toplaşma azadlığı, dini etiqad azadlığı. Bununla bağlı məhdudiyyət yoxdur. Yeri gəlmişkən, bizdə internet azaddır. Bizi tənqid etməyə çalışanlar şayiələr yaymaqdan, Azərbaycanın guya demokratiya sahəsindəki çatışmazlıqlarını siyasi məqsədlər üçün, siyasi təzyiq məqsədilə istifadə etməkdənsə, məzmuna baxmalıdırlar. İndi mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib. Yeri gəlmişkən, bu, toqquşmalardan əvvəl olub. İndi, əlbəttə ki, siyasi partiyaların mütləq əksəriyyəti işğal olunmuş ərazilərin qaytarılması ilə bağlı mənim yürütdüyüm siyasəti tam dəstəkləyir. Cəmi iki partiya bu prosesdə iştirak etmir. Cəmi iki partiya Azərbaycanın milli maraqlarının əleyhinə çıxış edir. Bunlar Xalq Cəbhəsi partiyası və Müsavat partiyasıdır. Yeri gəlmişkən, bu iki partiya mənim siyasi dialoqla bağlı təklifimi qəbul etmədi. Mən bu təklifi bir neçə ay bundan əvvəl etmişdim. Mən demişdim ki, bizim normal dialoqa ehtiyacımız var, hökumətlə müxalifət arasında, aparıcı partiya ilə digər partiyalar arasında normal, sivil münasibətlərə ehtiyacımız var. İndi zənnimcə, 50 və ya ondan da çox partiya bunu dəstəklədi. Biz siyasi dialoqun çox aktiv fazasındayıq.

Yalnız iki partiya, birbaşa maliyyələşdirməsi kənardan gələn, həmişə Azərbaycanın milli maraqlarına qarşı çıxan, Ermənistanın ərazilərimizi işğal etdiyi zaman - 1992-1993-cü illərdə hakimiyyətdə olduqları üçün ərazilərimizin itirilməsinə görə məsuliyyət daşıyan bu iki partiya - Xalq Cəbhəsi və Müsavat. Ərazilərin itirilməsinə görə məsuliyyət daşıyan o insanlar bu gün həmin partiyaların, demək olar ki, 30 ildir rəhbərləridir. Heç kim demokratiyadan danışmır, heç kim onların bu vəzifədə, demək olar ki, 30 il ərzində necə qaldıqları barədə danışmır. Buna görə bizi tənqid etmək istəyənlər yaxşı olardı ki, güzgüyə baxsınlar. Bizim gözümüzün önündə, beynəlxalq ictimaiyyətin gözü önündə dırnaqarası demokratiyalarda nümayişlərin necə dağıdıldığını, insanların mitinqlərdə necə öldürüldüyünü, yaralandığını, xəsarət aldıqlarını görürük. Biz bunları hər həftə görürük. Etirazçıları dağıtmaq üçün polisin itlərdən və atlardan necə istifadə etməsini görürük. Siz bunu Azərbaycanda görməyəcəksiniz, heç vaxt. Buna görə bizi tənqid edənlər, yaxşı olardı ki, öz işləri ilə məşğul olsunlar. O ki qaldı sizin mənim atamın davamçısı kimi dediklərinizə, bəli, bu, həqiqətdir. Lakin mən atamın xələfi olmamışdan əvvəl uzun illər idi, 1995-ci ildən 2003-cü ilə kimi parlamentin üzvü idim. 1997-ci ildən bəri mən Milli Olimpiya Komitəsinin prezidentiyəm. Mən aparıcı siyasi partiya olan Yeni Azərbaycan Partiyasının sədr müavini və sədrin birinci müavini olmuşdum və Baş Nazir olmuşdum. Beləliklə, mənim siyasi karyeram beynəlxalq müşahidəçilərə məlumdur və əlbəttə ki, onlar bunun onların təqdim etmək istədiyi kimi olmadığını bilirlər. Xələf olmaq haqqında danışdıqda, niyə heç kim Buş ailəsi, onların bir-birinin necə davamçısı olması haqqında danışmır? Niyə heç kim Klinton ailəsi haqqında, xanımın dövlət katibi və sonra da prezident namizədi olması haqqında danışmır və bunun kimi bir çox hallar var. Bu məsələni qaldırmazdan əvvəl, qoy, onlar özlərinə baxsınlar. Xanımıma gəldikdə, mənim xanımım 2005-ci ildən bəri parlamentin üzvü olmuşdur. O, sosial və humanitar sahələrlə bağlı olan məsələlərdə çox fəal idi. O, Qafqazda ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun prezidenti olub və olmağa davam edir. Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa və onların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, Yeni Azərbaycan Partiyasının sədr müavini olub və olmağa davam edir. Buna görə də onun siyasi karyerası qəfil baş verən hadisələrdən ibarət olmamışdır. Sizə deyə bilərəm ki, mən ona bu vəzifəni təklif etdikdə, o, bunu o qədər də sevinclə qarşılamamışdır. Sizə deyə bilərəm ki, ola bilsin mən bunu ilk dəfə deyirəm, onu inandırmaq üçün çoxlu vaxtım getdi və mənim arqumentlərim var idi və o, istəmirdi. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o, bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir.

*- Siz söz azadlığı və interneti qeyd etdiniz. Lakin sosial şəbəkə sistemlərində bəzi məhdudiyyətlər var.*

- Bunlar müvəqqəti məhdudiyyətlərdir. Bu məhdudiyyətlər toqquşmalar başladıqdan sonra tətbiq olunmuşdur. Biz xalqımıza elan etdik ki, bu, milli təhlükəsizlik məsələləridir, çünki biz belə bir vaxtda informasiya sistemimizi erməni təxribatından qorumalıyıq. Beləliklə, bu, müvəqqəti səciyyə daşıyır. Toqquşmaların aktiv fazası bitən kimi bütün bu məhdudiyyətlər aradan qaldırılacaqdır. Lakin sizə deyə bilərəm ki, internetin əhatə dairəsi çox yüksəkdir və azərbaycanlıların 80 faizdən çoxu internet istifadəçiləridir. Beləliklə, bu, yalnız müvəqqəti xarakter daşıyır.

*- Zati-aliləri, icazə verin, söhbətimizi sonuncu sualla yekunlaşdırım. Gəlin, ümidverici bir məqamla bitirək. Sizin münaqişənin sülh yolu ilə nizamlanmasına ümidiniz varmı? Sülh Ermənistan və Azərbaycana nə verə bilər? Çünki Ermənistan dənizə çıxışı olmayan ölkədir, sərhəd burada qapalıdır, Türkiyə tərəfində sərhəd qapalıdır, onların iqtisadiyyatı tənəzzülə uğrayır. Sülh iki ölkəyə nə verə bilər?*

- Bəli, əlbəttə ki, sülh regiondakı vəziyyəti tamamilə dəyişəcək. Üç Qafqaz ölkəsinin əməkdaşlıq edəcəyi vaxtı görməyi ümid edirəm. İndi məsələn, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq səviyyəsi çox yüksəkdir. Biz strateji tərəfdaşıq və bizim Gürcüstanın hazırkı hökuməti ilə mükəmməl əlaqələrimiz var. Biz bir-birimizi dəstəkləyirik, biz yaxşı qonşu və dostuq. Baxın, biz birlikdə nə qədər layihə icra etmişik, neftin nəqli, qazın nəqli, elektrik enerjisinin nəqli, dəmir yolu bağlantısı, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və bir çox başqa layihələr. Azərbaycan, zənnimcə, Gürcüstanda Türkiyə ilə birlikdə birinci və ya ikinci ən böyük investordur. Birinci və ya ikinci ən böyük vergi ödəyicisidir. Yeri gəlmişkən, 1990-cı illərin ortalarında, boru kəmərinin tikintisi məsələsi müzakirə olunanda Qərbdən bu boru kəmərinin Ermənistandan keçməsi ilə bağlı bəzi təkliflər var idi. Lakin belə olan halda Ermənistan əraziləri boşaltmalı idi və belə olduqda boru kəməri Azərbaycandan Ermənistana, sonra Naxçıvana və oradan Türkiyəyə keçə bilərdi. Bu, ən qısa marşrut idi. Xəritəyə baxsanız, siz boru kəmərinin keçdiyi marşrutu görəcəksiniz. Ermənistandan yan keçmək üçün o, bu cür çəkilib. Lakin ermənilər düşünürdü ki, biz bu boru kəmərini inşa edə bilməyəcəyik. Ona görə onlar yox dedilər. Hesab edirəm ki, indi onlar buna çox peşmandırlar. İşğala görə onlar dalana dirəniblər. Onlar hesab edirdilər ki, biz boru kəmərlərini, dəmir yollarını inşa edə bilməyəcəyik. Onlar həmişə Qars-Gümrü dəmir yolunun istismarını dəstəkləyirdilər. Bu dəmir yolu mövcud idi, lakin Ermənistanın işğalına görə bizim qardaş Türkiyə onu bağlamışdır. Beləliklə, əslində, Ermənistanın dənizə çıxışı var, lakin Azərbaycana qarşı təcavüzə və Türkiyəyə qarşı ərazi iddialarına görə onların Türkiyə ilə sərhədi yoxdur. Bəlkə siz bilmirsiniz, lakin onların konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları yer alır. Türkiyə kimi qüdrətli ölkəyə qarşı ərazi iddialarına indiki vaxtda malik olmaq üçün gərək ağılsız olasan. Lakin bu, onların ideologiyasının mahiyyətidir. Danışıqlar aparılan zamanı əvvəlki Ermənistan hökumətinə mesajlar göndərilmişdir ki, onlar işğala son qoyduğu təqdirdə Azərbaycan Dağlıq Qarabağda müxtəlif sosial və iqtisadi layihələri icra edə bilər. Bu mesajlar Minsk qrupunun həmsədrləri vasitəsilə Ermənistanın əvvəlki prezidentlərinə göndərilmişdir və onlar bunları rədd etmişdir. Bu gün Dağlıq Qarabağda insanlar yoxsulluq içində yaşayırlar. Bilirsiniz, orada tam işsizlik, yoxsulluq hökm sürür və infrastruktur dağıdılıb. Biz sərmayə yatırmağa hazır idik. Lakin biz dedik ki, əraziləri boşaldın və biz sizə kömək edərik. Bu gün biz özümüz əraziləri azad etdikdə, əlbəttə ki, biz o insanlara, Dağlıq Qarabağda yaşayan ermənilərə və sözsüz ki, bu ərazini yenidən qurmaq üçün qayıdacaq azərbaycanlılara kömək edəcəyik. Lakin əgər Ermənistan konstruktiv addımlar atsa və əraziləri boşaltsa, əlbəttə ki, biz bütün kommunikasiyaları açacağıq. Mən bilirəm, həmçinin Türkiyə hökumətinin mövqeyi barədə də eşitmişəm ki, onlar da Ermənistanın əraziləri boşaltdığı təqdirdə kommunikasiyaları açacaqlar. Onda Cənubi Qafqazda vəziyyət tamamilə dəyişəcəkdir.

*- Cənab Ərdoğan bu niyyəti barədə Sizə bir şey deyibmi?*

- Ola bilsin biz bunu birbaşa müzakirə etməmişik. Lakin, əlbəttə, biz bilirik ki, belə bir mövqe var. Ermənistan-Türkiyə sərhədi işğala görə bağlıdır. İşğala son qoyulsa, sərhəd açılacaq. Bu, Türkiyə hökumətinin rəsmi mövqeyidir və ermənilər bunu bilirlər. Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur. Çünki bazar kiçikdir və daha da kiçilir, əhali azalır, miqrasiya çox yüksəkdir. Bizdə olan məlumata görə, bu gün Ermənistanda real əhalinin sayı iki milyondan azdır, iki milyondan az və o, daha da azalacaq, çünki iş yoxdur, xüsusilə indi, onlar, necə deyərlər, işğal olunmuş çox məhsuldar torpaqlardan məhrum olduqda. Siz səmadan çəkilmiş təsvirlərə baxsanız, onların bizim torpaqlardan qeyri-qanuni məhsullar üçün necə istifadə etdiklərini görərsiniz. Onlar nəinki bizim torpağımızdan, Kəlbəcərdə bizim qızıl mədənlərindən istifadə edirlər. Fəaliyyətlərini dayandırmadığı təqdirdə, orada bizim məhkəməyə verəcəyimiz əcnəbi şirkətlər var. Yeri gəlmişkən, onlar istənilən halda tezliklə fəaliyyətlərini dayandıracaqlar. Beləliklə, bu mühüm kənd təsərrüfatı seqmentindən məhrum olduqlarına görə onlar hətta daha çox problemlərdən əziyyət çəkəcəklər və tənəzzülə uğrayacaqlar, biz isə inkişaf edəcəyik. Bizim əhalimiz artır. Türkiyənin əhalisi 83 milyondur, Azərbaycanın əhalisi 10 milyondur, Ermənistanın əhalisi isə iki milyondan azdır. Onlar məntiqli olmadığı təqdirdə, işğala son qoymadığı təqdirdə burada 10 il, 20 il, 50 ildən sonra necə yaşayacaqları haqqında düşünməlidirlər. Onlar artıq bu təcavüzə son qoymalıdırlar. Biz döyüş meydanında onlara kimin kim olduğunu göstərdik. Onların “cəsur ordusu” haqqında bütün mifləri, sadəcə, bir növ feyk idi. Onların ordusu qaçır. Biz onları məğlub edirik. Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik.

*- Bu imkana görə çox sağ olun. Bakıda olmaq həmişə bizdə məmnunluq hissi oyadır.*

- Təşəkkür edirəm.

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:

# “Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır”

*Əvvəli 1-ci səh.*

Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!

Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm.

*- Sizin söylədiyiniz hər bir kəlmə xalqımızın istəyi ilə həmahəngdir və əməllərdə, hərəkətlərdə misli görünməmiş fəallıq doğurur. Sizin müraciətinizdən dərhal sonra həmvətənlərimizin erməni yalanlarını və böhtanlarını ifşa etməyə yönəlmiş səyləri buna parlaq sübutdur.*

- İnformasiya məkanında fəallıq göstərmək barədə çağırışıma qoşulan hər kəsə təşəkkür etmək istəyirəm. Biz daim yadda saxlamalıyıq ki, qarşıdurma təkcə bilavasitə döyüş əməliyyatları bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Mən bizim gənclərimizin, vətəndaşlarımızın erməni təbliğatının feyklərini necə ifşa etdiklərini, erməni təcavüzü haqqında həqiqəti bütün mümkün platformalarda beynəlxalq ictimaiyyətə necə çatdırdıqlarını görürəm. Onların haqq səsi tarixin saxtalaşdırılması hallarını aşkar etməyə və tamamilə əsassız, açıq-aydın yalan, təhrikçi materialların yayılmasının qarşısını almağa kömək edir.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm, onların obyektivliyi və yüksək peşəkarlığı sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün olur.

Əllərinə bayraq götürərək təcavüzkara etirazlarını bildirən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən xaricdə yaşayan soydaşlarımızı qeyd etməmək mümkün deyil. Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram.

Bu gün biz hamımız cəbhədə baş verənlər barədə fikirlərlə yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik. Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır.

*- Mehriban xanım, Siz bəyanatlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, hətta düşmənin mülki əhaliyə qarşı vəhşicəsinə təxribatlarına baxmayaraq, xalqımız inanılmaz ruh yüksəkliyi və mərdlik nümayiş etdirir.*



- Təəssüf ki, erməni tərəfi məqsədyönlü şəkildə nəinki beynəlxalq konvensiyaların tələblərini pozur, hətta əxlaq normalarını tapdalayır.

Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlar Ermənistanın Azərbaycana qarşı məkrli siyasətini açıq ifşa edir. Dəfn mərasimi zamanı qəbiristanlığı necə atəşə tutmaq olardı? Gecə vaxtı, sakinlər yatarkən Gəncə şəhərini raket atəşinə necə məruz qoymaq olardı? Günahsız mülki şəxslər, uşaqlar, qadınlar həlak olub. Bu, insanlığa qarşı cinayətdir, bu, terrorizmdir. Bütün bunlar birmənalı şəkildə göstərir ki, Yerevanın sülhdə marağı yoxdur, o, yalnız münaqişənin eskalasiyasını, onun regional qarşıdurmaya çevrilməsini arzu edir.

Lakin Ermənistanın heç bir alçaq əməli, - nə siyasi platformaya əsaslanan iyrənc provokasiyaları, nə informasiya məkanında məkrli avantüraları, nə dinc vətəndaşlara vəhşicəsinə hücumları, - heç nə Azərbaycan xalqının iradəsini sındıra bilməz. Birlik, həmrəylik, bir-birinin dərdinə şərik olmaq və qarşılıqlı dəstək nümayişi müəyyən mənada heç kəsin heç vaxt bizim iradəmizi və Vətənimizi işğaldan azad etmək istəyimizi sındıra bilməyəcəyinə dair Azərbaycan xalqının ismarıcıdır.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa və Azərbaycanın mülki əhalisinə qarşı vəhşicəsinə qəddarlığı kəskin pisləməyə çağırıram. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzü dayandırmağa çağıran qətnamələrinə etinasızlığa son qoymalıdır.

Azərbaycan dövlətinin heç vaxt başqalarının torpaqlarında gözü olmayıb. Biz dinc əhaliyə hücum etmirik. Bizim işimiz haqq işidir. Bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad edir. Bizim əsgərlər qəhrəmanlıq və igidlik göstərərək Vətən uğrunda şərəflə döyüşür, öz adlarını Azərbaycanın tarixinə yazırlar. Mən bütün yaralıların tezliklə sağalmalarını arzu edirəm. Həlak olmuş hərbi qulluqçuların ailələrinə, doğmalarına dərin hüznlə başsağlığı verirəm. Vətən naminə şəhid olmuş igid övladlarımıza Allah rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq və qalmır. Düşmənə layiq olduğu cavab verilir.

Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi.

*- Mehriban xanım, Siz bu günlərdə xalqımızın qeyri-adi birliyini qeyd etdiniz. Koronavirus pandemiyasına qarşı mübarizədə bir növ şüara çevrilmiş “Biz birlikdə güclüyük!” cümləsini hamımız xatırlayırıq. Demək olarmı ki, bu gün həmin cümlə xüsusi məna kəsb edir?*

- Bu, şübhəsiz belədir. Biz yalnız birliyimizi qorumaqla və Prezidentin ətrafında sıx birləşməklə bu ilin yadda qalacağı bütün çağırışları və çətinlikləri dəf edə bilərik.

Siz koronavirus pandemiyasını xatırlatdınız və mən bu məsələyə bir qədər ətraflı toxunmaq istərdim. Biz bugünədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.

Təəssüf ki, çoxsaylı ölkələrə və xalqlara bu qədər bəla və iztirab gətirmiş virusa hələ də qalib gəlmək mümkün olmayıb. O, hələ də ciddi təhlükə mənbəyidir, bütün dünyada pisləşməkdə olan statistika buna sübutdur. Pandemiyaya qarşı müharibə hələ davam edir. Avropa dövlətlərinin çoxunda çoxsaylı məhdudiyyətlər yenidən qüvvəyə minir.

Təəssüf ki, bizim ölkəmiz də istisna deyil. Məlumdur ki, son günlərdə yoluxanların sayının artması müşahidə olunur, təhsil müəssisələrində, ictimai nəqliyyatda yenidən bəzi məhdudiyyətlər tətbiq edilib.

Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq.

Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda, ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq.

Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!

# İLHAM ƏLİYEV Qarabağı Azərbaycanın ən inkişaf etmiş məkanına çevirəcək

*Əvvəli 1-ci səh.*

## Azərbaycan iqtisadi üstünlüyünü hərbi gücə çevirməyi bacarıb

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regional liderliyi son 17 ildə iqtisadiyyatını 3 dəfədən çox böyütməsi, regional neft-qaz və nəqliyyat-logistika layihələrini gerçəkləşdirməsi ilə sübut olunmuşdu. Kissincerin “neftə nəzarət etməklə dövlətlərə, ərzağa nəzarət etməklə insanlara nəzarət mümkündür” sitatına uyğun olaraq Azərbaycan regionun geopolitikası və geoiqtisadiyyatını şəkilləndirərkən yekun bir ştrixə ehtiyac duyurdu. Əhalisinə görə dünyada 90-cı və ərazisinə görə 114-cü ölkə olan Azərbaycan nüfuzlu “US News”un hesabatına əsasən, dünyada 45-ci gücə çevrilməyi bacarıb. Azərbaycanın regional oyunçu statusunda iqtisadi və siyasi üstünlüyünü hərbi potensialının təsdiqi tamamlamalıydı ki, ölkə regional liderliyini tam təsbit etsin. Son 10 ildə Azərbaycanın hərbi büdcəsi ÜDM-in 4 faizi və dövlət büdcəsinin 11 faizi həddində olub. Cari il sentyabrın 27-də Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusunun əks-həmləsi nəticəsində düşmənin 30 il müddətində yaratdığı müdafiə səddi yarılıb və 1988-1993-cü illərdə işğalına illər sərf edilmiş Azərbaycan torpaqları bir neçə həftə ərzində azad edilməyə başlayıb. Beləliklə, Azərbaycan iqtisadi üstünlüyünü hərbi gücə və düşmən üzərində üstünlüyə çevirməyi bacarıb. Azərbaycanın Cənubi Qafqazda gücün bütün parametrləri - iqtisadi, siyasi və hərbi cəhətdən önə çıxması regionun geopolitikasını və geoiqtisadiyyatını yenidən şəkilləndirir. Resurs müharibəsinə tab gətirə bilməyəcəyi əvvəlcədən proqnozlaşdırılan Ermənistan Azərbaycanla son müharibənin ilk 20 günündə 3,5 milyard dollar və ÜDM-in 30 faizi həcmində itki ilə üzləşib. Yardımlar olmayacağı təqdirdə bu müharibədəki ziyanını bağlamaq üçün Ermənistana 10 il vaxt lazım olacaq”.

## Ermənistanın regional layihələrdən kənarda saxlanılması öz sözünü dedi

İİTKM-in icraçı direktoru bildirib ki, beynəlxalq güclərin dəstəyi ilə Ermənistanın Azərbaycanın 20 faiz ərazisini 30 ilə yaxın işğalda saxlaması ölkəmiz üçün “geopolitik lift” sayıla bilərdi. Çünki Azərbaycan bütün resurslarını bu müddətdə erməni işğalını aradan qaldırmaq üçün səfərbər etmişdi. Bu “geopolitik liftlər” - neft-qaz və nəqliyyat-logistika layihələri Azərbaycanı Avrasiyanın mərkəzində “Şimal-Cənub” və “Şərq-Qərb” dəhlizlərində yüksək mərtəbələrə qaldıra bilib.

XIX əsrdə Napoleonun Böyük Britaniyanı “Kontinental mühasirə” (Blocus continental) cəhdi uğursuzluqla nəticələndiyi halda, Azərbaycanın aqressor Ermənistanı sülhə məcbur etmək üçün onu regional layihələrdən kənarda saxlaması öz sözünü dedi. Müstəqilliyinin məhdudlaşdırılması, tədiyyə balansı və icmal dövlət büdcəsinin xroniki kəsiri, əsas iqtisadi rıçaqlarının itirilməsi və əhalinin dörddəbirinin yoxsulluq həddindən aşağıda olması Ermənistana Qarabağda işğalı davam etdirməyə imkan vermir. Azərbaycanın bu il sentyabr-oktyabr aylarındakı hərbi uğuru - Ermənistan üçün bir həqiqəti çılpaqlığı ilə ortaya qoydu: itirilmiş 30 il. Daha bir tarixi şansın itirilməməsi üçün Ermənistanın işğal siyasətindən əl çəkməsi lazımdır.

## Torpaqlara qayıtdıqca həyat da canlanır

İşğaldan azad olunan torpaqlarda iqtisadiyyatın bərpasının necə həyata keçiriləcəyinə gəldikdə, Vüsal Qasımlı qeyd edib ki, bununla bağlı Azərbaycanın kifayət qədər təcrübəsi var: “Hətta ölkəmizdə Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılıb ki, onun da missiyası aparılan bərpa işlərinin koordinasiyasını və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması üçün şəraitin yaradılmasını təmin etməkdir. 2020-ci ildən başlayaraq Azərbaycan Ordusunun düşmən tapdağından azad etdiyi ərazilərin də uyğun qaydada bərpası həyata keçiriləcək.

1994-cü ildə uğurlu Horadiz əməliyyatından sonra Füzuli rayonunun 42 yaşayış məntəqəsinə həyat verildi. 2016-cı ilin aprelində hərbi qələbədən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi - “Böyük qayıdışın başlanğıc” nöqtəsi oldu. Dövlətin diqqət və qayğısı nəticəsində Cocuq Mərcanlı kəndi qısa müddətdə müasir və abad bir yaşayış məntəqəsinə çevrilib. Bu məqsədlə Azərbaycan Prezidenti tərəfindən ardıcıl olaraq bir neçə dəfə sərəncam imzalanıb. Cocuq Mərcanlı hazırda işğal altında olan istənilən kənd yaşayış məntəqəsi ilə müqayisədə daha abaddır, iş yerləri və sosial xidmətlərlə daha yüksək səviyyədə təmin olunub. Bu da Azərbaycan və Ermənistanın inkişafa münasibətlərində fərqi göstərir. Artıq Tərtər rayonunun yenicə azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpası başlayır. Bir sözlə, Azərbaycan torpaqlara qayıtdıqca həyat da canlanır. Bunun üçün ilk növbədə azad olunmuş ərazilərin minalardan təmizlənməsi və digər zərərsizləşdirmə tədbirləri görülür, daha sonra kommunikasiyalar qurulur və nəhayət, yaşayış və istehsal təmin edilir. Torpaqlar işğaldan azad edildikcə “Böyük qayıdış” da davam edir”.

## Təcavüz nəticəsində itkilərimiz 820 milyard dollar səviyyəsindədir

Ərazilər işğaldan azad olunduqca ermənilərin bizim torpaqlarda talançılıq və dağıdıcılıqla məşğul olması bir daha sübut olunur. Bu baxımdan Azərbaycana dəyən ziyanın nə qədər olması diqqət mərkəzinə gəlir. Vüsal Qasımlının bildirdiyinə görə, - 1988-1993-cü illərdə işğal olunmuş ərazilərdə erməni təcavüzkarları tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində ümumilikdə 900 yaşayış məntəqəsi, 150 min yaşayış evi və mənzil, 6 minədək sənaye, kənd təsərrüfatı və digər müəssisələr tam şəkildə sıradan çıxarılıb və dağıdılıb, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 798 səhiyyə obyekti, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb, soyğunçuluğa məruz qalıb.

Bundan əlavə, 280 min hektar meşə, 1 milyon hektara yaxın məhsuldar torpaqlar, o cümlədən 127 min 700 hektar suvarılan torpaq, 34 min 600 hektar üzüm və meyvə bağları sahəsi, 1200 kilometr irriqasiya sistemi işğalçıların əlinə keçib, işğal edilən ərazilərdən kənarda yerləşən 5 rayonda 120 min hektar əkinəyararlı torpaq sahəsi suvarılmamış qalıb və praktiki olaraq təsərrüfat dövriyyəsindən çıxarılıb. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara aparılıb. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi məqsədilə İşçi Qrupu yaradılıb və 1988-1994-cü illərdə silahlı erməni təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı hər cür əmlakın, o cümlədən yeraltı və yerüstü sərvətlərin itkisinin dəyərinin hesablanması, onların qiymətləndirilməsi və bu sahədə elektron məlumat bazası yaradılıb. 2017-ci ilə olan məlumatlara əsasən, silahlı təcavüz nəticəsində itki və tələfatların ümumi dəyəri 820 milyard dollar səviyyəsində olub. İşğaldan azad olunduqca Azərbaycan bu ərazilərə həyat gətirəcək. Ermənistana qarşı vurduğu ziyana görə təzminat iddiası da mümkündür.

## İşğaldan azad olunan ərazilərdə “tikinti bumu” gözlənilir

Bütün bunlara rəğmən işğaldan azad edilən ərazilərdə böyük inkişaf potensialı var. İİTKM-in icraçı direktorunun sözlərinə görə, ərazilərin işğal altında saxlanılması Ermənistana ciddi iqtisadi fayda gətirməyib: “Həmin ərazilərin yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olmasına, əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və başqaları kimi çox yayılan faydalı qazıntılara malik olmasına, habelə geniş kurort-rekreasiya potensialına malik olmasına baxmayaraq, Ermənistan bu potensialdan heç bir zaman tam faydalana bilməyib. Bəli, Kəlbəcərdə və başqa ərazilərimizdə kustar üsullarla və ətraf mühitə ziyan vurmaqla faydalı qazıntılarımız talanıb. Buna görə cavabdeh şəxslər məsuliyyətə cəlb olunacaqlar.

“AzerGold” QSC və Azərbaycan Sənaye Korporasiyası bu ehtiyatların hasilatı və emalını həyata keçirə biləcək təcrübə, ixtisaslı kadr, ixrac və investisiya imkanlarına sahibdirlər. Beləliklə, yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafı, dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafını sürətləndirəcək. 5G texnologiyalara sahib Azərbaycan Ordusunun təchizatında hərbi sənayemiz öz sözünü deməlidir. Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə meşə, su və torpaq resursları aqrar sahə, emal sənayesi və turizmin inkişafı üçün böyük imkanlar yaradır. Ən əsası, azad edilən ərazilərin iqtisadiyyatı yenidən qurulacaq və yeni texnologiyalar tətbiq olunacaq ki, bu da iqtisadiyyatı daha məhsuldar edəcək. İkinci Dünya müharibəsindən sonra ən çox dağılmış iki ölkə - Almaniya və Yaponiya daha sürətlə inkişaf etdi, çünki yeni texnologiyalar tətbiq olundu, iqtisadiyyatın məhsuldarlığı yüksəldi. Məsələn, işğaldan azad edilmiş Cəbrayılın yenidən tikilməsi üçün əksər tikinti materiallarının ehtiyatları elə bu rayonun özündə də var: mişar daşı istehsalına yararlı tulus tuf, çaxmaqçay, tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı vulkan külü, gəc, əhəngdaşı, qum-çınqıl, yəşəm, xalsedon və meşə ehtiyatları.

İşğaldan azad olunan ərazilərdə “tikinti bumu” gözlənilir. Ərazilərimizin azad edilməsi nəticəsində biz qarşıdakı illər üzrə qeyri-neft sektorunun inkişafı ilə bağlı verdiyimiz proqnozları yenidən işləməli olacağıq. Çünki ordumuzun bu qələbəsi həm də qeyri-neft sektorumuzun daha sürətlə böyüməsinə təkan verəcək. Ərazilərin işğaldan tam azad olunmasının iqtisadi inkişafımıza təsiri çox böyük olacaq. İlkin hesablamamız göstərir ki, qarşıdakı illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələr üzrə məhsulun ümumi buraxılışı 2 milyard manatdan çox arta bilər”.

## Kənd təsərrüfatının inkişafı sürətlənəcək

İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatı sahəsində də böyük perspektivlər var. Vüsal Qasımlının sözlərinə görə, işğal olunmuş ərazilər işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. İndi isə Ermənistanın işğal nəzarəti altında saxlamasına baxmayaraq, bu zona Ermənistan üçün səmərəsiz olub. Təkcə Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaqların olmasına baxmayaraq, bu ərazilərin cəmi 7 faizindən istifadə edilir. Belə ki, çayların əsasən şimal hissədə yerləşməsi, əkin sahələrinin isə cənubda olması və həmin ərazilərdə yeraltı suların daha dərində yerləşməsi, işğaldan əvvəl mövcud olan irriqasiya sisteminin məhv edilməsi bu ərazilərin istifadəsiz olaraq qalması ilə nəticələnib. Əkin sahələrində məhsuldarlıq aşağı səviyyədə olub və hər hektardan cəmi 10-12 sentner taxıl götürülüb. Halbuki bu rəqəm işğaldan əvvəl 21-25 sentner idi. Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Eyni zamanda, burada emal və ərzaq sənayesinin inkişafı potensialı var.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Hazırda ölkəmizdə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,5 faiz, süd və süd məhsulları üzrə 86,2 faizdir. Proqnozumuza görə, işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu məhsullarla özümüzü tam təmin edə biləcəyik. Həmçinin Azərbaycanda dənli (çəltik daxil edilmir) bitkilər üzrə özünütəminetmə səviyyəsi 70 faizə çatır. Torpaqlarımızın işğaldan azad olunması bizə imkan verəcək ki, bu sahədə də vəziyyəti yaxşılaşdıraq.

## Ermənistanın Azərbaycana qarşı hidro müharibəsinə də son qoyulur

Su ehtiyatlarının 72,7 faizi ölkə xaricində formalaşan Azərbaycanın işğal altında olan su resurslarına çıxışı olduqca mühüm əhəmiyyət kəsb edir. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Azərbaycan su ehtiyatlarını səmərəli idarə etməklə həm Ermənistanın Azərbaycana qarşı apardığı hidro müharibəyə son qoyacaq, həm də Ermənistanın özünə də nəzarət imkanı qazanacaq. Xüsusən də Kəlbəcər və Laçın rayonları şirin su ehtiyatları ilə zəngindir, hətta Ermənistanın şirin su mənbəyi olan Göyçə gölünü qidalandıran Arpa və Bərgüşad çaylarının da mənbəyi bu rayonlardadır.

Bundan əlavə, Azərbaycanın hündürlüyünə görə (125 metr) ən yüksək, ümumi su tutumu 560 milyon kubmetr olan su anbarı - Sərsəng su anbarı da işğal altındadır. Keçmişdə Sərsəng su anbarı Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarını suvarma suyu ilə təmin edirdi. Ermənistan tərəfi bu su anbarını süni daşqınlar yaratmaqla Azərbaycan torpaqlarına ziyan vurmaq üçün yaz və payız aylarında açırdı. Sərsəng su anbarı Ermənistanın əlində regional ekoloji və milli təhlükəsizlik üçün təhdiddir.

Azərbaycanın mineral su ehtiyatlarının 40 faizinə qədəri işğal altındakı torpaqlardadı. Bu suların həm qablaşdırılaraq satılması, həm də bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür. İşğal altındakı 2 qoruq, 4 yasaqlıq və tarixi abidələrin əsasında turizmin inkişafı üçün böyük potensial var. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının turizm imkanları çox genişdir.

Ermənistan işğal altındakı ərazilərdə 2020-ci ilədək 30 kiçik su elektrik stansiyasının (SES) tikintisini nəzərdə tutsa da, onlardan yalnız 16-sı istifadəyə verilib. Həmin istifadəyə verilmiş SES-lərin ümumi gücü 1976-cı ildə istifadəyə verilmiş gücü 50 meqavat olan “Sərsəng” SES səviyyəsindədir. Nəzərə alsaq ki, Suqovuşan Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub və həmin ərazidə olan “Madagiz 1” və “Madagiz 2” SES-lər dövriyyədən çıxıb və mövcud güc daha da azalıb. Ümumilikdə isə işğaldan sonra Qarabağın enerji sistemi Ermənistandan asılı vəziyyətdədir və istehsal olunan güc ümumi tələbatın 30-40 faizini təmin etmək qabiliyyətindədir.

Prezident İlham Əliyevin uzaqgörənliklə Araz çayı üzərində Xudafərin və Qız qalası bəndləri və elektrik stansiyalarının inşası və istismarı haqqında İranla gəldiyi razılaşma bu gün öz sözünü deyir. “Xudafərin” hidroqovşağı Azərbaycana ildə 368 milyon kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Burada həm də suvarma imkanları mövcuddur.

## Ermənistanda pullar iqtisadiyyata yox, işğala yönəldilir

Vüsal Qasımlı onu da qeyd edib ki, Ermənistan Azərbaycanla resurs müharibəsinə və silahlanma yarışına hazır deyil: “Bu, Ermənistanı taqətdən salır və tükəndirir. Ermənistanın dövlət büdcəsinə nəzər yetirsək görərik ki, 1995-2020-ci illərdə hərbi xərclər cəmi 7,9 milyard dollar səviyyəsində olub. Eyni zamanda, həmin dövr üzrə qondarma rejimin büdcəsinə də Ermənistan büdcəsindən transfertlər olub. Ümumilikdə ötən dövr ərzində Ermənistanın büdcəsində işğalla bağlı təxminən 8,6 milyard dollar həcmində xərc yaranıb ki, bu xərc də ölkə üçün böyük yükdür. Müqayisə üçün deyək ki, qeyd olunan müddət ərzində Ermənistan iqtisadiyyatına qoyulmuş birbaşa investisiyaların həcmi təxminən 8 milyard dollar səviyyəsində olub. Eyni zamanda, həmin xərclər 2020-ci il səviyyəsi nəzərə alınmaqla Ermənistanın 2,5 illik büdcə xərclərinə bərabərdir. Hərbi xərclərin büdcədə dominant olması ölkədə digər sahələrin, xüsusilə elm, təhsil, səhiyyə, texnologiya, habelə sosial sektorun maliyyələşdirilməsində ciddi problemlər yaradıb. Nəticədə hər 4 nəfərindən biri yoxsul olan Ermənistan dünyada ən militarist iqtisadiyyata malik ölkələr arasındadır. Göründüyü kimi, işğal altında saxlanılan Qarabağın Ermənistan üçün heç bir iqtisadi potensialı yoxdur, nəzərdə tutulan bütün “perspektiv planlar” iflasa uğrayıb. Başqa sözlə, Qarabağ Ermənistan üçün iqtisadi yük, Azərbaycan üçün isə iqtisadi potensialdır”.

## İşğalçının Qarabağdakı məskunlaşma siyasəti iflasa uğrayıb

Ermənistan işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma siyasəti həyata keçirib. Belə ki, Ermənistan hökuməti Ermənistandan və digər ölkələrdən, xüsusilə Suriya, Livan və İraqdan olan ermənilərin Azərbaycanın işğal altında olan ərazilərində məskunlaşmasını təşviq etmək məqsədilə maliyyə, maddi-texniki və sair yardımlar göstərəcəyi ilə bağlı müxtəlif vədlər verib.

Bu barədə qənaətlərini bölüşən İİTKM-in icraçı direktoru deyib: “Məskunlaşma siyasəti tam iflasa uğrayıb. Ermənistan statistikasına əsasən, bu ərazilərdə təxminən 150 min, erməni mətbuatına görə 40-45 min, işğal olunmuş ərazilərdə aparılmış faktaraşdırıcı missiyanın hesabatlarına əsasən isə cəmi 25 min əhali yaşayır. Xatırladaq ki, işğaldan əvvəl həmin ərazilərdə 1 milyona yaxın azərbaycanlı yaşayırdı. Görünən odur ki, bu ərazi erməni xalqı üçün heç vaxt cəlbedici olmayıb. Eyni zamanda, Ermənistanın mövcud iqtisadi potensialı verilmiş vədlərin icrasını mümkünsüz edib. Depopulyasiya, aşağı doğum faizi və əhalinin qocalması ilə demoqrafik böhran yaşayan Ermənistanın Qarabağda məskunlaşma siyasəti iflasa uğrayıb. Avropada ən sürətli əhali artımına malik olan ölkələrdən biri kimi Azərbaycanın demoqrafik fundamentalları imkan verəcək ki, işğaldan azad olunan ərazilərdə sürətlə məskunlaşma aparılsın, insanlarımız ata-baba yurdlarına geri qayıtsınlar”.

Göründüyü kimi, Qarabağın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatının genişlənməsinə və diversifikasiyasına töhfə olacaq. Prezident İlham Əliyevin dediyi kimi, “Qarabağ Azərbaycandır!” İlham Əliyev Qarabağı Azərbaycanın ən inkişaf etmiş mərkəzinə çevirəcək. Azad edilmiş bölgələrin güclü iqtisadi potensialı isə ölkəmizin yüksəlişinə böyük təkan verəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Nazirlər Kabinetinin Aparatı və BMT-nin Ölkə üzrə İdarə Heyəti Azərbaycana humanitar yardım təşəbbüsünü müzakirə edib

## BMT-nin Ölkə üzrə İdarə Heyəti Azərbaycanda zərər görmüş insanlara humanitar yardım göstərməyə hazırdır

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ölkə üzrə İdarə Heyətinin Azərbaycana bir sıra sahələrdə humanitar yardım göstərilməsi ilə bağlı təşəbbüsünün müzakirə edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının və hökumət nümayəndələrinin, həmçinin BMT-nin Azərbaycandakı agentliklərinin rəhbərlərinin iştirakı ilə videoformatda görüş keçirilib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Nazirlər Kabinetinin Aparatı tərəfindən Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təxribatı barədə məlumat verilib. Qeyd edilib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində xeyli sayda mülki şəxs həlak olub və yaralanıb, yaşayış binaları, mülki və digər obyektlər dağıdılıb. Ermənistanın 30 ilə yaxındır ki, dünya ictimaiyyətinin sülh çağırışlarına, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymadığı bildirilib.

Azərbaycan Ordusunun təcavüzün qarşısını almaq, mülki əhalini qorumaq və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün əks-hücum tədbirləri görməyə məcbur qalması diqqətə çatdırılıb. Xüsusi olaraq vurğulanıb ki, əməliyyatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində aparılır və Azərbaycan öz ərazilərində özünü müdafiə edir.

BMT-nin Ölkə üzrə İdarə Heyətinin Azərbaycana bir sıra sahələrdə humanitar yardım göstərilməsi ilə bağlı təşəbbüsünə dair müzakirələrin vacibliyi qeyd edilib.

BMT-nin Ölkə üzrə İdarə Heyətindən bildiriblər ki, məlum hadisələrlə əlaqədar Azərbaycanda zərər görmüş insanların ehtiyaclarının qiymətləndirilməsi, hökumətin onlara yardım göstərmək istiqamətində səylərinin dəstəklənməsi məqsədilə müvafiq humanitar yardım göstərməyə hazırdırlar. Vurğulanıb ki, bu yardım ərzaq təhlükəsizliyi, səhiyyə, təhsil, təhlükəsizlik, minalardan təmizləmə, həmçinin psixo-sosial dəstək sahələrini əhatə edə bilər.

# Beynəlxalq təşkilatlardan Milli Məclisə Ermənistan silahlı qüvvələrinin təcavüzünü pisləyən məktublar gəlməkdə davam edir

Milli Məclisin Sədri Sahibə Qafarovanın ünvanına beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı təcavüzünü pisləyən məktublar gəlməkdə davam edir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyassın Sahibə Qafarovaya göndərdiyi məktubda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki şəxslərinin və infrastrukturun, münaqişə zonasından uzaqda yerləşən şəhər və rayonların atəşə tutulması, o cümlədən Gəncə şəhərinə raket zərbələrinin endirilməsi pislənilir.

Məktubda İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı tərəfindən keçirilən müxtəlif konfranslarda qəbul olunan qətnamələrdə qeyd olunduğu kimi, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığına dəstək verilməsi bir daha təsdiqlənir, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə çoxsaylı mülki şəxsin şəhid olması və yaralanması ilə nəticələnən təcavüzü bir daha kəskin şəkildə qınanır.

# Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı hücumlarını qınayır

Beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycanın şəhər və rayonlarını atəşə tutmasını, dinc əhalinin qətlə yetirilməsini pisləyərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin haqlı mövqeyini dəstəklədiklərini bəyan edirlər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu günlərdə Fransada Azərbaycanın Dostları Assosiasiyasının sədri, Fransa parlamentinin fəxri üzvü Jan-Fransua Manselin verdiyi bəyanatda bildirilir ki, assosiasiya Ermənistan silahlı qüvvələri tərəfindən sentyabrın 27-dən başlayaraq Azərbaycanın bir sıra şəhərlərinin mülki əhalisini hədəfə alan raket hücumlarını kəskin şəkildə pisləyir.

Sənəddə münaqişə zonasından uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin bir neçə dəfə atəşə tutulmasından narahatlıq ifadə olunur. Qeyd edilir ki, Ermənistanın bu hərbi cinayətləri BMT və Avropa İttifaqı tərəfindən də pislənilib və qəbuledilməz hesab olunub.

Bəyanatda bildirilir ki, Azərbaycanın Dostları Assosiasiyası Ermənistanın təxribatları nəticəsində günahsız insanların qətlə yetirilməsi ilə bağlı Azərbaycan xalqına öz dəstəyini ifadə edir.

Sənəddə ATƏT-in Minsk qrupuna daxil olan dövlətlərin uzun illərdir münaqişənin həlli istiqamətində heç bir nəticə əldə etmədikləri, status-kvonun dəyişdirilməsi üçün heç bir iş görmədikləri təəssüflə qeyd edilir, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tezliklə yerinə yetiriləcəyinə ümid ifadə olunur.

Bəyanatın sonunda Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etməsi tələb olunur.

*Türkiyənin Baş Ombudsmanı:*

# "Gəncədə dinc insanların, azyaşlı uşaqların öldürülməsi cinayət və vəhşilikdir"

Gəncəni ziyarət etməkdə məqsədimiz burada insanlığa qarşı vəhşiliyi, gecə vaxtı atılan raketlərlə dinc insanların, mülki vətəndaşların, azyaşlı uşaqların öldürüldüyünü bilavasitə görməkdir. Dinc insanları hədəfə alaraq mərmi atmaq, onları gecə vaxtı öldürmək cinayət və vəhşilikdir.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Gəncəyə səfər edən İslam Ölkələri Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç deyib.

Baş Ombudsman bildirib ki, belə cinayətlər tarixin heç bir dövründə bağışlanmayıb. Bu cinayəti məqsədyönlü şəkildə törədənlər, mülki şəxsləri qətlə yetirənlər, insanları raket atəşinə tutanlar mütləq müəyyənləşdiriləcək və onlar cəzalandırılacaqlar. Tarix bunun canlı şahididir. Mən Türkiyənin Ombudsmanı olaraq, eyni zamanda, İslam Ölkələri Ombudsmanlar Assosiasiyasına sədrlik edirəm. Bu məsələdə Azərbaycan Ombudsmanı ilə həmrəylik içərisindəyik. Zərərçəkmiş insanlarla, səlahiyyətli şəxslərlə görüşmək üçün buraya gəlmişəm. İnşallah, buradakı işlərdən sonra hazırlayacağımız məruzəni əvvəlcə Türkiyədəki insan haqları təşkilatlarına, sonra İƏT-in, daha sonra dünyadakı bütün insan haqları qurumlarına və ombudsmanlara, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə, BMT-yə göndərəcəyik. Çünki haqsızlıqlardan danışmadıqca, yalan söyləyənlər həqiqətləri deyənləri üstələyir.

Türkiyənin Baş Ombudsmanı qeyd edib ki, Ermənistan Azərbaycan torpaqlarını otuz ildir işğal altında saxlayır. BMT, ATƏT və digər beynəlxalq qurumlar münaqişənin həlli üçün ciddi addım atmayıblar. Otuz il davam etmiş bu münaqişənin daha da uzanması mümkün deyil. Bu baxımdan Azərbaycanın haqlı mübarizəsini, beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərini müdafiə etməsini biz insan haqları təşkilatı, ombudsman olaraq ürəkdən dəstəkləyirik. Çünki bu, haqlının mübarizəsidir.

Şərəf Malkoç diqqətə çatdırıb ki, Azərbaycan xalqının və dövlətinin birliyi bu dövrdə çox böyük əhəmiyyət kəsb edir. Digər bir mühüm amil isə Prezident Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan Prezidenti İlham Əliyevin dostluğu və həmrəyliyidir. Bu dostluq və qardaşlıq Qafqazda sülhü və sabitliyi təmin edəcək. Ümidvaram, Azərbaycan bu haqlı mübarizəsində zəfər qazanacaq, işğala son qoyulacaq, məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdacaqlar.

"Ermənistanın bu işğal siyasəti hüquqa və mənəviyyata ziddir. Mülki şəxslərin hədəfə alınması, onların raket atəşinə məruz qalması nəticəsində çoxlu sayda şəxs həlak olub. Azərbaycanın özünü qanuni müdafiəsi və Türkiyənin, eləcə də beynəlxalq hüquqa hörmət edən digər ölkələrin bu özünümüdafiəyə dəstəyi nəticəsində mülki şəxsləri hədəfə alanlar mühakimə ediləcəklər", - deyə Türkiyənin Baş Ombudsmanı vurğulayıb.

# Türkiyənin Baş Ombudsmanı Gəncədə erməni vəhşiliyi ilə tanış olub













Ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının prezidenti və Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 22-də Gəncəyə səfər edib.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, Şərəf Malkoç cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının dağıtdığı evlərə baxıb, erməni terrorunun izləri ilə tanış olub.

Türkiyə Respublikasının Baş Ombudsmanına məlumat verilib ki, işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Belə müharibə cinayətlərindən sonuncusu oktyabrın 17-də törədilib. Gəncənin mərkəzi hissəsinin raket atəşinə tutulması nəticəsində 14 nəfər həlak olub, 50-dən çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Həlak olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var.

Qeyd edilib ki, Ermənistan ordusu oktyabrın 11-də törətdiyi faciə zamanı isə Gəncədə 5-i qadın olmaqla 10 nəfər həlak olmuşdu. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 34 nəfər yaralanmışdı.

Vurğulanıb ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyır. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması isə insanlığa qarşı cinayətdir. Ermənistan beynəlxalq hüquqa məhəl qoymur, müharibə cinayətlərini davam etdirir, atəşkəs çağırışı edənlər, dünya dövlətləri isə bunu seyr etməklə kifayətlənir. Bu cinayətə laqeyd qalmaq onun iştirakçısına çevrilmək deməkdir. Təmas xəttindən uzaqda yerləşən Gəncə Ermənistan ərazisindən atəşə tutulub. Gəncə ilə yanaşı, Azərbaycanın sənaye şəhəri Mingəçevir şəhəri, o cümlədən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası, həmçinin "Mingəçevir" Su Elektrik Stansiyası da raket atəşinə məruz qalır.

Türkiyə nümayəndə heyəti erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış yaşayış binasının və evlərin ətrafına gül düzüb, qətlə yetirilənlərin ruhuna dualar oxuyublar.

# Milli Məclisdə Xocavəndin Vəng kəndinin Çinarlı adlandırılması haqqında qanun layihəsinə baxılıb

Oktyabrın 22-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib. İclası komitə sədri Siyavuş Novruzov açıb.

AZƏRTAC xəbər verir ki, komitə sədri rəşadətli Azərbaycan Ordusunun yüksək döyüş hazırlığından danışıb. Bildirilib ki, Azərbaycan əsgəri böyük şücaət nümayiş etdirərək Dağlıq Qarabağda hərbi baxımdan əhəmiyyətli yüksəklikləri ələ keçirib, Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin mərkəzlərini və bu rayonların bir sıra kəndlərini işğaldan azad edib.

Siyavuş Novruzov işğal altındakı torpaqlarımızın Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad ediləcəyinə əmin olduğunu vurğulayıb. Hər gün yeni-yeni torpaqlarımız işğaldan azad edilir, Azərbaycan əsgərinin cəbhədə tarix yazmasının şahidi oluruq. Bu, böyük qələbədir. Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizəsi haqlı mübarizədir.

Sonra Siyavuş Novruzov iclasın gündəliyi barədə məlumat verib. Qeyd olunub ki, gündəliyə Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan "Azərbaycan Respublikasının Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında qanun layihəsi" daxil edilib. Layihəyə əsasən, Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbəsi inzibati ərazi dairəsi tərkibindəki Vəng kəndi Çinarlı kəndi adlandırılır. Bildirilib ki, Ermənistan torpaqlarımızı işğal etməklə, xalqımıza qarşı soyqırımı törətməklə yanaşı, yerli toponimləri də dəyişdirərək cinayətə yol verib. Hazırda qüdrətli Azərbaycan dövləti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz ərazi bütövlüyünü bərpa edir, haqq-ədalət öz yerini tapır.

Azad edilmiş torpaqlarımızdakı yaşayış məntəqələrinin öz tarixi adlarının qaytarılması mühüm siyasi, hüquqi və mənəvi əhəmiyyət daşıyır. Yer adlarımıza qarşı törədilən erməni saxtakarlığı aradan qaldırılır. Coğrafi ərazi baxımından Qarabağda Çinar ağacları geniş yayılıb. Bu baxımdan Xocavənd rayonunun Vəng kəndinin adının Çinarlı adlandırılması məntiqlidir.

Sonra Milli Məclis yanında Toponimiya komissiyasının sədri İsa Həbibbəyli, Regional məsələlər komitəsinin sədr müavini Elşən Musayev, deputatlar Tahir Rzayev, Səttar Möhbalıyev, Nizami Cəfərov, Emin Hacıyev, Cavid Osmanov və Aqil Məmmədov çıxışlarında Dağlıq Qarabağda gedən hərbi əməliyyatlarla bağlı fikirlərini bölüşüblər. Deputatlar bu haqq işində şanlı Ordumuza uğurlar diləyib, müzakirə olunan məsələyə münasibət bildiriblər.

İclasın sonunda qanun layihəsi parlamentin plenar iclasına tövsiyə edilib.

# Dünyanın nüfuzlu elm adamları Ermənistanın müharibə cinayətlərinin dayandırılması üçün dünya liderlərinə çağırış edib

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Nizami Gəncəvinin şəhərini xilas edək" kampaniyasına dünyanın nüfuzlu elm adamları və ziyalıları da qoşulub

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) təşəbbüsü ilə dahi Azərbaycan şairinin Gəncə şəhərində yerləşən məqbərəsindən "Nizami Gəncəvinin şəhərini xilas edək" kampaniyasına start verilib.




Oktyabrın 15-dən başlanan kampaniya çərçivəsində #nizamigəncəvininşəhərinixilasedək (#savenizamiganjavicity) həştəqi ilə sosial şəbəkə platformaları vasitəsilə geniş təbliğat həyata keçirilir.

Beynəlxalq Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, bugünə kimi "Twitter" şəbəkəsi üzərindən 2000-dən çox, "Facebook" şəbəkəsi üzərindən isə 41000-dən çox istifadəçi Nizami Gəncəvinin şəhərinə edilən erməni terrorunu pisləyərək kampaniyaya dəstək olub.

Eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyanın müxtəlif ölkələrində yaşayan öz üzvləri və dostlarını da Ermənistanın Azərbaycana qarşı təcavüzü, o cümlədən Gəncə terror hadisələri haqqında daim məlumatlandırır.

Bunun nəticəsi olaraq, dünyanın 20 ölkəsindən 60-a yaxın nüfuzlu elm adamı və ziyalı da kampaniyaya dəstək verərək Nizami Gəncəvinin doğma yurdunun erməni təcavüzündən qorunması, Gəncə şəhərində yaşayan dinc əhaliyə qarşı törədilmiş müharibə cinayətlərinin dayandırılması məqsədilə dünya liderlərinə çağırış edilib.

Çağırışın mətnində Azərbaycan Respublikası hökumətinə, Azərbaycan xalqına ərazi bütövlüyünü bərpa etmək və bölgəyə sülh və sabitlik gətirmək üçün bu legitim mübarizəsində tam dəstək ifadə olunub.

Həmçinin yekdil olaraq bildirilib ki, beynəlxalq ictimaiyyət Ermənistan Respublikasını beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa, BMT Nizamnaməsinə, BMT Təhlükəsizlik Şurasının qərarlarına riayət etməyə məcbur etmək üçün bütün səylərini birləşdirməlidir.

Qeyd edək ki, sözügedən çağırış BMT-nin Baş katibinə, Avropa İttifaqına, UNESCO-nun Baş direktoruna, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, eləcə də "Böyük 20"yə üzv dövlətlərin prezident və baş nazirlərinə ünvanlanıb.

# Yeni Azərbaycan Partiyası Gəncədə 10 azyaşlı uşağı və daha 5 ailəni himayəyə götürüb

Yeni Azərbaycan Partiyası Vətən müharibəsinin davam etdiyi bu günlər ərzində döyüş bölgəsindən uzaqlarda yerləşən, lakin xain erməni hərbçilərinin bombardmanlarından zərər çəkmiş yaşayış məntəqələrimizdə evləri bu və ya digər dərəcədə dağılmış sakinlərə yardım məqsədilə geniş layihələr həyata keçirməkdədir.

AZƏRTAC xəbər verir ki, bu barədə YAP-ın Mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev ötən gün partiyanın nümayəndə heyətinin Gəncə şəhərinə səfəri zamanı səsləndirilmiş qərarı şərh edərkən bildirib.

H.Paşayev qeyd edib ki, Milli Ordumuzun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda həyata keçirdiyi əməliyyatlar Azərbaycanın haqq işidir. Azərbaycan əsgərinin bu müharibədə hədəfi nə yaşayış məskənləri, nə mülki obyektlər, nə də dinc sakinlərdir. Lakin vəhşi xislətli ermənilərin və onların işğalçı ordusunun yaşayış məntəqələrimizi hədəfə çevirməsi nəticəsində yüzlərlə dinc sakinimiz yaralanıb, onlarla uşaq, qadın və qoca həyatını itirib. Təəssüf ki, döyüş bölgəsindən çox-çox uzaqlarda yerləşən Gəncə şəhərində də daha irimiqyaslı dağıntıların şahidi olduq. Onlarla dinc sakin həyatını itirdi, yüzlərlə yaralımız var. Yeni Azərbaycan Partiyası erməni vəhşiliyinin qurbanı olmuş 8 ailədə valideynlərini itirmiş 10 azyaşlı uşağın himayəyə götürülməsi barədə qərar qəbul edib. Qəbul edilmiş qərara əsasən, 6 ailəni təmsil edən 6 azyaşlının hər birinə ayda 300 manat, hər ailədən 2 azyaşlı olmaqla daha 4 azyaşlıya isə yetkinlik yaşına çatana qədər ayda 500 manat təqaüd ödəniləcək. Partiya tərəfindən bank vasitəsilə ödəniləcək bu vəsaitlər uşaqların dövlət tərəfindən rəsmi surətdə tanınmış himayədarlarına çatdırılacaq.

Hüseyn Paşayevin sözlərinə görə, Yeni Azərbaycan Partiyası tərəfindən Gəncə şəhərində raket zərbələri nəticəsində evləri dağılmış daha 5 ailənin himayəyə götürülməsi ilə bağlı da müvafiq addımlar atılıb. Belə ki, qəbul edilmiş qərara əsasən, həmin 5 ailəyə onlar üçün yeni yaşayış evlərinin tikilib istifadəyə verilməsinə qədər yaşayacaqları mənzillərin kirayə haqqı, ayda 300 manat olmaqla, YAP tərəfindən ödəniləcək.

◆ Müəllifi İlham Əliyevdir





# Gəlsin zəfər xəbərin, Azərbaycan əsgəri!

## Atəş altında olsa da, terrora məruz qalsa da, Gəncədə İlham Əliyevin müzəffər ordusuna ASAN dəstək göstərilir

Əvvəli 1-ci səh.








Mərkəz bu çətin dönəmdə missiyasına sadiq qalaraq vətəndaşlara layiqli xidmət təqdim edir. Digər mərkəzlərdə olduğu kimi, burada da vətəndaşlara müxtəlif dövlət orqanları tərəfindən, ümumilikdə, 320-dən çox xidmət göstərilir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevlə mərkəzin fəaliyyəti ilə bağlı söhbətimizdən bəlli oldu ki, artıq 7 ildir mərkəz Gəncə şəhəri ilə yanaşı, Şəmkir, Goranboy, Göygöl, Gədəbəy, Kəlbəcər, Xocalı, Samux, Daşkəsən rayonlarının və Naftalan şəhərinin sakinlərinin də xidmətindədir. Eyni zamanda ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlar müraciət etməklə lazımi sənədləri operativ və şəffaf qaydada əldə edə bilirlər.

2013-cü il dekabrın 21-də açılışı olan mərkəz 24 dekabr tarixindən vətəndaşlara xidmət göstərməyə başlayıb. 2014-cü il yanvarın 21-də isə Prezident İlham Əliyev Gəncəyə səfəri çərçivəsində "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.

E.Niftəliyev dedi ki, fəaliyyətə başlayandan bu günə qədər mərkəz müraciət edən hər bir vətəndaşın probleminin həllində, məmnunluğunun təmin edilməsində nümunəvi xidmət ortaya qoyub. Gəncə "ASAN xidmət" mərkəzinə indiyədək 3 750 841, Səyyar xidmət avtobusuna isə 219 197 müraciət daxil olub.

### Karantin qaydalarına riayət, "Əsgərə məktub" layihəsi...

Mərkəzə daxil olarkən diqqətçəkən ilk məqam dezinfeksiya qaydalarına ciddi əməl edilməsi oldu. Əvvəlcə xüsusi aparatla hərarət yoxlanılır, sonra əllər spirtlənir. Məlumat mərkəzində əyləşən əməkdaşlar tibbi maskadan istifadə etməklə, ara məsafəsini qorumaqla vətəndaşlara operativ xidmət göstərirlər.

2019-cu ildən Məlumat mərkəzində çalışan Ramin Hacıyev deyir ki, mövcud durumla əlaqədar olaraq müraciətlərin sayı nisbətən azalıb. Ancaq hər zaman əməkdaşlar vətəndaşları gülərüzlə qarşılayır, təmkinlə dinləyir və müraciətlərinə baxılması üçün nəzakətlə istiqamət verirlər. Vətəndaşlarla ünsiyyətdə heç bir çətinlik də olmur: "Karantin rejiminin tələblərinə ciddi əməl etməklə fəaliyyətimizi davam etdiririk. Vətəndaşlar da başa düşürlər ki, məsafə saxlamaq mütləqdir. Burada hər kəs bir-birini anlayışla qarşılayır. Bu, əlbəttə ki, ilk növbədə, vətəndaşların sağlamlığının qorunmasına xidmət edir. Çalışırıq ki, bizə müraciət edənlər məmnun qalsınlar. Axı biz operativlik, şəffaflıq, nəzakətlilik prinsipləri əsasında fəaliyyət göstəririk".

Gəncə "ASAN xidmət" mərkəzində indiyədək 1922 nəfər könüllü fəaliyyət göstərib. Onlardan 35 nəfəri cari könüllülərdir. Bu dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, teatr tamaşaları, idman yarışları, intellektual oyunlar, xeyriyyə aksiyaları keçirilib, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub.

Elə mərkəzə gələn vətəndaşların çoxu da məhz könüllülərin "Əsgərə məktub" layihəsinə dəstək verirlər. Çünki bu gün xalqımız Qarabağda haqq savaşı aparan Azərbaycan Ordusuna, hər bir əsgərimizə mənəvi dəstək vermək üçün əlindən gələni əsirgəmir. Vətəndaşlar əsgərlərə məktub yazaraq onlara mənəvi dəstək verir, ruh yüksəkliyi yaradırlar.

Elnur Niftəliyevin sözlərinə görə, məhz "ASAN Könüllüləri" Təşkilatının "Əsgərə məktub" layihəsi çərçivəsində Qarabağda uğurlu əməliyyatların davam etdiyi hazırki vaxtda xalqımızın birliyini simvolizə edən bütün məktublar cəbhə bölgəsində döyüşən əsgərlərimizə çatdırılır. Layihə ilə bağlı "ASAN xidmət" mərkəzlərinin könüllüləri və xidmət üçün müraciət edən vətəndaşlarımız tərəfindən Vətənimizin keşiyində duran mərd əsgərlərimizə minlərlə məktub ünvanlanıb. Döyüşlərdə iştirak edən şəxsi heyətə ünvanlanan məktublar hərbi qulluqçularımızda xoş təəssürat yaradır və sevinclə qarşılanır. Hərbi qulluqçular da öz növbəsində xalq-ordu birliyinin təntənəsi olan ordumuza dəstək kampaniyasında iştirak edənlərə təşəkkürlərini çatdırırlar.

### Prezidentdən Kəlbəcərin işğaldan azad edildiyi xəbərini eşitsəm...

Demək olar ki, hər beş vətəndaşımızdan biri əsgərlərimizə məktub yazır. Goranboy rayonunda məskunlaşmış Kəlbəcər rayonundan olan məcburi köçkün Rizvan Abbasov məktubunu bitirib qutuya atdıqdan sonra həmsöhbət oluruq. Rizvan deyir ki, hazırda əmisi oğlu, yaxın qohumları Vətən müharibəsində savaşırlar. Hər gün cəbhədən gələn xoş xəbərlər onları çox qürurlandırır.

Ali Baş Komandan İlham Əliyevin işğal edilmiş şəhər və rayonlarımızın, kəndlərimizin düşmən tapdağından azad edilməsi ilə bağlı xalqa verdiyi müjdələr insanlara ayrı bir sevinc hissi yaşadır: "Əsgərlərimizə yazdım ki, biz hər zaman onların arxasındayıq. Xalqımız onlara güvənir və inanır. Möhkəm olsunlar, erməniləri torpaqlarımızdan tamam qovub çıxarsınlar.

Günlərdir Prezidentimiz xalqa müraciət edərək xoş xəbərlər verir. İnanın ki, səbirsizliklə Kəlbəcərin işğaldan azad edildiyi barədə xəbəri gözləyirik. Təsəvvür edə bilmirəm ki, Ali Baş Komandan bu xəbəri deyəndə necə sevinəcəm, yəqin ki, buna görə hönkür-hönkür ağlayacam..."

Fidan Həsənzadənin qardaşı Elariz savaşdadır. Artıq neçə gündür ki, Elariz müzəffər Azərbaycan Ordusunun Qarabağdakı uğurlu əməliyyatlarının iştirakçısıdır. Fidan deyir ki, bu gün haqq savaşında olan hər bir əsgər onun qardaşıdır: "Onlar bizim xoşbəxt gələcəyimiz üçün silaha sarılıblar. Hər gün xoş xəbərlər alırıq, qürurlanırıq, sevincimizin həddi-hüdudu olmur. Allah bütün əsgərlərimizi, zabitlərimizi qorusun, biz onlara dualar edirik, sağ-salamat evlərinə qayıtsınlar. Qoy ordumuz torpaqlarımızı işğaldan azad etsin, biz də gedib Qarabağımızı görək".

Bu layihə bölgəyə ezam olunmuş Türkiyə, Rusiya jurnalistlərinin də böyük marağına səbəb olub. Biz mərkəzdə olarkən Türkiyənin "CNN Türk" və "A Haber" telekanallarından olan həmkarlarımız da "Əsgərə məktub" layihəsi ilə bağlı çəkilişlər etdilər, vətəndaşlardan müsahibələr götürdülər.

### Əməkhaqqının 200 manatını əsgərə dəstək üçün göndərən müəllim

Həm bizim, həm də türkiyəli həmkarlarımızın diqqətini çəkən digər məqam isə vətəndaşların könüllü şəkildə Silahlı Qüvvələrə Yardım Fonduna ianələr etmələri oldu.

Elnur Niftəliyev qeyd etdi ki, artıq neçə vaxtdır Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən idarə edilən "ASAN ödəniş" sisteminə Silahlı Qüvvələrə Yardım Fondu üzrə ödənişlər olunur. Hər bir "ASAN xidmət" mərkəzində olduğu kimi, Gəncədəki mərkəzdə də quraşdırılan "ASAN ödəniş" terminalı vasitəsilə vətəndaşlar Silahlı Qüvvələrə Yardım Fondu üçün nağd ianələr edə bilirlər. Fonda ödəniş etmək istəyən şəxs terminaldakı sistemə daxil olaraq şəxsiyyət vəsiqəsinin "FİN" kodu və ya VÖEN üzrə axtarış edərək ödənişi həyata keçirir.

Onlardan biri ilə həmsöhbət olduq. Gəncədə yerləşən 98 saylı Kəlbəcər məktəbinin müəllimi Cəmşid Əlbəndov fonda 200 manat ianə edirdi: "Bu gün hər kəsin ürəyi ordumuzla döyünür. Böyükdən-kiçiyə hər kəs, qələbə sevincini yaşayır. Əsgərlərimiz bizə görə savaşdıqları üçün biz də burada onlara dəstək verməliyik. Düzdür, Azərbaycan Ordusunun maddi dəstəyə ehtiyacı yoxdur. Ancaq biz öz vətəndaşlıq borcumuzu yerinə yetirməliyik. Kimin imkanı nəyə çatır, o qədər də ianə edir. Bu məbləğin 50 manatını həyat yoldaşımın adından, 150 manatını isə öz adımdan göndərirəm. Tanrı Azərbaycan əsgərini qorusun! İnanırıq ki, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ordumuz haqq savaşında qalib gələcək və bizlər də öz doğma yurd-yuvamıza qayıdacağıq. Yenidən məktəblər tikib təhsil sistemimizi inkişaf etdirəcəyik. O gün uzaqda deyil. Biz Prezidentimizə, ordumuza güvənirik".

Vətəndaşların könüllü şəkildə dəstək fonduna ianələr etməsi həqiqətən də qürurvericidir. Onları heç kim buna məcbur etmir. Hər kəs öz xoşu ilə bu prosesdə iştirak edir. Bu, ordu-xalq birliyinin təcəssümüdür.

### Erməni terroru gəncəliləri qorxutmur

Bu xoş mənzərə əhvali-ruhiyyəmizi bir qədər də yüksəldir və elə bu pozitiv ruhda mərkəzdəki digər xidmətlərin fəaliyyəti ilə tanış oluruq. Ümumvətəndaş pasportunu dəyişən Sürayyə Seyidova, sürücülük vəsiqəsi alan Şahin Məmmədov, yeni biometrik şəxsiyyət vəsiqəsi alan Hikmət Həsənov da sevinc hisslərini bizimlə bölüşdülər.

Gəncə sakinləri deyirlər ki, şəhər erməni silahlı bölmələri tərəfindən raket atəşlərinə məruz qalsa da, heç kim qorxmur, çəkinmir. Bu terrorla Ermənistanın təxribatçı rəhbərliyi şəhər sakinlərini təlaşa salmaq, qorxu xofu yaratmaq istəsə də, "niyyətləri" öz başlarında çatlayır. Həm vətəndaşlar mətin dayanır, həm də Azərbaycan Ordusu döyüş meydanında düşmənə göz dağı verir. Xalq isə hər zamankı kimi, Ali Baş Komandana və müzəffər ordusuna güvənir.

Əminliklə deyə bilərik ki, düşmən nə qədər müharibə cinayəti törədir-törətsin, şəhər və rayonlarımızın əhalisi heç nədən çəkinmir. Əksinə, bu terror aktları vətəndaşları daha mütəşəkkilliyə sövq edir, xalq yumruq kimi öz Prezidenti ətrafında birləşir.

Gəncə "ASAN xidmət" mərkəzində şahidlik etdiyimiz mənzərəyə əsasən deyə bilərik ki, bu gün hər bir vətəndaşı düşündürən məsələ Azərbaycan Ordusunun Qarabağdakı zəfər yürüşü və qələbə xəbəridir. Hər kəs inanır ki, tezliklə Ali Baş Komandan xalqa bu müjdəni verəcəkdir.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Onların əfsanələri puç, bizim arzularımız çin olur

## "Könlüm Zəngilanı istər..."

Əvvəli 1-ci səh.



Bu reallığı ermənilərin çoxu - hətta qatı millətçilər, Dağlıq Qarabağın "müstəqilliyindən" başqa heç bir variantla razılaşmayanlar da dərk edirlər.

Təxminən 10 gün əvvəl erməniəsilli kinorejissor Karen Şahnəzərov "Rossiya 1" telekanalının aparıcısı, "erməni bülbülü" V.Solovyovun verilişində deyirdi ki, münaqişənin yeganə həll yolu Azərbaycanın Dağlıq Qarabağın müstəqilliyini tanımasından keçir. Həm də boynumuza böyük minnət qoyurdu ki, belə olarsa, Ermənistan tərəfi əvəzində işğal altında olan 5 (7 yox-R.K.) rayonu qaytara bilər. Onun sözündən belə çıxırdı ki, Laçın və Kəlbəcər "qalib tərəf" kimi Dağlıq Qarabağa peşkəş edilməlidir.

Amma ordumuzun işğalçılara vurduğu ağır zərbələr "isti baş"ları xeyli "soyudub". Artıq reallığı dərk və qəbul etməyə başlayıblar. Onlardan biri də elə həmin Karen Şahnəzərovdur. Erməni rejissoru indi bəyan edir: "Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi mümkün deyil. Qarabağın öz müqəddəratını təyin etməsi Azərbaycanın Dağlıq Qarabağın müstəqilliyini tanıdığı halda mümkün ola bilər. Bu isə yalnız Ermənistan ordusu Bakıya daxil olduğu halda baş verə bilər ki, o da heç vaxt olmayacaq. Ermənilərin buna nə gücləri, nə də imkanları var. Odur ki, İrəvan hər halda kompromisə getməlidir və həmin kompromis çox ciddi olmalıdır".

Türk qardaşlarımız demiş: "Vay, arkadaş". Bəs hanı "erməni xalqının iradəsi, qəti mövqeyi, Dağlıq Qarabağın müstəqilliyi üçün axıra qədər vuruşmağı?" Hanı "məğlubedilməz erməni ordusu"? Deyirdiniz ki, hər bir erməni kişisi anadangəlmə döyüşçüdür. Belədirsə, niyə arvad batalyonları yaradırsınız? Adamdan soruşarlar ki, bəs həmişə döyüşməyi bacarmayan, qorxaq kimi təqdim etdiyiniz Azərbaycan əsgərinin qarşısından niyə dovşan kimi qaçırsınız? Azərbaycan əsgərinin şapalağı üzünüzə dəyən kimi özünüz barədə uydurduğunuz bütün obrazların sadəcə əfsanə olduğunu gördük. Erməni tarixinin uydurulmuş rəvayət olduğunu dəfələrlə gördüyümüz kimi.

Azərbaycan Ordusu isə öz iradəsini döyüş meydanında ortaya qoyur. Prezident, Ali Baş Komandan İlham Əliyev oktyabrın 20-də xalqa etdiyi növbəti müraciətində Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının işğaldan azad olan kəndlərinin adlarını sıra ilə söyləyərək birdən xüsusi vurğu ilə dedi: "...Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ Azərbaycandır!"

Dövlət başçısının Zəngilanın azad edilməsi barədə müjdəsi bizə 15 il əvvəl şahidi olduğumuz bir hadisəni xatırlatdı. Zəngilandan olan ağsaqqal jurnalist, şəhid atası Əvəz müəllimin yubileyi keçirilirdi. Hamı yubilyarı təbrik edərək növbəti ad gününü Zəngilanda, doğma yurdunda qeyd etməsini arzulayırdı. Amma Əvəz müəllim torpaq itkisinə, şəhid övladının nisgilinə dözməyərək dünyasını dəyişdi. Təkcə Əvəz müəllimmi? Nə qədər zəngilanlı həyatdan yurd həsrəti ilə köçüb. İndi onların ruhu Zəngilan üzərində dolaşaraq dinclik tapır. Sağ qalan, illərlə yurd həsrəti çəkən zəngilanlılar isə doğma yerlərə qayıdacaq, qurub-yaradacaq, əvvəlki həyatlarını davam etdirəcəklər.

...Əvəz müəllimin yubiley gecəsində həsrətdən doğan bir musiqi tez-tez səslənirdi: "Könlüm Zəngilanı istər". İndi zəngilanlıların könlü də, gözü də, dimdik duran ayaqları da doğma yurdun üstündə olacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# *Zəngilan sakini:* "Ömrümün qalan hissəsini öz yurdumda yaşayacağıma görə hədsiz sevincliyəm"

Tanrıya şükürlər olsun ki, bizə bu günləri nəsib etdi. Zəngilana qayıdacağımız günü səbirsizliklə gözləyirdim. Allah-Təala dualarımızı eşitdi və haqqın, ədalətin bizim tərəfimizdə olduğunu göstərdi.



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və onun rəhbərliyi ilə döyüşən igid əsgərlərimizə sonsuz təşəkkürümü bildirirəm. Vətənindən, el-obasından didərgin düşən insanların adından "Çox sağ olun!" deyirəm. Ömrümün qalan hissəsini öz yurdumda yaşayacağıma görə hədsiz sevincliyəm. Tanrı Prezidentimizi və Ordumuzu qorusun.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Zəngilan rayonunun 70 yaşlı sakini Tutu Heydərova deyib.

Digər ərazilərimiz, rayonlarımız kimi, Zəngilanın da işğaldan azad edilməsi xəbərini böyük sevinclə qarşıladığını deyən T.Heydərova bildirib: "Elə bilirəm ki, dünyaya yenidən gəlmişəm. Azərbaycanın hər bir guşəsi bizim üçün Vətəndir, amma doğma yurd başqadır. Daha ölsəm də, qəm yemərəm. Çünki doğma yurdum Azərbaycanın qüdrətli rəhbəri və Ordusu tərəfindən ermənilərdən təmizlənib. Mənim 6 qızım, 1 oğlum var. Məcburi köçkün düşənə qədər Zəngilanda təsərrüfatla məşğul olmuşuq. Hazırda burada da yaşayışımız yaxşıdır, amma doğma el-obanın dadı başqadır".

Zəngilan sakini azğın və qəddar ermənilər tərəfindən didərgin salındıqları illəri də xatırlayarkən kövrəlib. O deyib: "İllər keçsə də, onların bizim başımıza gətirdiklərini yaddan çıxara bilmərik və çıxarmamalıyıq. Hadisələr başlayandan sonra günümüz-güzəranımız olmadı, hər dəqiqə səksəkə içərisində idik. Atılan qradların nəticəsində evlər gözümüzün qabağında od tutub yanırdı. Amma zəngilanlılar son nəfəslərinə qədər döyüşdülər".

Tutu Heydərova tezliklə bütün torpaqlarımızın düşmən işğalından azad olunacağına əminliyini ifadə edib. Bildirib ki, hər gün namaz qılarkən bütün əsgərlərimiz üçün dua edir.






◆ Əsgərə məktub

## Əziz şagirdim, sən bizə dərs verdin!

Salam, Əsgər!

Mənəm, sənin müəllimin!

O gün sosial şəbəkələrdə rəsmini gördüm, torpaqlarımızın azad olunmasında aslan kimi döyüşürsən, komandirin də məktəbimizə sənin cəsarətli və qorxmazlığın haqqında təşəkkür göndərmişdi. Bütün müəllimlərin o ildırım kimi parlayan gözlərin olan şəklinin altında yazmışdı ki, mənim şagirdim olub, fəxr edirəm! Mən də yazdım, amma utana-utana.

Çünki yadıma gəlir ki, sən dərslərini yaxşı oxumurdun. Mən və digər müəllimlərin səni danlayırdıq. Amma tarix müəllimin isə həmişə səni tərifləyirdi ki, o uşağı niyə gözümçıxdıya salmısınız?! Axı o, çox vətənpərvər oğlandır, cəsarətlidir, mərddir, öz amalı var, idmançı olacağını deyir, niyə bu qədər üstünə gedirsiniz? Bizsə buna məhəl qoymadıq, sənə həmişə 2-3 yazıb arxada otuzdurduq.

İndi isə görürəm ki, sən vətəndaşlıq dərsini yaxşı oxumuş, imtahanını da əla verirsən. Bizsə səni vaxtilə incitməyimizə baxmayaraq, indi xorla "mənim şagirdimdir" deyib, şəklini paylaşır, səninlə fəxr etdiyimizi deyirik. Düzdür, biz də sənin yaxşılığını istədiyimizdən elə edirdik, amma demək ki, bunu da düz etməmişik. Sən bizə dərs verdin! Öz əməlimdən utansam da, səninlə fəxr edirəm, oğul! Fəxr edirəm.

Sən ən böyük, ən yaxşı adamsan indi!

***Şəmil SADİQ***

## Zəfərin mübarək!

Salam, Əsgər!

Sənə əziz balam deyə bilərəmmi?! Bilirsənmi niyə soruşuram? Mən həyatda ana ola bilmədim, amma ürəyimdən Sənə əziz balam demək keçir. Sənə görə bir ana kimi narahatlıq hissi duyuram, salamatlığın üçün gecə-gündüz Yaradanımıza əl açıb yalvarıram. Sənə görə bir ana kimi qürur hissi keçirirəm, əsgər balam!

Mənim kimi minlərlə azərbaycanlı qadınlarını düşməndən qoruyan, təəssübümüzü, qeyrətimizi çəkənə namuslu övlad deyilməzmi? İndi Azərbaycan əsgəri deyəndə köksüm iftixar hissi ilə dolur. Hərəniz bir igid, bir qəhrəmansınız. Neçə gündür davam edən Vətən müharibəsində düşmənə qan uddurmağınız illərdir ki bu qəddarların, vandalların bizə çəkdirdiyi zülmlərin acısına dərmandır.

Əziz Əsgər, birinci Qarabağ savaşında sənin atan, baban da müharibə başlanan gündən düşmənə qarşı döyüşə atıldı. O qədər cəsarətli idilər ki, bəzən avtomat silahla düşmən tanklarının qarşısına çıxırdılar. Ailəmizdən də ana Vətəni canı-qanı ilə qoruyan üç əsgər qardaşım olub. Üçü də Qarabağ əlilidir. Amma çox heyif ki, o zaman ordumuz hələ təcrübəsiz, nizamsız, silah-sursatsız idi. Düşmənimiz isə ağalarının, himayədarlarının həm silahlarından, həm də peşəkar hərbçilərindən istifadə edirdi.

Bu gün qisas, intiqam günüdür! İllərdir gözlədiyimiz günün gəlib çatdığı məqamdır, Əsgər! İndi hər biriniz bir Mübarizsiniz! Bu, ən gözəl örnəkdi! Öldürün düşməni, azad edin illərdir fəryad çəkən iniltili torpaqlarımızı... Sağ-salamat geri dönün, axı siz bizim sabahımıza da lazımsınız! Analar oğul toyu görmək, övladlar ata nəvazişi ilə böyümək, gəlinlər də xoşbəxt olmaq istəyirlər.

Allaha əmanət ol, Əsgər balam!

***Zəkurə QULİYEVA***

*Vladimir PUTİN:*

## “Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz”

Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin “Valday” klubunun iclasında bildirib.

“Biz bir çox illər ərzində vəziyyəti uzun tarixi perspektiv üçün sabitləşdirmək məqsədilə bu böhranın həlli üçün müxtəlif variantlar təklif etmişik. İnanın, bu, gərgin iş idi. Hansısa məqamlarda elə gəlirdi ki, daha bir az, daha bir addım və biz həll yolunu tapacağıq. Təəssüf ki, bu, baş vermədi və bu gün biz ən pis formada olan bir qarşıdurma ilə üz-üzəyik. Faciə də ondan ibarətdir ki, insanlar həlak olur”, - deyə Prezident qeyd edib.

Putin bildirib ki, hər iki ölkənin xarici işlər nazirləri növbəti dəfə Moskvaya gəlmişdilər. Ayın 23-də onlar Vaşinqtonda görüşürlər. “Mən çox ümid edirəm ki, amerikalı tərəfdaşlarımız bizimlə birgə fəaliyyət göstərəcək, nizamlanmaya kömək edəcəklər. Ən yaxşısına ümid edək”, - deyə o əlavə edib.

Dövlət başçısının sözlərinə görə, Rusiya Qarabağdakı vəziyyət üçün xüsusi məsuliyyət hiss edir, münaqişənin hər iki tərəfi üçün məqbul kompromislər tapmaq lazımdır.

## Müharibə cinayətlərinə görə bütün məsuliyyəti daşıyan Ermənistanın XİN-inin bəyanatında beynəlxalq humanitar hüquqa istinad edilməsi riyakarlıqdan başqa bir şey deyil

Ermənistanın Xarici İşlər Nazirliyinin bu ölkənin baş nazirinin “münaqişənin diplomatik həlli olmadığını” vurğulayan son açıqlamasına münasibətdə Ermənistanın mövqeyini “sülhsevər” kimi qələmə verməyə çalışan bəyanatı tamamilə cəfəngiyyatdır.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məhz Ermənistanın Azərbaycana qarşı müharibə başlatdığını, Dağlıq Qarabağ və ətraf yeddi rayonu əhatə edən Azərbaycan ərazilərini təxminən 30 ildir işğal altında saxladığını, öz doğma yurdlarından zorla qovulmuş bir milyonadək məcburi köçkünün əsas insan hüquqlarını kobud şəkildə pozduğunu xatırlatmaq istərdik. Ermənistanın sentyabrın 27-dən bəri Azərbaycana qarşı əl atdığı yeni təcavüzü beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyaları da daxil olmaqla, beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulması ilə müşayiət olunur.

Müharibə zamanı törətdiyi dəhşətli cinayətlərə, o cümlədən humanitar atəşkəsi kobud şəkildə pozaraq yalnız cəbhə bölgəsində deyil, həm də münaqişə bölgəsindən çox uzaqda olan dinc əhalini və mülki infrastrukturlarını qəsdən atəşə tutmaqla törətdiyi son müharibə cinayətlərinə və insanlığa qarşı cinayətlərə görə bütün məsuliyyəti daşıyan Ermənistanın Xarici İşlər Nazirliyinin bəyanatında beynəlxalq humanitar hüquqa istinad edilməsi riyakarlıqdan başqa bir şey deyil.

Ermənistan yanlış bəyanatlar verməklə beynəlxalq ictimaiyyəti aldatmaq cəhdindən əl çəkməlidir. Mövcud reallıq açıq-aydındır - Ermənistan işğalçılıq siyasətindən əl çəkməli, qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalı və münaqişənin danışıqlar yolu ilə həllinə başlamalıdır. Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə, bu ölkənin gərginliyin artması və qan tökülməsinin qarşısını almaq şansı bir o qədər çox olar.

## Siyəzən, Kürdəmir və Qəbələ rayonlarına raket hücumları Ermənistanın münaqişə zonasının coğrafiyasını genişləndirmək cəhdlərindən xəbər verir

Xarici İşlər Nazirliyi (XİN) Ermənistan tərəfindən Azərbaycanın münaqişə zonasından çox uzaqda yerləşən yaşayış məntəqələrinə hücumların davam etməsinə dair açıqlama yayıb.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın silahlı qüvvələri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa dair öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycanın əhalinin sıx yaşadığı yaşayış məntəqələrini qəsdən atəşə tutmağa davam edir.

Oktyabrın 22-də səhər saatlarında Azərbaycan ərazisi Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən atılan ballistik raketlərin atəşinə məruz qalıb. Ermənistan silahlı qüvvələri münaqişə zonasından yüzlərlə kilometr məsafədə yerləşən Siyəzən rayonu istiqamətində 3, Qəbələ rayonu istiqamətində 2 və Kürdəmir rayonu istiqamətində 1 raket atıb. Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

Gəncə və Mingəçevir şəhərlərindən sonra Azərbaycanın işğal olunmuş ərazilərindən xeyli kənarda yerləşən Siyəzən, Kürdəmir və Qəbələ rayonları istiqamətində raketlərin atılması Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı yeni dəhşətli cinayətlər törətmək üçün növbəti cəhdidir.

Bu hücumlar bir daha Ermənistanın münaqişə zonasının coğrafiyasını genişləndirmək cəhdlərindən xəbər verir və onun vəziyyəti daha da gərginləşdirməyə xidmət etdiyini göstərir.

Ermənistanın bu təcavüz aktlarını qətiyyətlə pisləyir, beynəlxalq ictimaiyyəti Ermənistanı beynəlxalq hüquqa və öhdəliklərinə riayət etməyə məcbur etmək üçün lazımi addımlar atmağa çağırırıq.

Münaqişənin diplomatik həlli yolunun olmadığını bildirən, Azərbaycanın mülki əhalisini və yaşayış məntəqələrini atəşə tutmaq əmrini verən Ermənistan rəhbərliyi bölgədə gərginliyin artmasına, habelə Ermənistanın Azərbaycana qarşı yeni təcavüzü zamanı törədilən müharibə cinayətlərinə görə tam məsuliyyət daşıyır.

## Düşmənin Siyəzənə atdığı ballistik raket dənizə düşüb

Oktyabrın 22-də səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulub. Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ermənistan silahlı birləşmələri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə edib və cəbhə zonasından xeyli aralıda yerləşən Siyəzən rayonuna da “Skad” ballistik taktiki raket atıb. Raket Xəzər dənizinə düşüb.

Böyük dağıdıcı gücə malik olan bu raketin yaşayış məntəqəsinə hədəflənməsi düşmənin əsl niyyətini göstərir.

# Müdafiə Nazirliyi xəbər verir

## *Anar EYVAZOV:* “Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir”














Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonundakı və digər ərazilərdəki müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan, toplardan və reaktiv artilleriya sistemlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 22-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmən dinc əhalini və mülki infrastrukturu hədəfə alaraq Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən Siyəzən, Qəbələ və Kürdəmir rayonları istiqamətində 6 ədəd ballistik raket atıb. Nəticədə bir mülki şəxs yaralanıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusu tərəfindən cəbhənin Qubadlı, Xocavənd və Ağdərə istiqamətində keçirilən əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri şəxsi heyət və döyüş texnikası baxımından ağır itkilər verərək mühüm yüksəkliklərdən və bir sıra mövqelərdən geriyə çəkilməyə məcbur edilib. 155-ci artilleriya alayına, 5-ci dağatıcı alaya və 543-cü alaya vurulan artilleriya zərbələrimiz nəticəsində komandir heyəti daxil olmaqla, çoxlu sayda canlı qüvvə məhv edilib, yaralanıb və itkin düşüb. Düşmənin yeraltı sığınacaqları dağıdılıb. Yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb, döyüşə girməkdən imtina edib. Əlavə yolların bağlı olması və nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən düşmən yaralıların təxliyəsində ciddi çətinliklərlə üzləşib.

Qeyd edilib ki, cəbhəni genişləndirmək istəyən düşmənin Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

Diqqətə çatdırılıb ki, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev özünün rəsmi “Twitter” hesabında Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayılın Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin işğaldan azad edildiyini bildirib. Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olunub.

“Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz qələbə əzmi ilə zəfər yolunda irəliləyir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

* * *

Oktyabrın 22-də səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, saat 07:00 radələrində düşmən tərəfindən Siyəzən rayonu istiqamətində 3, saat 09:00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılıb.

Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

Düşmənin raket hücumu nəticəsində tələfat yoxdur.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmən ordusunun ələ keçirilən növbəti hərbi texnikalarının videogörüntüsünü paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

* * *

Döyüşlərdə iştirak edən hərbi qulluqçuların qələbə əzmini yüksəltmək məqsədilə Müdafiə Nazirliyinin Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən təbliğat və təşviqat tədbirləri davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəz tərəfindən yaradılan təbliğat-təşviqat qruplarının şəxsi heyət qarşısında çıxışları təşkil olunur və konsert proqramları təqdim edilir.

Bundan əlavə, Ümummilli Lider Heydər Əliyevin və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ordumuz haqqında çıxışları, hərbi vətənpərvərlik mahnıları, eləcə də döyüşlər barədə operativ məlumatlar səsgücləndirici maşınlar vasitəsilə cəbhəboyu zonadakı yaşayış məntəqələrində səsləndirilir, vətənpərvərlik mövzusunda bədii və sənədli filmlər nümayiş olunur.

Bu tədbirlər döyüşən əsgər və zabitlərin mənəvi-psixoloji durumuna müsbət təsir göstərir, qələbə əzmini, döyüş ruhunu daha da artırır, mülki əhali tərəfindən ruh yüksəkliyi və rəğbətlə qarşılanır.

* * *

Oktyabrın 22-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov tərəfindən ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq təşkil olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, brifinqdə Ermənistan Respublikasının münaqişədə birbaşa iştirakı, Ermənistan ərazilərindən döyüş əməliyyatları zonasından aralıda yerləşən Qəbələ, Kürdəmir və Siyəzən rayonlarında yaşayan dinc əhalinin və mülki infrastrukturun raket zərbələrinə məruz qalması, eləcə də humanitar atəşkəs razılığına əməl etməyərək açıq şəkildə onu pozması haqqında ətraflı məlumat verilib.

Əlavə olaraq, işğaldan azad edilən Cəbrayıl, Füzuli və Zəngilan rayonlarının ərazilərində inzibati yaşayış mərkəzlərinin, tarixi-memarlıq və dini abidələrinin dağıdılması və talan edilməsi, eləcə də döyüş texnikasının tibbi təyinatlı texnika adı altında döyüşlərdə istifadə edilməsi barədə də məlumat diqqətə çatdırılıb.

## *Baş Prokurorluq:* “Ermənistan ordusu Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atıb”







Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə elan olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri raket və ağır artilleriya zərbələrinə məruz qoymaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 22-də səhər saatlarından başlayaraq Ermənistan silahlı birləşmələri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə edərək cəbhə zonasından 150 kilometrdən artıq uzaqlıqda yerləşən Azərbaycan Respublikasının Qəbələ, Kürdəmir və Siyəzən rayonlarına “Skad” ballistik taktiki raketlər atıb.

Raket zərbələri nəticəsində Qəbələ rayon sakini 2003-cü il təvəllüdlü Əmirbəyov Murad Ceyhun oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb, kənd ərazisində 5 evə ciddi ziyan dəyib.

Həmçinin düşmən silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkəmiz üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atıb. Lakin raketin Azərbaycan Ordusunun Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən zərərsizləşdirilməsi nəticəsində onun hissələri su kəmərinin yaxınlığına düşüb.

Bununla bağlı prokurorluq əməkdaşları tərəfindən hadisə yerlərində zəruri istintaq tədbirləri və prosessual hərəkətlər həyata keçirilir.

## Türkiyə parlamentində Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) dəvəti əsasında Ankara şəhərinə səfəri başa çatıb.

AZƏRTAC xəbər verir iki, Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü, partiyanın Türkiyə və AKP üzrə əlaqələndirici koordinatoru Ramil Həsənin rəhbərlik etdiyi heyətə, Azərbaycan parlamentinin digər deputatı, YAP Siyasi Şurasının üzvü Ramin Məmmədov daxil olub.

Səfərin sonuncu günü Türkiyə Böyük Millət Məclisində (TBMM) Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

AKP-nin Türkiyə parlamentindəki millət vəkilləri qrupunun başqan vəkili Cahid Özkan azərbaycanlı heyəti səmimiyyətlə salamlayaraq Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin tarixi köklərindən bəhs edib və hazırkı inkişaf dinamikasını yüksək dəyərləndirib. Hakim partiya deputat heyətinin rəhbəri deyib ki, Azərbaycanın adı və özü Türkiyədə hər bir vətəndaş üçün əzizdir. Azərbaycanın hər bir uğuru, xüsusilə də Milli Ordusunun rəşadətli xəbərləri ölkə ictimaiyyəti tərəfindən böyük sevgi ilə qarşılanır.

Səmimi qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən YAP deputat nümayəndə heyətinin rəhbəri Ramil Həsənin Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin sarsılmaz olmasının səbəbləri barədə fikir və düşüncələrini bölüşüb. Silahlı Qüvvələrimizin ərazi bütövlüyümüzün bərpası ilə bağlı həyata keçirdiyi rəşadətli addımları xalqlarımızın və ölkələrimizin gələcək ortaq təhlükəsizliyi üçün tarixi zəfər adlandırıb.

Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət!” müdrik kəlamını dəfələrlə xatırladan tərəflər diqqətə çatdırıblar ki, iki qardaş ölkənin münasibətləri bu prinsiplər üzrə günbəgün möhkəmlənərək dinamik inkişafla yüksəlir. Bu qardaşlıq münasibəti təkcə iki ölkə üçün deyil, böyük bir coğrafiyada xalqların sülh şəraitində yüksək rifahla yaşamasına fayda gətirməkdədir.

Tərəflər qeyd ediblər ki, Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev və Türkiyə Prezidenti, AKP Sədri Rəcəb Tayyib Ərdoğan arasındakı səmimi dostluq və qardaşlıq münasibətləri dövlətlərimizin bərabər inkişafına və regionda sağlam yeni bir güc mərkəzinin formalaşmasına böyük töhfə verməkdədir. Bütün sahələri əhatə edən əlaqələr parlametlərarası müstəvidə çoxistiqamətli məcradadır. Bu sahədə münasibətlərdəki dinamikanın qorunmasında hakim Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının səmərəli əməkdaşlığı böyük gücə malikdir.

*İsrail səfiri:*

## “Mülki vətəndaşlara hücumlar qəbuledilməzdir”

Milliyyətindən, etnik mənsubiyyətindən və dini inancından asılı olmayaraq mülki vətəndaşlara edilən hücumlar qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik oktyabrın 22-də Gəncədə erməni terrorunun acı nəticələrinə şahidlik edərkən bildirib.

İsrailli diplomat Gəncəyə səfərinin əsas məqsədinin erməni terroru zamanı həlak olan dinc sakinlərin yaxınları və Gəncə sakinləri ilə görüşmək, bu dəhşətli raket hücumlarının səbəb olduğu dağıntıları öz gözləri ilə görmək olduğunu deyib. “Buraya Azərbaycan xalqına və Gəncə şəhərinin sakinlərinə, həlak olanların ailələrinə başsağlığı vermək və bu hücum nəticəsində yaralananların tezliklə şəfa tapmasını diləmək üçün gəlmişəm,” - deyə səfir qeyd edib.

Corc Dik deyib: “Biz İsrail dövləti olaraq müharibə və hücumların, xüsusən də günahsız mülki şəxslərə qarşı həyata keçirilən bu cür hücumların səbəb olduğu dəhşətli hadisələrin nə olduğunu çox yaxşı bilirik. Milliyyətindən, etnik mənsubiyyətindən və dini inancından asılı olmayaraq, mülki vətəndaşlara qarşı həyata keçirilən hücumlar qəbuledilməzdir. Heç bir insanın həyatına laqeyd yanaşmaq olmaz. Heç kim bu cür şəraitdə yaşamamalı və gecələr rahat yatarkən heç kim öz yaxınlarını, əzizlərini və ya qonşusunu itirməməlidir”.

Azərbaycan-İsrail münasibətlərinə toxunan israilli diplomat iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin dərin tarixi köklərə malik olduğunu vurğulayıb. “Bu dostluq heç kimə qarşı yönəlməyib. Azərbaycanla dostluğumuza dəyər veririk və Gəncədə yaşanan dəhşətli hücumun qurbanlarını bu çətin anlarda dəstək olaraq bir sıra humanitar yardımla təmin edirik”, - deyə diplomat bildirib.

Sonda səfir Corc Dik faciə qurbanlarının ailələrinə, eləcə də Gəncə sakinlərinə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, yaralananların tezliklə şəfa tapmasını diləyib.

* * *

Oktyabrın 22-də İsrailin ölkəmizdəki səfiri Corc Dik Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsini ballistik raketlərdən atəşə tutması nəticəsində dağılan evlərə və mülki obyektlərə baxıb, erməni terrorunun acı nəticələrinə şahidlik edib.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, səfirə məlumat verilərkən sentyabrın 27-də mülki əhaliyə qarşı hərbi təxribata əl atan Ermənistan silahlı qüvvələrinin Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, infrastrukturu, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən intensiv atəşə tutaraq mülki obyektlərə ciddi ziyan vurduğu bildirilib.

Qeyd edilib ki, oktyabrın 11-də düşmənin məqsədli şəkildə şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını ağır artilleriyadan - “Skad” raketlərindən atəşə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 40-dək insan yaralanıb. Ondan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Oktyabrın 17-də isə gecə saat 1 radələrində Gəncənin mərkəzi hissəsi yenidən ballistik raket atəşinə tutulub. Nəticədə 14 nəfər həlak olub, 50-dən artıq şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

İsrailli diplomat erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış yaşayış binalarının ətrafına gül düzüb.

Corc Dik sonra ermənilərin dinc sakinlərin yaşadığı məntəqələrə atdığı raket zərbələri nəticəsində evləri dağılmış və müvəqqəti olaraq yataqxanada məskunlaşmış sakinlərlə görüşüb.

Səfir erməni terrorundan zərərçəkən sakinlərlə söhbət edib, yaşayış şəraitləri ilə tanış olub.



**Arxa cəbhə**



# İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpasına start verildi

## Prezident İlham Əliyev: “Tezliklə o yerlərə qayıdacağıq, bütün kəndləri yenidən quracağıq”

Müzəffər Azərbaycan Ordusu şərəfli missiyanın öhdəsindən layiqincə gələrək işğal altında olan şəhərlərimizi və kəndlərimizi bir-birinin ardınca yağı tapdağından azad edir. İndi bu yerlərdə erməni faşizminin təzahürləri əyani görünür.



Erməni vandalları yaşayış məntəqələrimizdəki binaları uçurmuş, mədəni və tarixi abidələrimizi, məscidlərimizi, əcdadlarımızın, əzizlərimizin qəbirlərini dağıtmışlar. Təbii resurslarımızı daşıyıb aparmış, oğurluq, talançılıq etmişlər. Laçının, Kəlbəcərin, Cəbrayılın və digər rayonların bir sıra kəndlərində tikdiyimiz evlərə soxulub yaşamış, çox böyük səhv edərək düşünmüşlər ki, buralarda həmişəlik məskunlaşıblar.

Artıq bütün dünya görür ki, Azərbaycan xalqı necə mənfur bir düşmənlə qonşudur, öz yurdunu, ata-baba torpaqlarını necə acgöz bir yırtıcıdan azad edir. Burada hər daş, hər ağac sanki dil açıb işğalçının faşist xislətindən danışır. Odur ki, dağıdılmış yaşayış məntəqələrinin tək birinin vəziyyətinə baxmaq kifayətdir. Məsələn, Füzuli şəhərinin.

“Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir”. Prezident, Ali Baş Komandan İlham Əliyev ordumuzun işğaldan azad etdiyi Füzuli şəhərinin bugünkü görkəmi barədə xalqa məlumat verərkən belə demişdir.

Lakin istər Füzuli, istərsə də işğaldan azad olmuş digər yaşayış məntəqələrimiz bu görkəmdə qalmayacaq. Dövlət başçısının dediyi kimi, biz tezliklə o yerlərə qayıdacağıq. Bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Vaxtilə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Füzulinin 22 kəndi sırasında işğaldan azad etdiyi Horadiz qəsəbəsi kimi. İndi Horadiz abad, müasir şəhərə çevrilib.

30 illik uzunmüddətli ayrılıq Qarabağ camaatının yurd həsrətini ovuda bilməyib. Odur ki, hər kəs dərin sevgi və böyük coşqu ilə öz el-obasına qovuşacaq. Məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar - onlar üçün rahat mənzil-məişət şəraiti yaradılmasına baxmayaraq, öz doğulduqları, məskən saldıqları, ev-eşik qurduqları doğma yerlərə qayıtmaq arzusu ilə.

Prezidentimizin dediyi kimi: “Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük. İşğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıbdır. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar”.

Azərbaycan dövləti Cocuq Mərcanlı kəndi kimi, işğaldan azad etdiyi digər yaşayış məntəqələrini də cənnətməkana çevirməyə qadirdir. Fərəhli haldır ki, artıq infrastrukturun bərpasına başlanmışdır. Prezident İlham Əliyevin tapşırığına əsasən, Tərtər rayonunun düşmən tapdağından azad edilmiş Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolları bərpa edilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin verdiyi məlumata görə, ümumi uzunluğu 29 kilometr olan avtomobil yollarının bərpası üçün hazırlıq işlərinə start verilmişdir.

“Azərenerji” ASC isə işğaldan azad edilmis və ediləcək rayonlarımızda yeni 110 kilovoltluq sistem əhəmiyyətli yarımstansiyaların tikilməsi və quraşdırılması, ikidövrəli yüksək gərginlikli 110 kilovoltluq elektrik xətlərinin çəkilməsi ilə bağlı layihələndirmə işini tamamlamaqdadır. ASC-dən bildirilib ki, ilkin olaraq Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının hər birində 110 kilovoltluq sistem əhəmiyyətli 4 yarımstansiyanın tikilməsi və onların arasında 110 kilovoltluq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulub.

Paralel olaraq “Azərişıq” ASC də 35 kilovoltluq yarımstansiyaların tikilməsi ilə bağlı əlaqəli layihələndirmə işləri aparır. Tikiləcək yarımstansiya və xətlər üçün avadanlıqlarla təchizat və başqa sahələr üzrə işlər görülür. Yarımstansiyalarda, o cümlədən yüksək gərginlikli xətlərdə işlərin ilkin olaraq sürətlə görülməsi və bundan sonra şəhərsalma işləri aparılan zaman paylayıcı elektrik şəbəkəsinin yaradılması planlaşdırılır. Ümumilikdə sözügedən 4 rayondan başqa, işğaldan azad ediləcək bütün ərazilərimizdəki bölgələrin elektrik enerji təchizatının qurulması və mövcudların yenilənməsi üçün layihələndirilmə işləri sürətli şəkildə aparılır.

Beləliklə, işğaldan azad edilən rayonlarımızda tezliklə öz işığımız yanacaq. Hazırda “Azərenerji” və “Azərişıq” bütün personalı ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin “işə başlayın” əmrini gözləyirlər.

“Bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaq”, - deyir dövlət başçısı.

O gün uzaqda deyil. Çox keçməyəcək ki, uzun illərdir sakinlərinin yolunu gözləyən yurd yerlərimizidə evlər tikiləcək, toylar çalınacaq, körpələr dünyaya gələcək. Məscidlərdən azan səsi gələcək. İnsanlar ulularının qəbirlərini ziyarət edib qəlb rahatlığı tapacaq. Dövlətin dəstəyi və qayğısı ilə ellərimiz-obalarımız torpağı əkib-becərəcək, gülüstana çevirəcək, hər yanda qurub-yaradacaq.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Əsas kapitala yönəldilmiş ümumi vəsaitin 53 faizdən çoxu sənaye sektoruna sərf olunub

Cari ilin yanvar-sentyabr aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 53,2 faizi sənaye, 20,2 faizi isə tikinti sahələrinə sərf olunub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, həmin dövrdə sözügedən vəsaitin 12,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,3 faizi peşə, elmi və texniki fəaliyyət, 2,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 1,4 faizi təhsil, 1,2 faizi informasiya və rabitə, 1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, hər birində 0,6 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, hər birində 0,4 faiz olmaqla inzibati və yardımçı xidmətlərin göstərilməsi, maliyyə və sığorta fəaliyyəti, 0,3 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət və 0,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrinə sərf edilib.

## Sabirabadda gün ərzində sahələrdən 755-760 ton pambıq yığılır

Sabirabadda pambıq yığımı sürətlə davam edir. Məhsul toplanışına mütəşəkkil başlayan torpaq mülkiyyətçiləri hər gün sahələrdən 755-760 ton məhsul toplayaraq qəbul məntəqələrinə göndərirlər. Yığım başlayandan bu günə kimi plantasiyalardan 20 min 93 ton “ağ qızıl” toplanılıb. Tədarük olunan məhsulun 16 min 580 tonu pambıqyığan kombaynların köməyi ilə yığılıb.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinə istinadən AZƏRTAC bildirir ki, ötən il 8 min 360 hektar pambıq sahəsindən 25 min 210 tondan çox məhsul istehsal edən torpaq mülkiyyətçiləri bu il də sahələrdə bol məhsul yetişdiriblər. Dövlətin aqrar sahənin, xüsusilə pambıqçılığın inkişafına göstərdiyi dəstək sahibkarların bu ənənəvi və əməktutumlu sahəyə marağını daha da artırıb. İndi rayonda yüzlərlə fermer pambıq əkini ilə məşğul olur və istehsal etdiyi məhsulun satışından yaxşı qazanc götürür.

Uzun illər pambıq əkini ilə məşğul olan Güdəcühür kənd sakini Feyzi Babayev ötən il 45 hektar sahədə pambıq becərib və hər hektardan 28 sentner məhsul götürüb. Pambıqçı bu il 40 hektar sahədə pambıq əkib. Bu il də sahəsində məhsul çoxdur. O, yetişdirdiyi məhsulun son qozasına qədər toplamaq bütün qüvvəsini səfərbər edib.

“Bu mövsüm 40 hektar sahədə pambıq becərmişəm. Sahəyə nümunəvi qulluq etdiyimdən məhsul ötən ildəkindən də çoxdur. Yığım apardığım sahənin hər hektarından 25 sentnerdən çox məhsul götürmüşəm. Hələ sahəmdə pambıq çoxdur. Əminəm ki, mövsümün sonunadək hər hektarın məhsuldarlığı 35 sentnerə çatacaq”, - deyə fermer bildirib.

## Yardımlıda mal-qaranın baş sayı artıb

Oktyabrın 1-nə Yardımlı rayonunda 28837 baş iribuynuzlu mal-qara mövcud olub. Onlardan 14753 başı inək və camışdır. Davarların sayı isə 87552 başdır.

Bu barədə Yardımlı Rayon Statistika İdarəsindən AZƏRTAC-a məlumat verilib. Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonda mal-qaranın sayı 69 baş, o cümlədən inək və camışın sayı 124 baş artıb.

Rayonun heyvandarlıqla məşğul olan təsərrüfatlarında bu dövrdə 24369 sentner ət, 182467 sentner süd, 10350 min ədəd yumurta, 1591 sentner yun istehsal edilib.

## Biləsuvarda bostan sahəsinin hər hektarından 133 sentner məhsul götürülüb

Biləsuvarda bostan məhsulları (qarpız-yemiş) yığımı başa çatıb. Məhsul istehsalçıları əkdikləri 68.5 hektar bostan sahəsindən indiyədək 911 ton məhsul toplayıblar. Hər hektarın məhsuldarlığı 133 sentner olub.

AZƏRTAC xəbər verir ki, biləsuvarlı əkinçilər bu mövsüm 68.5 hektar sahədə bostan bitkiləri əkiblər ki, bunun da 40.5 hektarını qarpız, 28 hektarını isə yemiş sahəsi təşkil edib. Torpaq mülkiyyətçiləri əkdikləri sahələrə aqrotexniki qaydada qulluq etdiklərindən plantasiyalarda gözlənildiyindən də çox məhsul yetişib. Fermerlər indiyədək becərdikləri 40.5 qarpız sahəsindən 540 ton, 28 hektar yemiş sahəsindən isə 371 ton yemiş toplayıblar. Qarpız sahəsinin hər hektarının məhsuldarlığı 133.3, yemiş sahəsininki isə 132.6 sentner olub.

Tədarük olunan məhsul əsasən Bakı, Sumqayıt və digər iri şəhərlərin bazarlarına göndərilir.

## Suqovuşan və Talış kəndlərinə gedən yollar bərpa olunur

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, oktyabrın 3-də Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının bərpasına Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən başlanılıb.



Ümumi uzunluğu 29 kilometr olan avtomobil yolları IV texniki dərəcəyə uyğun olaraq bərpa edilir. Hərəkət hissəsinin eni 6 metr, çiyinlərin eni isə hər bir istiqamət üzrə 2 metr olmaqla, yol yatağının eni 10 metr təşkil edəcək.

Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolları uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdır. Hazırda yolboyu yararsız qrunt qazılaraq çıxarılır, yararlı qruntla əks-dolğu işləri aparılır, torpaq yatağı bərpa olunur və yeni yol əsası inşa edilir.

Tikinti işləri “İnşaat Norma və Qaydaları”nın tələblərinə əsasən və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında aparılır. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Yolun tikintisi Suqovuşan su anbarından Tərtər şəhərinə doğru uzanan və uzun illərdən sonra suyuna qovuşan kanalın kənarı ilə aparılır.

Xatırladaq ki, Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilib. Hazırda işğaldan azad edilmiş yaşayış məntəqələrinə qədər uzanan sözügedən tarixi yolun bərpası istiqamətində genişmiqyaslı tikinti işləri görülür.

Qeyd edək ki, ümumilikdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlarımızda 2661 kilometr uzunluğa malik respublika və yerli əhəmiyyətli avtomobil yolları var idi ki, onlardan 883 kilometr respublika, 1778 kilometri isə yerli əhəmiyyətli yollardır. Həmçinin bu yollar üzərində 90 avtomobil körpüsü də yerləşir.

## Füzulinin Aşağı Seyidəhmədli kəndinin sakinləri də köçkünlüyün daşını atdılar



Şanlı Azərbaycan Ordusu Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə böyük uğurlar qazanaraq sürətlə irəliləyir. Demək olar ki, hər gün ərazilərimiz düşməndən təmizlənərək işğaldan azad olunur. Ali Baş Komandan İlham Əliyevin qətiyyətindən güc-qüvvə alan ordumuz cəbhədə əsl qəhrəmanlıq nümunəsi göstərməklə yağı düşmənə ağır zərbələr endirir.

Bu günlərdə Füzuli şəhərinin, eləcə də rayonun bir neçə kəndinin düşməndən azad edilməsi xəbəri hamı kimi Tehran Hüseynovu da hədsiz dərəcədə sevindirdi. Uzun illər yurd həsrəti çəkən Tehran indi öz yurduna qayıdacağı günü səbirsizliklə gözləyir. Doğrudur, dövlətimiz digər məcburi köçkün ailələri kimi, onlara da qayğı göstərib. Ailəsinə Gəncədəki şəhərcikdə ikiotaqlı ev verilib. Buna görə dövlətə minnətdarlıq edən Tehran Hüseynov deyir ki, hökumətimiz bizi qara gündən qurtardı: “Yoxsa məskunlaşdığımız tələbə yataqxanasında zülm çəkirdik. Lakin insanın günü-güzəranı nə qədər yaxşı olsa da, öz el-obasının yerini verməz. Necə ki, 30 ilə yaxındır yurd həsrətindəyik. İndi sevinirik. Ona görə ki, ordumuz sürətlə irəliləyir. Artıq onlarca yaşayış məntəqələrimiz işğaldan azad edilib. Yəqin ki, yaxın vaxtlarda öz ata-baba yurdumuza qayıdacayıq. Füzulinin Aşağı Seyidəhmədli kəndində gözəl və yaraşıqlı ev tikdirmişdim. Həyətimdə böyük bağ-bağça salmışdım. Hər il həmin bağdan topladığım meyvələrin satışından xeyli gəlir əldə edirdim. Özüm isə rayonun Suvarma Sistemləri İdarəsində çalışırdım. Yaxşı gün-güzəranımız var idi. Həyat yoldaşım, bir oğlum və bir qızımla xöşbəxt həyat sürürdük. Ancaq mənfur qonşularımız bu xoşbəxtliyi əlimizdən aldılar”.

Tehran baş verən hadisələri danışdıqca həyəcanını gizlədə bilmirdi. Füzulinin müdafiəsində həlak olan cavanlarımızın adlarını çəkir, hərdən də kəndlərini xatırlayırdı: “Aşağı Seyidəhmədli Füzulinin ən böyük kəndlərindən biri idi. Kənddə klub, xəstəxana, ATS xidmət göstərirdi. Bundan başqa, kənddə qədim insan məskənlərinə aid çoxlu sayda tapıntılar aşkarlanmışdı. Hətta sakinlər özlərinə ev tikmək üçün bünövrə qazdıqda torpağın altından tarixi 3-4 min illərlə ölçülən saxsı qab-qacaq qırıqlarına rast gəlirdilər. İndi yəqin ki, ermənilər həmin əraziləri yerlə-yeksan ediblər”.

Rayon işğal olunanda digər Füzuli sakinləri kimi, Tehran da ailəsi ilə Gəncəyə pənah gətirdi. Həyat yoldaşı və iki övladı ilə birlikdə Gəncə Dövlət Universitetinin tələbə yataqxanasında məskunlaşıb, 20 ilə yaxın orada yaşamalı oldu. Sonra, qeyd etdiyimiz kimi, mənzillə təmin edildilər.

Füzulini 36 yaşında tərk edən Tehranın hazırda 63 yaşı var. Övladlarını evləndirmiş, baba olmuşdur. Oğlu Elnur hazırda həyat yoldaşı Günayla onun yanında qalır. Elnur Fövqəladə Hallar Nazirliyində işləyir. Qızı isə Füzulinin 5-ci “Qayıdış qəsəbəsi”ndə yaşayan Natiqlə ailə qurub. Söhbət zamanı o da məlum oldu ki, oğlunu Füzulinin müdafiəsində igidliklə vuruşub şəhid olmuş qardaşı Fətəlinin qızı ilə evləndirib.

İndi Tehranın ailəsində böyük sevinc yaşanır. Doğma yurdu Aşağı Seyidəhmədli kəndi işğaldan azad edilib. Deyir ki, son vaxtlar elə bir gün olmurdu ki, Füzulini, eləcə də doğma Aşağı Seyidəhmədli kəndini yuxuda görməsin, bağlı-bağçalı həyətləri gözlərinin önünə gəlməsin. Tehran ailəsi ilə birlikdə doğma yerlərə qayıdacagı günün arzusu ilə yaşayır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## 9 ayda dəmir yolu ilə 5,2 milyon ton yük daşınıb

Cari ilin yanvar-sentyabr aylarında dəmir yolu nəqliyyatı ilə 5 milyon 225 min 33 ton yük daşınıb ki, bu yüklərin dəyəri 1 milyard 870,6 milyon ABŞ dolları olub.

Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, doqquz ayda dəmir yolu nəqliyyatı ilə ixrac olunan 1 milyon 600,8 min ton yükün dəyəri 318 milyon dollar təşkil edib.

Qeyd edilən dövrdə bu nəqliyyat növü ilə idxal edilən yüklərin həcmi 3 milyon 624,2 min ton, dəyəri isə 1 milyard 552,6 milyon dollar olub.

## Startap komandası Azərbaycan Ordusuna dəstək məqsədilə təqdirəlayiq addım atıb

Ötən il Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “İdeyadan Biznesə - İ2B” startap müsabiqəsində respublika üzrə 3-cü yerə layiq görülmüş Azərbaycan Tibb Universitetinin “Palliativ+” startap komandası Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək olub.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, hər zaman insanların sağlamlığının qayğısına qalan “Palliativ+” üzvləri Azərbaycan Ordusunun şərəfli tarix yazdığı bir vaxtda müsabiqədə qazandıqları məbləğin qalan hissəsini, yəni 800 manatını fonda ianə ediblər.

Qrup üzvləri - layihə rəhbəri, tələbə İsmayıl Nəzərli, həkim-rezident Məhərrəm Alimli, tələbələr Etibar Abbasov, Qəmər Məmmədbəyli, Azad Kərimli və Ülkər Hüseynova öz təşəbbüsləri ilə bu addımı atıblar.

# Yolum Füzuliyədir

## 27 illik zimistandan sonra yurduma bahar gəldi



◆ Qarabağ söhbətləri

**“Füzuliyə, itirdiyim uşaqlığımı axtarmağa gedəcəm. Özümdən orada bir nişanə gəzəcəm. Bilmirəm, bəlkə bir gəlinciyim qalıb haradasa? Bəlkə kitablarımdan cırılmış bir səhifə tapdım, bəlkə kölgəsində oynadığım hansısa ağacın kötüyünə, üstündə anamın sac qoyub yuxa bişirdiyi ocaq daşlarına rast gəldim...**

**Bilirəm, doğma səslər gələcək qulağıma, anam “ay Bahar, hardasan?” deyəcək, atamın “oyan, Bahar, saat 7-dir, dərsə gecikərsən” sözlərini eşidəcəm...”**



Füzulidən 15 yaşında çıxmışam. Amma sanki ömrümün ən mənalı, dəyərli hissəsi elə həmin o 15 ildən ibarətdir.

Cəmi iki ay ərzində həyətlərində keçilməz sədd kimi uzanıb sıxlaşan otları yara-yara evlərinə sarı getmişdi. Əlini dəstəyə uzadıb qapını açmaq istəsə də, bir anlıq dayanmış, içəri girməyə tərəddüd etmiş, qorxmuşdu. Qapının arxasında şahid olacağı ürək dağlayan mənzərəyə ürəyinin tab gətirəcəyinə şübhə etmişdi. İstəməmişdi ocaqlarının viranə qalmasına, hər birinin üzərində doğma nişanəsi olan sınıb-dağılmış əşyalarının otaqlarda ora-bura səpələnib qalmasına şahidlik etsin. İstəmişdi hafizəsində, xatirələrində hər şey əvvəlcədən necə idisə, eləcə də qalsın...

Amma düşmən gülləsi ilə şüşələri çiliklənmiş pəncərələrdən arxasınca boylanan o kədərli mənzərələr, o ağrılı səhnələr ömrü boyu gözlərinin önündən getməmişdi...

Bir gün mütləq qayıdacağına söz verərək, gözlərində selə dönən qüssə qarışıq qəzəblə uzaqlaşmışdı doğma evindən, yurdundan, elindən...

Bütün bunlar 1993-cü ilin bir yay günündə, Füzulinin işğalından cəmi bir ay əvvəl baş vermişdi...

### Vətən, bizi bağışla ki, gec gəldik, amma güclü gəldik, deyəcəm...

Üzərindən xeyli zaman keçsə də, bütün məcburi köçkünlərin olduğu kimi, onun da ürəyindəki ümid heç zaman ölməmiş, arzusuna çatdırmışdı. Artıq düz 27 il əvvəl acı göz yaşları içərisində tərk etdiyi doğma evlərinə, yurdlarına getməyə tələsirdi: “Füzuliyə ilk qədəm qoyanda o torpağa baş əyəcəm. Bizi bağışla ki, gec gəldik, amma güclü gəldik, deyəcəm. Biz Füzulidən çıxanda çox zəif idik. Ona görə də düşünürəm ki, ana torpaq güclənib qayıtdığımız üçün, o torpağa ayağımızı möhkəm basdığımız üçün bizi bağışlayacaq. Üzərində gəzənlərin öz övladları olduğunu mütləq hiss edəcək”.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova “Qarabağ söhbətləri”ndə dünyaya göz açıb, boya-başa çatdığı Füzulidən danışır. Xatirələr cığırı ilə doğma yurdundakı xoş anlarına işıq tutur, ağrılı-acılı günlərini yada salır və 27 il sonra aldığı qələbə müjdəsinin yaşatdığı təsvirəgəlməz hisslərindən söz açır.



Atam Füzulinin işğalına cəmi iki il dözə bildi.

### Bilirsinizmi vətəndə qəribçilik necə hissdir?!

- Bilirsinizmi vətəndə qəribçilik necə ağrılı hissdir?! Əslində, bunun sözlə ifadəsi mümkünsüzdür. Biz həmişə düşünmüşük ki, kimsə başqa bir ölkədə olanda qərib olur. Yaxud da bizim ölkəyə gələnləri qərib adlandırmışıq... Amma öz vətənində qərib olmaq heç bir düşüncəyə sığmır, baxmayaraq ki, öz xalqının içərisindəsən, öz ölkəndəsən, səninlə bu yükü, ağrını və acını daşıyan yüz minlərlə insan var. Və ömründə oranı görməmiş, dünyaya qərib gəlmiş övladlarımız var... Ki, onlar üçün vətən, doğma yurd, atalarının, babalarının doğulduğu, yaşadığı, böyüdüyü, dünyaya pərvazlandığı Qarabağdır...

Həmin uşaqlar da özlərini qərib hiss edirdilər. Bu, bizlərdə bir natamamlıq kompleksi yaradırdı. Sanki hər şeydə çatışmazlıq, yarımçıqlıq vardı. Elə bil birdən-birə vaxtilə özünü tam mənasında bütöv hiss etmiş insanın əl-qolunu kəsib şikəst etmişdilər. Bax, özümüzü belə hiss edirdik...

### Qarabağa gedən yolların hamısı yarımçıq qırılırdı...

- Yollar da yarımçıq idi, xüsusilə üzü Qarabağa doğru gedən yollar. Baxırsan yoldur gedir, qarşıda bir məhdudiyyət görünmür, amma ora sənin üçün qaranlıqdır, bağlıdır. Bu dəhşətli hissi mən daha çox Horadizdə olanda yaşamışam. 20 il parlamentdə Füzulini təmsil etmişəm. Ora təkcə füzulili yox, həm də deputat, müstəqil hakimiyyət qanadında təmsil olunan şəxs kimi çox getmişəm. Ən müxtəlif səpkili görüşlərimdə, insanlarla ünsiyyətdə, tədbirlərdə ətrafımda olan insanları da məhz özüm kimi ağrılı-acılı görmüşəm.

Kiminsə gücü yetirdi, bu hissləri hər zaman pərdələməyə çalışırdı, kimisi də bunu bacarmırdı. Məsələn, mən hər zaman çalışmışdım ki, onlar mənim timsalımda bütöv, güclü bir insan görsünlər. Çünki əli hər yerdən üzülən və taleyinin bu qisməti ilə barışmaq, onu qəbul etmək istəməyən insanların qarşısına gərək güclü xarakterlə çıxasan. Ona görə də insanın daxili xarakteri ilə zahiri davranışında bir uyğunsuzluq yaranırdı. Özün özünü zəif, kövrək hiss etdiyin anda güclü görünməliydin. Bu, insanın daxilində çox böyük təlatümlər, həyəcanlar yaradır...



Anam Tanrıya üz tutub diləyirdi ki, “mənə möhlət ver, gedim o yurdu görüm, dünyamı dəyişim”. Anamın bu diləyi yerinə yetmədi...

### Səndən ömür istəmirəm, Tanrı, mənə möhlət ver...

- Bu 27 il ərzində qəbirlərimizi, məzarlıqlarımızı ziyarət edə, əzizlərimizi aparıb doğma torpağında dəfn edə bilmədik.

Atam Füzulinin işğalına cəmi iki il dözə bildi. Bu iki ildə, neçə dəfə əyinbaşını geyinib evdən çıxırdı. Deyirdi ki, mən yurduma gedirəm. Anam qarşısına keçib onu zorla saxlayırdı ki, hara gedirsən? Əslində, o özü də bilmirdi ki, hara gedir. Sadəcə yaşadığı yerdə hövsələsi çatmırdı, oradan çıxmaq, öz yurdu tərəfə yol almaq istəyirdi. O, Füzulinin Yuxarı Yağlıvənd kəndində dünyaya göz açmışdı.

Ulu Öndərimiz Heydər Əliyev 1994-cü ildə Horadiz və 22 kəndi azad etdikdən sonra atamın yurdu, yəni Füzulinin Yağlıvənd kəndinin aşağı hissəsi də azad edilmişdi. 1995-ci ildə atam vəfat edəndə onu Aşağı Yağlıvəndin qəbiristanlığında dəfn etdik və işğal zamanı Füzulu şəhərindəki həyətimizdən götürdükləri torpağı qəbrinin üstünə səpdik. Atamın vəfatından sonra anamda bir növ ruh düşkünlüyü yaranmışdı. Hər bizə nəsihətində, vəsiyyətində söyləyirdi ki, məni atanın yanında dəfn edərsiniz. Ondan əvvəl də Tanrıya üz tutub hər zaman diləyirdi ki, “mən səndən ömür istəmirəm, mənə möhlət ver, Tanrı. Gedim o yurdu görüm, dünyamı dəyişim. Əvəz görmədi, mən onun yerinə yurdumuzu görüm”. Amma anamın bu diləyi yerinə yetmədi, atamın yanında dəfn olunmaq qisməti oldu. İndi orada qoşa uyuyurlar...



Füzuliyə qədəm qoyanda yenə əvvəlki kimi olacaq. Həyatimizə girəndə məni atamla anam qarşılayacaq... ...Əlbəttə, qarşılayacaq, amma bu dəfə ruhları.



Füzuliyə son səfərim 1993-cü ildə, işğala bir ay qalmış, iyul ayında olmuşdu. Şəhərin bu başından o başına piyada evimizə getdik. Evin qapısını açmadıq, yalnız sınıq pəncərələrdən baxdıq içərisinə. Çünki evimizi dağılmış halda görmək istəmədik...

### Füzuli ilə bağlı xatirələr hər zaman məni uşaqlığıma aparır

- Füzulidən 15 yaşında çıxmışam. Amma sanki ömrümün ən mənalı, dəyərli hissəsi elə həmin o 15 ildən ibarətdir. Baxmayaraq ki, o zaman da Füzulidən uzaqda, Bakıda tələbə idim, özümü qərib hiss etmirdim. Bilirdim ki, istənilən vaxt evimizə gedə bilərəm və gedirdim. Füzuli ilə bağlı xatirələr hər zaman məni uşaqlığıma aparır, gözlərim önündən yeniyetməliyim keçir. O, ömrümün ən gözəl illəridir, çünki ailəmin içərisində idim, valideynlərim sağ idi, bacı-qardaşım yanımda idi. Mən həyatı bütün rəngləri ilə təsəvvür edirdim. O illər mənim qəlbimdə, beynimdə yaşayır, ruhuma hopub, xatirələrimdə canlanır. Oranın hər daşı, kəsəyi, doğulduğum ev, həyət, küçə, Füzuli rayonunun özü, onun kəndləri, yolları hamısı gözümün önündədir. Və mənə elə gəlir ki, sanki qoyub gəldiyim kimidir. Gedib hamısını yerində görəcəm. Təbiidir ki, biz oranı yenidən gözəl bərpa edəcəyik, o, tamamilə başqa bir şəhər olacaq. Amma bizim hər birimizin qəlbində o qoyub gəldiyimiz Füzuli qalacaq. Füzulidə çox daşlar qoyub gəlmişik, doğmalarımızın baş daşlarını, tariximizi xatırladan daşları, ocaq daşlarını... Əzəlimiz o müqəddəs bünövrələrə söykənir...

Füzuliyə son səfərim isə 1993-cü ildə, işğala bir ay qalmış, iyul ayında olmuşdu. Bir şəhidin yas mərasiminə getmişdim və onda iki bacımla bərabər ayaqüstü tərk olunmuş Füzuli şəhərinə də baş çəkdim. Şəhərin bu başından o başına piyada evimizə getdik. Evin qapısını açmadıq, yalnız sınıq pəncərələrdən baxdıq içərisinə. Çünki evimizi dağılmış halda görmək istəmədik...

### Evimizdə yenə də məni atamla anam qarşılayacaq, amma bu dəfə ruhları...

- 27 il sonra və elə sentyabrın 27-nə keçən gecə yuxuda özümü Füzulidə gördüm. Bir-birinə yaxın təpələrin arasındakı yarğanabənzər dərələrdə hiss edirdim özümü. Gah təpənin başında, gah dərin yarğanlarda olurdum. Daha sonra su və torpaq qarışıq sürüşmə yarandı və sanki bu sürüşmələrin içində mən də var idim. Çox qəribə bir hiss idi... Səhəri gün isə şanlı Azərbaycan Ordusunun düşmən təxribatının qarşısını alaraq, Qarabağda azadetmə əməliyyatının başlandığını eşitdim. İlk dəfə mistika ilə reallığın belə bir əlaqəsini öz həyatımda hiss elədim. Amma bundan əvvələ qədər Füzulini yuxularımda real görürdüm, özü də kiçik uşaqlıq, 15 yaşıma qədərki yeniyetməlik dövrümü. Oyuncaqlarımı, kitab-dəftərlərimi, həyətimizi... Atam, anam da hər zaman gənc olurdu röyalarımda...

Elə həyatda da hər zaman onları bu cür xatırlayıram. Füzuli ilə bağlı hər zaman xatırladığım ilk mənzərə həyətimizin qapısından girəndə atamla anamın hər ikisinin qollarını açaraq məni qarşılaması olur. İndi mənə elə gəlir ki, Füzuliyə qədəm qoyanda yenə əvvəlki kimi olacaq. Həyətimizə girəndə məni atamla anam qarşılayacaq...

...Əlbəttə, qarşılayacaq, amma bu dəfə ruhları.



Bu yurd üçün canını verən, qanını o torpağa tökən, ömrünün cavan yaşında qurban gedən cavanlarımız qarşısındakı vəzifələrimiz çox mühümdür.

### Vətən uğrunda şəhid gedənlərin ruhunun şad olduğu günlərdir

- Bəlkə də bizlər həyatda canlı olan doğmalarımızın, yaxınlarımızın qarşısında götürdüyümüz öhdəliklərə, verdiyimiz sözə bir çox hallarda sadiq olmuruq. Düşünürük ki, yetirməsəm, bağışlayar məni, doğmamdır. Amma ruhların, bu dünyadan həsrətlə köçən doğmalarımız qarşısındakı vədlərimiz çox vacibdir. Bu yurd üçün canını verən, qanını o torpağa tökən, ömrünün cavan yaşında qurban gedən cavanlarımız qarşısındakı vəzifələrimiz çox mühümdür. Və bu gün biz o öhdəliklərimizi, vəzifələrimizi yerinə yetiririk. O torpağa qayıdırıq, onların ruhunu şad edirik.

Əslində, bu illər ərzində heç zaman şübhəm olmayıb ki, biz o torpaqlara qayıdacağıq və mən o günləri görəcəm. Buna əminliyim isə Azərbaycan əsgərinin Lələtəpə qalibiyyətindən sonra birə min artdı. Elə özümdə vətənpərvərlik ruhunda şeir yazma qabiliyyətini də Lələtəpə zəferindən sonra kəşf etdim...



Əli hər yerdən üzülən və taleyinin bu qisməti ilə barışmaq, onu qəbul etmək istəməyən insanların qarşısına gərək güclü xarakterlə çıxasan.

*Zirvəsi var, Lələtəpə,*
*Yağış, dolu səpə-səpə.*
*Addım-addım, təpə-təpə,*
*Vətən, sənə qurban olum!*

Mən onda yəqin etdim ki, biz ölkəmizi təpə-təpə, qarış-qarış, addım-addım azad edəcəyik.

Hər halda bizi ora qaytaran ilk növbədə inamımız oldu. Geniş mənada buna inanmasaydıq, bunun mümkünlüyünü qəbul etməsəydik, biz ora qayıda bilməzdik.

Mən Heydər Əliyevin nitqlərini dəfələrlə dinləyən və oradakı hər məqamı əldə rəhbər tutan bir şəxs kimi inanırdım ki, elə bir zaman gələcək ki, bu qayıdış üçün lazımi şərait olacaq. Həm iqtisadi gücümüz, həm də bir xalq olaraq daxili birliyimiz, döyüş və vətənpərvərlik ruhumuz buna hazır olacaq. Beynəlxalq aləmdə siyasi şərtlər də elə olmalıdır ki, bizə kömək edən olmasa da, mane olmaq imkanları da olmasın.

Baxın, hazırda belə bir mühit yetişdi. Bu mühitin yetişməsində isə nə qədər amillər iştirak etdi.

### İlham Əliyev bütün bunların öhdəsindən qəhrəmanlıqla gəldi

- Amma ən əsas amil Ali Baş Komandanımız İlham Əliyevdir. Dövlət başçımız bu illər ərzində Heydər Əliyevin zamanında söylədiyi bütün şərtlərin yetişməsinə zəmin yaratdı. Azərbaycan iqtisadi tərəfdən güclənməli, vətəndaşların sosial vəziyyəti yüksək səviyyəyə çatdırılmalıydı. Ölkəmiz öz taleyinin sahibi olub müstəqil iradə ortaya qoymalı, sərvətlərini öz ölkəsinin və dünya ökələrinin marağına uyğun elə bir şəkildə istifadə etməliydi ki, o, Azərbaycanın təhlükəsizlik kəmərinə çevrilsin. Həmçinin regional qlobal miqyasda yeritdiyi siyasət də burada heç bir real güclərin maraqları üçün ziddiyyətlər yaratmamalıydı. Əksinə, elə olmalıydı ki, bir-birinə zidd mövqedə olan beynəlxalq güclər əməkdaşlıq məkanı üçün Azərbaycanı seçsin. Bura nəinki dinlərin, konfessiyaların, etnik qrupların, mədəniyyətlərin ziddiyyətlərdə olduğu bir məkan, əksinə, onların harmoniyada olduğu, bir-birinə qovuşduğu, bir-birini tamamladığı, bir-birini zənginləşdirdiyi bir məkan kimi diqqətləri çəksin. Görün biz bunları sadalamağa qalxsaq, nə qədər faktorlar Azərbaycanın müdrikcəsinə müəyyənləşdirdiyi və qətiyyətlə həyata keçirdiyi siyasətindən qaynaqlanır. Bu regiondakı ictimai-siyasi mühit, qüvvələr nisbəti və onların maraqlarının nəzərə alınması üçün mühit yetişdirilməli idi. İlham Əliyev bütün bunların öhdəsindən qəhrəmanlıqla gəldi. Artıq bunların nəticələrini biz addım-addım irəlilədikcə hiss etməkdəyik.

Bu vəziyyət həm ölkə Prezidenti cənab İlham Əliyevin və onun yaxın silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında ayrı-ayrı ölkələrlə ikitərəfli və çoxtərəfli formatda apardıqları məqsədyönlü, bütün parametrlərilə Azərbaycan maraqlarının reallaşmasına və eyni zamanda qarşılıqlı faydalı əməkdaşlığa yönəlmiş siyasətin konkret nəticəsidir ki, biz bu gün qalibiyyət marşımızı davam etdirməkdəyik. Azərbaycanda gedən Vətən müharibəsi özünün məntiqi sonluğuna yaxınlaşmaqdadır. İnanıram ki, qısa müddətdən sonra biz bütöv Azərbaycan haqqında danışacağıq.

### Qəlbimizdəki zirvələrin bayrağı azadlığa, işığa çıxıb...

- Bu illər ərzində hər bir azərbaycanlı, o yerlərdən köçkün düşmüş insanlar üçrəngli bayrağımızı qəlbimizdəki zirvədə daşıyıb. İndi isə o, azadlığa, Yer üzünə, işığa çıxıb. Özünün varlığı ilə də bizə qürur yaşadır. Sanki o keyimiş əl-qolumuzu hiss etməyə başlayırıq, beynimizin dumanı, qəlbimizin donu açılır. Mənə elə gəlir ki, indi insanlar da, ailə üzvlərimiz də tamam dəyişib, onları tamam başqa cür görməyə başlayıram. Və nələrdən məhrum olduğumuzu sanki bir daha dərk edirik. Amma nə qədərimiz bu günləri görə bilmədi, qərib köçdü dünyadan. Amma inanıram ki, onların da ruhu artıq bu qələbə sevincini hiss etməkdədir.

Zənnimcə, bu günləri inanaraq gözləməyinə, dözməyinə, bu çətinlikləri, məhrumiyyətləri çəkməyinə dəyərdi. Çünki bu qələbə günləri sanki bütün yaralarımıza sığal çəkir, məlhəm qoyur, ağrı-acılarımızı unutdurur.

İşğaldan azad olunan torpaqlarımızı göstərən xəritədəki yaşıl rəng artdıqca, bizim də ruhumuza sakitlik gəlir. Bu illər ərzində Ermənistan işğal edilmiş ərazilərdə yanmış torpaqlar siyasəti həyata keçirib. Sanki yaz gəlirdi ora, çəmənlər göyərirdi, ağaclar yarpaqlayırdı, amma onu biz yaşıl rəngdə görə bilmirdik. Bax, indi o torpaqlarımıza yaz gəlir, təbiətin nəfəsi qayıdır, hər şey öz rənginə bürünür...



İşğaldan azad olunan torpaqlarımızı göstərən xəritədəki yaşıl rəng artdıqca, bizim də ruhumuza sakitlik gəlir.

### Gilasın heç yerdə belə ətri ola bilməz, o yalnız Füzulidədir

*Uşaqlığı, yeniyetməliyi Füzuli rayonunda keçmiş, Kiçik Qafqaz dağlarına, onun ətəyindəki zümrüd meşələrə baxa-baxa böyümüşdü, yaşıla vurğun olmuşdu Bahar...*

*Artıq 27 il idi ki oraları görmürdü. Yaşadığı yer, getdiyi yol, oxuduğu məktəb yalnız xatirələrdə və bir də bəzi fotolarda qalmışdı. Bu illər ərzində təkcə Füzulidən deyil, həm də uşaqlığından, atalı-analı xatirələrindən uzaq düşmüşdü...*

*Amma budur, həmin ağrı-acıların, qüssəli hadisələrin özü xatirəyə çevrilməyə başlayır yaddaşında. Yenə evlərinə yüyürür, doqqazda onu qarşılayan ata-anasının qolları arasında özünü dünyanın ən xoşbəxti hiss edir. Yurdunun daş-kəsəyinə, divarlarına əl çəkir, hər küncündə, bucağında barmaqlarını gəzdirir...*

*Haradansa burnuna yenicə ağarmış gilasın ətri gəlir. Gəlib ağacın altında dayanır və diqqətlə baxır. Ağarmış, bir az böyümüş gilas gördükdə sevincinin həddi-hüdudu olmur... Bu gilasın özünəməxsus ətri var və ona elə gəlir ki, gilasın heç yerdə belə ətri ola bilməz, o yalnız Füzulidədir, atasının onun adına əkdiyi, balaca Baharın da hündürboylu və bol məhsullu olması ilə fəxr etdiyi ağacdadır...*

*Bəli, artıq düz 27 illik zimistandan sonra Füzuliyə bahar gəlib...*

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

## Yumruğun gücü



**Dünənimdən sabahıma öz içimdən yol gəlirəm**
**Qürub edən günəş kimi dan yerinə tələsirəm.**
**İstəyirəm sabahların al şəfəqin,**
**Bu müqəddəs torpağıma özüm səpəm.**
**Üfüqədək yol yoldaşım, can sirdaşım,**
**Bu günümün çiyindaşı, qan qardaşım.**
**Birlik üçün könül verib qucaqlaşan**
**Səf-səf duran arkadaşım, vətəndaşım!**
**Sən bilirsən hansı qurban bahasına,**
**Ümid dolu sabahları gözləmişik.**
**Yaradanın dərgahına əl uzadıb,**
**Tanrımızla ruhumuzu bir etmişik.**
**Uzaq, yaxın bu yolların gərdişində,**
**Düşmənlərin tuzağına tuş gəlmişik.**
**Horadizlə Lələtəpə döyüşündən,**
**Tovuz, Qazax sınağından qalib cıxıb,**
**Cənnətməkan Qarabağa yol almışıq.**
**Hər kəs bilsin qarşımızda bir seçim var:**
**Zalımları öz yerinə oturtmalı,**
**Bu bayrağı zirvələrdə ucaltmalı!**
**Gücümüzü bir yumruğa toplamalı,**
**Heydər baba zirvəsindən İlhamlanıb,**
**Yurdumuzu əsarətdən çıxartmalı!**

***BAHAR***

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




"The Telegraph" qəzeti: Dağlıq Qarabağda sülhün təmin olunmasının əsas yolu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir

Böyük Britaniyanın "The Telegraph" qəzetində "Dağlıq Qarabağda sülhün təmin olunmasının əsas yolu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan ilə Azərbaycan arasında 30 ilə yaxındır davam edən münaqişənin tarixi, Azərbaycana qarşı ərazi iddiaları sürən Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunması, Dağlıq Qarabağda və ona bitişik rayonlardakı azərbaycanlıların öz daimi yaşayış yerlərindən məhrum edilərək məcburi köçkünə çevrilməsi, eləcə də bu münaqişə ilə bağlı həqiqətlərin düzgün və dolğun şəkildə dünya ictimaiyyətinə çatdırılması ilə bağlı görülən işlər öz əksini tapıb.

Məqalədə beynəlxalq KİV-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin işıqlandırılması zamanı bəzilərinin yanlış olaraq bu münaqişəni "mübahisəli Dağlıq Qarabağ anklavı" kimi təqdim etdikləri bildirilir.

Qeyd edilir ki, bu münaqişə nəticəsində 800 mindən çox Azərbaycan vətəndaşı məcburi şəkildə öz evlərindən didərgin salınıb, dinc sakinlər qətlə yetirilib və mülki infrastruktur məhv edilib. Münaqişə nəticəsində Azərbaycan tarixboyu üzləşdiyi ən böyük humanitar böhranla üz-üzə qalıb.

Sülhün əldə olunması üçün vaxtın çoxdan yetişdiyini vurğulayan müəllif qeyd edir ki, belə bir sülh yalnız hər iki tərəfin xoş niyyətlə apardığı danışıqlar vasitəsilə mümkün ola bilər. Beynəlxalq ictimaiyyət başa düşməlidir ki, Azərbaycan ərazilərinin bir hissəsi işğal olunub və tərəflər arasında baş tutacaq hər hansı danışıqların obyekti məhz işğal olunmuş həmin ərazilərin geri qaytarılmasıdır.

Müəllif Dağlıq Qarabağın bəzən "mübahisəli anklav" kimi təqdim edilməsinin yanlış olduğunu vurğulayaraq, Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı yeddi rayonun bütün dünya ictimaiyyəti tərəfindən Azərbaycan ərazisi kimi tanındığını bildirir. Həmçinin 30 ilə yaxındır ki, Birləşmiş Millətlər Təşkilatı tərəfindən Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ ərazisindən dərhal çıxarılmasını tələb edən dörd qətnamənin qəbul edildiyi vurğulanır.

Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dini mahiyyət daşıması ilə bağlı fikirlərin də tamamilə yanlış olduğu bildirilir. Müəllif əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda əhalisinin əksəriyyəti xristian olan Ermənistandan fərqli olaraq böyük yəhudi və xristian icmalarının, eləcə də müxtəlif konfessiyaların nümayəndələrinin tarixboyu dinc yanaşı yaşadıqlarını qeyd edir.

Məqalədə həmçinin Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın gözəl təbiətə və mədəni irsə malik olduğu, lakin erməni işğalı altında olan həmin ərazilərdə Azərbaycana məxsus tarixi keçmişin əlamətlərini silmək və tarixi dəyişdirmək məqsədilə bir çox abidələrin və memarlıq nümunələrinin dağıdıldığı qeyd olunur.

Müəllif yazır ki, sülhün əldə olunması üçün vaxt çoxdan yetişib və bu sülh üç şeydən asılıdır. Birincisi, bu münaqişə ilə bağlı həqiqətlər dünya ictimaiyyətinə daha geniş və dolğun çatdırılmalıdır. İkincisi, münaqişənin həll yolunun tapılmasında beynəlxalq ictimaiyyətin səylərin daha da artırılmalıdır. Üçüncüsü isə, sülhün əldə olunmasının əsas yolunun Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə mümkün olduğunun qəbul edilməsidir.




İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri, nüfuzlu qəzetləri, televiziya kanalları, xəbər agentlikləri, o cümlədən "Rai", "Mediaset", "Ansa", "Agi", "La7", "İl Sole 24 Ore", "İl Giornale", "Adnkronos", "Notizie Tiscali", "Notizie Yahoo", "Occho Notizie", "Gazzetta di Parma", "Telenicosia", "Politicamente Corretto", "MSN", "Quotidiano Countribuenti", "Prima Press", "Globus Magazine", "La Gazetta del Mezzogiorno", "La Nuova Sardegna", "Quotidiano", "Politica News", "Altoadige", "Inews24", "Giornale del Trento", "Prealpina", "Agenia Nova", "Corriere Quotidinao", "La Presse", "Unionsarda", "Il Giornaleditalia", "Open Online" və sair kimi mətbuat orqanları Gəncə şəhərini Ermənistanın ballistik raket atəşinə tutması haqqında məlumatlar və videoreportajlar yayımlayıblar.

AZƏRTAC xəbər verir ki, məlumatlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqına bugünkü müraciətində bu mövzu ilə bağlı fikirlərindən sitat gətirilərək baş verənlərin hərbi cinayət olduğu və Ermənistanın cavabının Azərbaycan tərəfindən döyüş meydanında verildiyi bildirilir.

Məlumatlarda eləcə də Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin, Azərbaycan Respublikasının Baş Prokurorluğunun, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Azərbaycanın İtaliyadakı səfirliyinin məlumatlarına əsasən Ermənistanın bu hərbi cinayətinin ağır nəticələri barədə danışılır, cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə sayca üçüncü dəhşətli hücumun ciddi sayda mülki insanların itkisinə səbəb olduğu, 13 şəxsin, o cümlədən 2 uşağın həyatını itirdiyi, 50-dən çox insanın ciddi yaralandığı, çoxsaylı yaşayış binalarının və geniş ərazinin dağıdıldığı, Gəncəyə atılan raketlərin SCUD/Elbrus taktiki ballistik raketlər olduğu, bunun Ermənistanın hərbi-siyasi rəhbərliyinin tamamilə əxlaqsızlığını və şizofrenik düşüncəsini nümayiş etdirdiyi vurğulanır.




BBC-nin dünyaca məşhur reportyoru Orla Querin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı fəsadlarla bağlı reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, BBC komandası Azərbaycanda olduğu 5 gün ərzində Bakı şəhərindən Tərtərə, Gəncəyə gedib. Onlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı mülki əhalinin hansı düşüncə və hisslərlə yaşadıqlarını öz tamaşaçılarına çatdırıblar.

Şəhidlər xiyabanından kadrlarla başlayan reportajda birinci həmsöhbətlər Azərbaycan gəncləri olub. Onlar əsgərlərimizə güvənərək torpaqlarımızın tezliklə işğaldan azad olunacağını deyiblər. Müxbir daha sonra 1990-cı illərdə Dağlıq Qarabağdan didərgin düşərək məcburi köçkünə çevrilən, Bakıda məskunlaşan insanlarla söhbət edib. Sakinlər ermənilərin onları doğma yurdlarından qovduqlarını müxbirin diqqətinə çatdırıblar və öz dədə-baba torpaqlarına qayıdacaqlarına inandıqlarını deyiblər. Daha sonra müxbir və onun komandası Azərbaycanın ermənilər tərəfindən ən çox hücuma məruz qalan Tərtər şəhərində olub. Yolboyu ermənilərin atdığı mərmilərin yaratdığı fəsadlar izləyicilərin diqqətinə çatdırılıb.

Orla Querin müvəqqəti sığınacaqda yaşayan insanlarla da söhbət edərək onların başına gələn dəhşətli anları öz süjetinə əlavə edib. BBC-nin reportyoru Goranboyda evinə düşən top mərmisi nəticəsində həyatını itirən Türyan Quliyevanın cənazəsinə də şahidlik edib, ailənin başına gələn faciəni yaxınlarından öyrənib.

Süjetin ən ağrı-acılı hissəsi Tapqaraqoyunlu kəndində lentə alınıb. Döyüşlərdə iştirak etmək üçün cəbhəyə yollanan və ailəsini itirən baş çavuş Nadir Qurbanov başına gələnlərdən danışıb. Onun hələ də ermənilərin atdığı mərmi nəticəsində ailəsinin 5 üzvünün həlak olmasının şokunu yaşadığı qeyd edilib.

Reportyor sonda iki ölkə arasında razılaşdırılan atəşkəsdən sonra ermənilər tərəfindən vurulan raket zərbəsindən sonra Gəncə şəhərinin mərkəzində dağılan evlərə baş çəkib. Orada olanları ətraflı göstərərək faciənin böyüklüyünü diqqətə çatdırıb.



"Ermənistan Dağlıq Qarabağdakı münaqişəyə Rusiyanı cəlb etmək cəhdlərini davam etdirir".

AZƏRTAC xəbər verir ki, bu barədə "News.ru" Rusiya portalında dərc olunan məqalədə deyilir. Materialda vurğulanır ki, erməni tərəfi Qarabağda baş verənləri müsəlman və xristian dünyasının qarşıdurması kimi təqdim etməyə cəhd göstərir, lakin hadisələrin bu cür stereotip mənzərəsi əsla ağlabatan deyil.

Məqalədə xatırladılır ki, ötən həftə erməni tərəfi Azərbaycanı Şuşadakı Müqəddəs Xilaskar İsa Məbədinin atəşə tutulmasında ittiham edib. Müəllif yazır: "Hər şeydən əvvəl Şuşadakı məbədə zərbənin qəsdən endirilməsini sübut etmək qeyri-mümkündür. Kilsə döyüş əməliyyatları zonasında yerləşir, buna görə də oraya mərmilərin təsadüfən düşməsini istisna etmək olmaz. Eyni zamanda Ermənistan Azərbaycanın sərhəddən uzaqda yerləşən Gəncə, Tərtər və Mingəçevir şəhərlərini operativ-taktiki raket komplekslərindən atəşə tutmaqdan xəcalət çəkmir. Bu hücum dinc sakinlərin ölümü ilə nəticələnir. Belə hərəkətlərin məqsədi aşkardır - Bakını bilavasitə Ermənistan ərazilərini atəşə tutmağa təhrik etmək və bununla da Yerevanın Moskvadan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində müdafiə istəməsinə şərait yaratmaq".

Materialda deyilir ki, erməni tərəfinin münaqişəyə Rusiyanı cəlb etmək niyyəti iflasa uğrayandan sonra təkcə münaqişəni beynəlmiləlləşdirmək cəhdləri deyil, həm də dini etiqad amilindən istifadə cəhdləri kimi digər alətlər işə düşür: "Qarabağda baş verənlər erməni KİV və lobbiçiləri tərəfindən Azərbaycan və Türkiyə müsəlman ittifaqının "qardaş xristian xalqına" toxunan döyüş əməliyyatları kimi, bəzən də hətta sünni Türkiyənin şiə İrana qarşı mübarizəsi kimi təqdim edilir. Mütəxəssislər üçün bu tezislər absurd görünür: tanınmış rusiyalı islamşünas Aleksey Malaşenkonun qeyd etdiyi kimi, "Qarabağ münaqişəsində şiə-sünni qarşıdurması barədə ideyanın müəllifinə müdriklərin kitablarını daha çox oxumağı məsləhət görmək olardı".

Məqalədə qeyd edilir ki, Azərbaycan, hətta onun sakinlərinin 90 faizindən çoxunun özlərini müsəlman hesab etməsi faktı nəzərə alınsa belə dünyəvi dövlətdir. Bakı bütün konfessiyalara, o cümlədən xristianlara qarşı dözümlülüyü vurğulayır. 1998-ci ildə Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası yenidən qurulub, pravoslav mənbələrin təsdiqlədiyi kimi, o vaxtdan Yeparxiya hakimiyyət orqanları ilə, o cümlədən məbədlərin bərpası və yenidən qurulması sahəsində səmərəli əməkdaşlıq edir.

"Ekspertlər vurğulayırlar ki, Yerevanın dini ziddiyyətlərdən istifadə etmək cəhdləri münaqişənin dinc yolla həllini yalnız uzaqlaşdırır. Bu münaqişə təbliğatçı məqsədlərə deyil, beynəlxalq hüquqa əsaslanaraq həll olunmalıdır. Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov da bununla razıdır. Nazir bu günlərdə hər iki tərəfi ilk növbədə dinc nizamlama perspektivlərini məhv edən qarşıdurma ritorikasından imtina etməyə çağırıb", - deyə müəllif sonda bildirib.



Misirin nüfuzlu "Əl-Əhram" qəzeti, "Youm7" və "Dostor" informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsindən sitatları yayıb.

AZƏRTAC-a istinadla yayılan xəbərlərdə qeyd olunur ki, Azərbaycanın dövlət başçısı işğalçı Ermənistanın humanitar atəşkəs rejimini pozduğunu, eyni zamanda Gəncə şəhərinə iki dəfə raket hücumu etdiyini bildirib. Prezident İlham Əliyev mülki insanların hədəfə alınmasını alçaq cinayət adlandıraraq deyib: "Əgər erməni tərəfi nəhayət başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq".

Xəbərlərdə qeyd olunub ki, Azərbaycan Prezidenti Ermənistan tərəfindən işğal edilmiş ərazilərin qaytarılması, Dağlıq Qarabağın gələcəyinə dair danışıqlar, qaçqınlar və məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qaytarılmasının danışıqların baza prinsipləri olduğunu və ölkəmizin bu prinsiplərə sadiqliyini vurğulayıb. Bununla yanaşı, Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından üstünlüyünü göstərib.



İndoneziyanın nüfuzlu "Pikiran Rakyat" qəzetində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair səfir Cəlal Mirzəyevin müsahibəsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan səfiri Dağlıq Qarabağ münaqişəsinə son qoymaq üçün əsas həll yolunun BMT Təhlükəsizlik Şurasının qətnamələri olduğunu bildirir" adlı yazı qəzetin baş redaktoru Noe Firmanın səfir C.Mirzəyev ilə münaqişə və baş verən son hadisələrə dair müsahibəsi əsasında hazırlanıb.

Azərbaycan səfiri ötən ayın sonunda yenidən alovlanan münaqişədə iki dəfə humanitar atəşkəs elan olunmasına baxmayaraq, Ermənistanın təxribatları nəticəsində atəşkəsin pozulduğunu və döyüşlərin yenidən davam etdiyini bildirib. Sentyabrın 27-dən etibarən alovlanan döyüşlər zamanı Ermənistanın Azərbaycanın şəhərlərinə amansız hücumları nəticəsində 60-dan çox azərbaycanlı mülki şəxsin həlak olduğu və 270 nəfərin yaralandığı bildirilib.

Səfir son hadisələrə baxmayaraq, Azərbaycanın münaqişəni hələ də sülh yolu ilə həll etməyə hazır olduğunu qeyd edib. Səfir ATƏT-in Minsk qrupunun bu günə qədər münaqişənin sülh yolu ilə həll olunmasındakı səylərinin nəticə vermədiyini də əlavə edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin elə də mürəkkəb məsələ olmadığını qeyd edən diplomat bunun üçün münaqişə ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və erməni işğalçı qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrinə əməl edilməsinin kifayət etdiyini bildirib.

İndoneziya Respublikasının Xarici İşlər Nazirliyinin son bəyanatında da münaqişənin beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həllinin dəstəkləndiyini xatırladan C.Mirzəyev münaqişə tərəflərinin ATƏT-in Minsk prosesi çərçivəsində danışıqlar masasına qayıtmağa dəvət olunduğunu qeyd edib. Bununla yanaşı, səfir İndoneziya vətəndaşlarına müraciət edərək Azərbaycan xalqının ərazi bütövlüyünün bərpası uğrundakı səylərini dəstəkləməyə çağırıb.



Qətərdə ərəb dilində nəşr olunan "Əl-Raya" qəzetində Gəncə şəhərinə edilmiş hücumla bağlı məlumat dərc edilib.

Azərbaycanın Qətərdəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, yazıda erməni ordusunun oktyabrın 17-də gecə vaxtı Gəncə şəhərini raket atəşinə məruz qoyması və nəticədə 13 mülki şəxsin həyatını itirdiyi haqqında məlumat verilir.

Yazıda qeyd olunur ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə iki yaşayış binasına endirilmiş raket zərbələri 13 nəfərin həyatını itirməsinə, 45 nəfərin ağır yaralanmasına, çoxlu bina, ev, iş yerləri, nəqliyyat vasitələri və s. zərər görməsinə səbəb olub.

Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) dərc edilən xəbərlərə istinadən verilən məlumatlarda qeyd olunub ki, erməni qoşunları humanitar atəşkəsi pozaraq növbəti dəfə döyüş bölgəsindən uzaqda yerləşən Gəncə şəhərini raket atəşinə məruz qoyub.

Yazıda dağıntılar altından həlak olanların cəsədlərinin çıxarılması üçün axtarış və yaralıların xilasetmə əməliyyatlarının davam etdiyi bildirilib, bu vaxta qədər 52 nəfərin dağıntılar altından çıxarıldığı diqqətə çatdırılıb.




Ukraynanın aparıcı KİV Azərbaycan Silahlı Qüvvələrinin işğal altındakı bir sıra yaşayış məntəqələrini, o cümlədən Zəngilan rayonunun azad edilməsi barədə Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətini işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Ukraynanın nüfuzlu "RBK-Ukrayna", "Seqodnya", "Korrespondent" portallarında dərc edilən məqalələrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fikirlərinə istinadla Zəngilan şəhəri daxil olmaqla rayonun 6 və Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndinin işğaldan azad olunduğu qeyd edilib.

Məqalələrdə həmçinin Ermənistanın 241 tankının məhv edildiyi, 39 tankın isə hərbi qənimət kimi götürüldüyü vurğulanır.




"Kuwait Times" qəzetində Ermənistanın Gəncə şəhərinə raket hücumu həyata keçirməsi ilə bağlı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə gecə saatlarında həyata keçirilən raket zərbəsindən sonra Ermənistandan döyüş meydanında intiqam alacağını bildirdiyi qeyd edilir. Azərbaycan Prezidentinin Gəncəyə raket hücumunu müharibə cinayəti adlandırdığı vurğulanır.

Məqalədə Gəncə şəhərinin bir yaşayış məntəqəsinə qarşı həyata keçirilən raket hücumu nəticəsində 10-dan çox mülki vətəndaşın həlak olduğu və onlarca insanın yaralandığı diqqətə çatdırılır.

Müəllif Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin öz rəsmi "Twitter" səhifəsində Ermənistan tərəfindən atılan bu raket hücumu ilə bağlı yazdığı fikirlərə istinadən Gəncədə 20-dən çox evin dağıldığını qeyd edir. Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun fikirlərinə istinad edən müəllif yazır: "Ermənistan müharibə cinayətləri törətməkdə və mülki əhalini qırmaqda davam edir. Bu vəhşilik qarşısında susmaq bu cinayətlərin bir hissəsi olmaq deməkdir".

Müəllif sonda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə qısa məlumat verərək bildirir ki, onilliklərdir davam edən münaqişə bu il sentyabrın 27-dən başlayaraq daha da gərginləşib.



Özbəkistanın "human.uz", "daryo.uz", "kun.uz", "tarjuman.uz" və "xabar.uz" portallarında Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçılıq siyasəti haqqında materiallar verilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən söz açılır. İşğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının dörd qətnamə qəbul etdiyi, bu sənədlərin hələ də kağız üzərində qaldığı diqqətə çatdırılır.

Portallar yazır ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın Gəncə, Mingəçevir şəhərlərini, Ağdam, Bərdə Tərtər və digər rayonları, o cümlədən kəndləri raket atəşinə tutmaqda davam edir. Bu da 1949-cu ildə imzalanmış Cenevrə Konvensiyasına və mülki əhalinin atəşə tutulması ilə bağlı digər konvensiyalara ziddir.

Saytlar bildirir ki, Ermənistan tərəfdən Gəncənin növbəti dəfə raket atəşinə tutulması nəticəsində 13 dinc sakin ölüb, 50-dən çox adam yaralanıb, şəhərə külli miqdarda ziyan dəyib

"tarjuman.uz" və "xabar.uz" saytları da cəbhə xəttindən 100 kilometr uzaqda olan Gəncə və Mingəçevir şəhərlərinin raket atəşinə tutulmasını hərbi cinayət adlandırır, vurğulanır ki, bu şəhərlərə atəş açmaq əmri verənlər hərbi cinayətkar kimi ittiham olunmalıdır.



Qırğızıstanın "goldenbridge-news.com" və "turktoday.info" portalları ötən gecə saat 01 radələrində cəbhə zonasından uzaqda yerləşən Gəncə şəhərinin mərkəzi hissəsini raket atəşinə tutmasını müharibə cinayəti adlandırıb.

AZƏRTAC xəbər verir ki, portallar Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəsmi "Twitter" hesabına istinadla yazır ki, Ermənistanın Gəncədəki mülki əhaliyə qarşı xain və vəhşicəsinə raket zərbəsi onun hərbi-siyasi rəhbərliyinin döyüş meydanındakı məğlubiyyət qarşısında acizliyinin və ümidsizliyinin əlamətidir. Bu, mülki şəxslərə qarşı qəsdən düşünülmüş raket hücumudur.

Bildirilir ki, raket hücumları nəticəsində 10-dan çox mülki şəxs həlak olub, 50-dən çox insan yaralanıb.



Moldova mətbuatında Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində səsləndirdiyi fikirləri dərc edilib. Eyni zamanda Ermənistanın baş naziri ilə bağlı tənqidi məqalə də dərc edilib.

AZƏRTAC xəbər verir ki, "NOİ.md" informasiya portalında dərc edilən məqalələrdə Prezident İlham Əliyevin sözlərinə istinadla Azərbaycanda heç bir terrorçunun vuruşmadığı qeyd edilir.

"Bizim tərəfimizdən heç bir ölkə münaqişəyə cəlb edilməyib, bizim tərəfimizdə heç bir terrorçu yoxdur. Qarşı tərəfə, erməni tərəfinə gəldikdə isə biz Rusiya tərəfinə belə bir narahatlığımızı çatdırmışdıq ki, qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə çatdırılıb. Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır, - yeri gəlmişkən, bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir. Biz Rusiya tərəfinə bildirmişik ki, bu işlərin qaçaqmalçılıq yolu ilə görüldüyünü güman edirik. Ona görə ki, Rusiyanın, həmçinin Fransa və ABŞ-ın da ATƏT-in Minsk qrupunun həmsədri və bitərəfliyi saxlamalı olan ölkə kimi münaqişənin aktiv fazası dövründə erməni tərəfini silahlandırmasına inanmağımız çətindir", - deyə məqalədə dövlət başçısının fikirləri yer alıb.

Digər bir məqalədə isə Paşinyanın Azərbaycan Silahlı Qüvvələrinin gücü qarşısında geri çəkildiyi, acı məğlubiyyətlər qazandığı geniş təhlil olunub.



Gürcüstan mətbuatının bugünkü buraxılışlarında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa növbəti müraciəti və müzəffər Azərbaycan Ordusunun yeni qələbələri, Zəngilan şəhərinin və rayonun, eləcə də Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının bəzi kəndlərinin işğaldan azad etməsi barədə xəbəri, eləcə də işğaldan azad olunmuş Zəngilan şəhərində dövlət bayrağımızın dalğalanması barədə xəbərlər yenə də ən çox oxunan xəbərlər sırasındadır.

AZƏRTAC xəbər verir ki, nüfuzlu report.ge, 24news.ge, pia.ge, aktual.ge informasiya portalları, televiziya kanalları Azərbaycan Prezidentinin xalqa yeni müraciətini Azərbaycan, rus, gürcü və ingilis dillərində oxuculara çatdırıblar.

Xəbərlər insanlara təkcə mətn və fotolarla deyil, videogörüntülər vasitəsi ilə də çatdırılır.

Bəzi materiallarda Azərbaycan Prezidentinin xalqa müraciəti zamanı "Biz Ermənistan hökumətini diz üstə çökdürdük" kəlamı sərlövhə kimi təqdim olunub.




Bruney Darüssəlamın "BRUDIRECT" ən böyük xəbər agentliyi Ermənistanın Azərbaycana qarşı təxribatlarından bəhs edən məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Bruney Darüssəlamdakı səfiri Qaley Allahverdiyev tərəfindən qələmə alınmış məqalə "Azərbaycan öz regionunda sülh və sabitlik istəyir" sərlövhəsi ilə geniş oxucu auditoriyasına təqdim edilib. Məqalədə Ermənistanın sentyabr ayının 27-dən başlayaraq ölkəmizə qarşı davam etdirdiyi hərbi hücumdan bəhs olunub, bunun bəşəriyyətə meydan oxuyan nəticələri barədə ətraflı məlumat verilib.

Səfir bildirib ki, hazırda dünya ölkələri COVID-19 pandemiyası və onun sosial-iqtisadi yükü ilə mübarizə apararkən Azərbaycan ikiqat təhdidlə qarşılaşıb. Ermənistan hərbi qüvvələri ağır artilleriya və iriçaplı silahlarla cəbhəyanı yaşayış məntəqələri ilə yanaşı, çox uzaqda yerləşən Gəncə və Mingəçevir şəhərlərini atəşə tutub. Ballistik raketlərlə mülki əhalini və obyektləri hədəfə alan bu ölkənin heç bir beynəlxalq humanitar öhdəliklərə məhəl qoymadığı vurğulanıb. Azərbaycan Respublikasının Baş Prokurorluğu, eləcə də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən dərc edilmiş hesabat və informasiya materiallarına istinad edən səfir həmin hücumun səbəb olduğu mülki insan tələfatı və dağıntılar barədə də məlumat verib.

Məqalədə qeyd olunub ki, Azərbaycanın siyasi-hərbi rəhbərliyi Ermənistana qarşı həyata keçirdiyi sülhə məcbur etmə əməliyyatlarının ilk günündən etibarən mülki əhalini və mülki obyektləri hədəf almayacağını əvvəlcədən elan edib. Səfir Azərbaycanın işğal olunmuş ərazilərindəki mülki əhali ilə hər hansı probleminin olmadığına işarə edərək, Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşları hesab etdiyinə dair fikirlərini vurğulayıb.

Eyni zamanda Azərbaycan səfiri Ermənistanın cari ilin iyul ayında qəbul edilmiş Milli Təhlükəsizlik strategiyasına toxunaraq, təcavüzkarlığı aşkar şəkildə təşviq edən bu sənəddən sonra Azərbaycana qarşı hərbi hücumların gözlənilən olduğunu vurğulayıb.

Q.Allahverdiyev onu da bildirib ki, bu gün dünya ictimaiyyətinin göstərməli olduğu qətiyyətli mövqe təkcə Azərbaycanın haqlı mübarizəsi üçün deyil, eyni zamanda beynəlxalq hüquq və ədalətin əsas öhdəliklərinin xilas edilməsi üçün önəm daşıyır.




İspaniyanın "La Vanguardia" qəzeti Zəngilan şəhərinin və digər yaşayış məntəqələrinin Azərbaycan Ordusu tərəfindən azad edilməsindən yazıb.

Bununla bağlı dərc edilən yazıda bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev televiziya ilə xalqa müraciətində Zəngilan şəhərinin və daha 24 kəndin azad olunduğunu elan edib.

Qeyd edilir ki, Prezident İlham Əliyev Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlıların mədəni irsini məhv etməsini pisləyib. Dövlət başçısı "Biz Böyük Qayıdış astanasındayıq", - deyib.

"La Vanguardia" Prezident İlham Əliyevdən sitat gətirir: "Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar".

İspan nəşri bildirir ki, Zəngilan şəhəri Azərbaycanın İranla sərhədindən bir neçə kilometr məsafədə yerləşir.



Yunanıstanda geniş oxucu kütləsinə malik "Eleftheros Typos" qəzetində Azərbaycanın bu ölkədəki səfirliyinin əməkdaşlığı çərçivəsində "ELİSME" Strateji Tədqiqatlar İnstitutunun Yaxın Şərq və Aralıq Dənizi tədqiqatlar proqramının rəhbəri, politoloq Dr.Evangelos Venetisin müəllifliyi ilə "Dağlıq Qarabağ münaqişəsinin tarixi" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə oxucular münaqişənin tarixi, hüquqi aspektləri və həlli prosesi barədə məlumatlandırılıb. Bildirilib ki, SSRİ-nin süqutundan sonra "Uti possidetis" beynəlxalq hüquq norması yeni yaradılmış respublikaların sərhədlərinin toxunulmazlığına beynəlxalq və regional legitimlik verib. Sözügedən hüquq normasına uyğun olaraq, Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, Azərbaycanın keçmiş inzibati sərhədləri daxilində müstəqilliyi tanınıb. Eyni zamanda bu sərhədlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsində öz təsdiqini tapıb.

Yunan ictimaiyyətinin diqqətinə çatdırılıb ki, həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Biz birlikdə güclüyük!

# Vətəndaşların sağlamlığı dövlətin təhlükəsizliyi üçün önəmlidir

## Özümüzü və eyni zamanda hərbçilərimizi xəstəlikdən qorumalıyıq

Bütün Yer kürəsini bürüyən, dünyanın nizamını dəyişən koronavirus pandemiyası kütləvi qırğınlar və yoluxmalar törətməkdə davam edir. İnsanlığın təhdidinə çevrilən COVID-19 infeksiyasına yoluxanların sayı saatbaat artır. Artıq bu təhlükəli virusa yoluxan planet sakinlərinin sayı 40 milyon nəfəri ötüb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatında bildirilir ki, son bir həftə ərzində dünyada koronavirusa yoluxanların sayının 2,4 milyondan çox artması rekord göstərici sayılır.

Ən çox yoluxma və ölüm halları Cənubi və Şimali Amerikada qeydə alınıb - 18,8 milyondan çox yoluxma və 608 mindən çox ölüm halı var. İkinci yerdə Avropa regionu qərarlaşıb. Burada yoluxanların sayı 8 milyonu, ölənlərin sayı isə 256 mini keçib. Üçüncü yeri Cənub-Qərbi Asiya regionu tutur, bu regionda ümumilikdə yoluxanların sayı 8,5 milyonu, ölənlərin sayı isə 135 mini ötüb.

### Dünya koronavirus girdabında

Dünya ölkələrinin əksəriyyətində pandemiya ilə əlaqədar vəziyyət getdikcə pisləşir. Fransada COVID-19 epidemiyasının ikinci dalğası başlayıb. Ölkədə fövqəladə sanitar vəziyyət elan olunmasına və komendant saatının tətbiq edilməsinə baxmayaraq, koronavirus sürətlə yayılmaqdadır. Son 24 saat ərzində koronavirusa 26 min 676 yeni yoluxma faktı aşkarlanıb.

Braziliyada son sutka ərzində 25832 nəfərin koronavirusa yoluxması, 571 nəfərin isə ölməsi təsdiqlənib. Böyük Britaniyada bir gündə COVID-19-a 21331 yeni yoluxma və ölkə üçün rekord sayda ölüm (241 nəfər) qeydə alınıb. Nepalda COVID-19 yayılmağa başlayandan bəri sutkalıq ən çox yoluxma və ölüm faktı oktyabrın 21-də olub - 5743 yoluxma və 26 ölüm baş verib. Ukraynada son sutkada koronavirusa yoluxanların və bu virusdan ölənlərin sayında yeni antirekord qeydə alınıb. İranda koronavirusdan ölənlərin sayında kəskin artım müşahidə edilir. Yerli mətbuat bunu virusun ikinci dalğası hesab edir. Rusiyada ötən gün ərzində 16 minə yaxın şəxsin COVID-19 testi pozitiv çıxıb. Gürcüstanda son sutkada daha 1351 nəfərə koronavirus diaqnozu qoyulub, 14 pasiyent həyatını itirib.

Ermənistanda oktyabrın 21-də koronavirusa yoluxanların sayında yeni rekord qeydə alınıb. Ötən sutka ərzində ölkədə daha 1836 nəfərdə koronavirus aşkarlanıb. Virusdan ölənlərin sayı 20 nəfər artaraq 1121-ə çatıb.

### Rəqəmlərin artması qaçılmaz olacaq

Dünyanın bir parçası olan Azərbaycanda da son günlər epidemioloji vəziyyət mənfiyə doğru gedir. Ötən sutka koronavirusa yoluxma və ölüm sayında son ayların ən yüksək göstəricisi qeydə alınıb - 825 nəfər. 6 nəfəri isə vəfat edib.

Xəstəliyin qarşısının alınması istiqamətində dünya ölkələri ilə bərabər, Azərbaycanda da aylardır ciddi addımlar atılır. Bu qabaqlayıcı, kompleks tədbirlər həyata keçirilməsəydi, rəqəmlər daha yüksək olardı.

Qlobal pandemiya ilə mübarizənin ilk günlərindən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin bütün resursları vətəndaşların sağlamlığının qorunmasına səfərbər edildi. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir çox məhdudiyyətləri nəzərdə tutan karantin rejimi tətbiq olundu, pandemiya şəraitində xüsusi davranış qaydalarını müəyyən edən tələblər, qaydalar qoyuldu. Dövlət başçısının bu məsələyə vaxtında çevik reaksiya göstərərək təxirəsalınmaz təbirlər görməsi ilə ölkəmizdə gizli və gözəgörünməz düşmənlə mübarizədə uğurlar əldə edildi. Təsadüfi deyil ki, bu sahədə ölkəmizin təcrübəsi nümunə kimi göstərildi. Azərbaycan dünyada COVID-19 pandemiyası ilə ən uğurlu mübarizə aparan ölkələrdən biri kimi tanındı.

Təəssüf ki, payız fəsli başlayandan, xüsusən də son iki həftə ərzində yoluxma sayları artmaqdadır. Son bir neçə gündə isə yoluxma sayında daha nəzərəçarpan artımlar qeydə alınır.

ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancının sözlərinə görə, yoluxma saylarının daha da artacağı gözlənilir: "Rəqəmlərin artması qaçılmaz olacaq. Çünki insanların bir yerə toplanmasına şahidlik edən günlər yaşayırıq. Bir yerə toplandığımız zaman isə əksər vaxt koronavirusu düşünmürük. İnsanlara belə çətin günlərdə bu mesajları ünvanlamaq asan deyil. Lakin özümüz, sevdiklərimiz naminə xəstəliyin daha da yayılmasının qarşısını almaq üçün diqqətli olmalıyıq".

H.Harmancı qeyd edib ki, yoluxma sayının artımının müxtəlif səbəbləri ola bilər. Belə ki, qış ayları yaxınlaşdıqca COVID, eləcə də digər respirator virus infeksiyaları və mikroblar daha çox yayılır. Buna səbəb insanların qapalı məkanlarda çox vaxt keçirməsidir. Bununla yanaşı, hazırda insanlarda pandemik yorğunluq müşahidə olunur. Çünki fevral ayından bəri insanlara müəyyən qaydalara əməl etmələri, diqqətli olmaları tövsiyə edilir. İnsanlarda həssaslıq azalıb. Bu hal, sadəcə, Azərbaycanda deyil, bütün dünyada baş verir.

### Karantin tədbirləri daha da sərtləşdirilə bilər

Ölkədə koronavirusa yoluxma hallarının artmasının digər səbəbi isə insanlarda arxayınlıq hissinin yaranmasıdır. Etiraf etmək lazımdır ki, sentyabrın 27-dən Azərbaycanın haqq savaşına başlaması bütün insanların diqqətini, fikrini ön cəbhəyə yönəltdi, nəticədə koronavirus təhlükəsi aktuallığını itirdi, arxa plana keçdi. Məhdudiyyətlərin çoxunun aradan qaldırılması, tədris müəssisələrinin açılması, gündəlik statistikada müsbət tendensiyanın qeydə alınması vətəndaşlarda xəstəliyin yox olması təəssüratı yaratdı. Nəticədə insanlarda arxayınlıq və laqeydlik yarandı, xüsusi karantin rejiminə, gigiyena qaydalarına riayət olunmadı, maskadan istifadə halları azaldı, distansiya saxlanılmadı. Bu da çətinliklə əldə olunmuş müsbət dinamikanın yenidən itirilməsinə və xəstəliyin sürətlə yayılmasına səbəb oldu. Ölkədə COVID-19 infeksiyasına yoluxma halları kəskin artdı, sanitar-epidemioloji vəziyyət pisləşdi. Nazirlər Kabineti yanında Operativ Qərargah da sanitar-epidemioloji vəziyyəti, koronavirusa yoluxmuş aktiv xəstə sayını və yoluxma sürətini əsas götürməklə xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin yenidən tətbiq olunmasına qərar verdi.

İlkin mərhələdə - 19 oktyabrdan 2 noyabradək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olundu və Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırıldı. Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirildi. Lakin sirr deyil ki, yoluxma sayında artım yüksələn xətlə davam edirsə, karantin tədbirləri daha da sərtləşdirilə bilər.

### Vətəndaşların orduya verəcəyi ən böyük dəstək xəstəlikdən qorunmaqdır

Nəzərə alaq ki, hazırda ölkədə vəziyyət əvvəlki aylardan fərqlidir. Bu gün biz iki cəbhədə vuruşuruq. Ön cəbhədə əsgərlərimiz real düşmənlə, arxa cəbhədə isə həkimlər, vətəndaşlar gözəgörünməz düşmənlə mübarizə aparır. Əgər arxa cəbhədə düşmənin - koronavirusa yoluxmanın qarşısını ala bilməsək, bu təhlükə ordu sıralarına qədər çata bilər. Çünki sıravi vətəndaşlar tez-tez cəbhə zonasına yollanır, hərbçilərimizə dəstək göstərirlər. Xəstəliyi simptomsuz keçirən bir şəxs virusu əsgərlərdən birinə yoluxdursa, ciddi problemlər, xoşagəlməz nəticələr yarana bilər. Əsgərlərin sağlamlığı bizim üçün çox önəmlidir. Əsgərlər Vətənin keşiyində dayanırsa, torpaqlarımızı işğaldan azad etmək üçün hərbi əməliyyatlar aparırsa, ən vacib məsələ onların sağlamlığıdır. Digər tərəfdən əsgərlərimiz də döyüşərkən arxayın olmalıdırlar ki, ailələrinin sağlamlığı ilə bağlı problem yoxdur. Bu da onların yüksək ruhla döyüşüb qələbə qazanmalarına müsbət təsir edər.

Ölkədə koronavirus xəstələrinin sayının artması eyni zamanda, xəstəxanaların da yüklənməsinə, tibbi kadr çatışmazlığına, həkim, çarpayı qıtlığına, nəticədə yaralı əsgərlərin müalicəsində çətinliklərin yaranmasına səbəb ola bilər.

Hazırda hər birimizin diqqəti Vətən müharibəsindədir, xalqın ürəyi ön cəbhə ilə döyünür. Hər kəs hansısa formada ön cəbhəyə kömək etmək istəyir. Hazırkı şəraitdə sıravi vətəndaşların orduya verəcəyi ən böyük dəstək özlərini, həm də hərbçiləri xəstəlikdən qorumaqdır. Biz koronavirusla mübarizəyə ciddi yanaşmalı, qaydalara əməl etməli, diqqətli və məsuliyyətli olmalıyıq.

Unutmayaq ki, hər iki məsələ - istər insanların sağlamlığı, istərsə də torpaqlarımızın işğaldan azad edilməsi dövlətin təhlükəsizliyi üçün önəmli məsələlərdir. Biz qorunma tədbirlərinə əməl etməklə dövlətimizə də, ordumuza dəstək vermiş olarıq. Prezident İlham Əliyev COVID-19 virusuna qarşı mübarizənin leytmotivinə çevrilən "Biz birlikdə güclüyük!" şüarını irəli sürəndə təkcə xalq-dövlət birliyini nəzərdə tutmamışdı. Bu şüar, ilk növbədə, bütün Azərbaycan vətəndaşlarının bir-birilərinin həyatlarını, sağlamlıqlarını, dövlətin resurslarını qorumaq üçün daha məsuliyyətli davranmalarına çağırışdır. Gəlin, bu çağırışa hamılıqla qoşulaq, bir olaq, birlikdə olaq, qalib olaq!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Müddətli həqiqi hərbi xidmətə çağırılan gənclər cəmiyyətə müraciət ediblər

Prezident İlham Əliyevin avqustun 26-da imzaladığı müvafiq sərəncama əsasən çağırışçıların müəyyənləşdirilmiş plan əsasında xidmət yerlərinə göndərilməsi davam etdirilir. Qrafikə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində çağırışçılar təyin olunduqları qoşun növləri üzrə xidmət edəcəkləri hərbi hissələrə yola salınırlar.






Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, gənclər müzəffər ordumuzun sıralarında xidmətə yola düşmələrindən şərəf duyduqlarını, hərbi xidmət dövründə nizam-intizamlı və ayıq-sayıq olacaqlarını, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnəcəklərini, Azərbaycan əsgəri adını uca tutacaqlarını qürurla ifadə edirlər.

Sumqayıt şəhərindən, Bakının Binəqədi və Nizami rayonlarından olan çağırışçılar cəmiyyətə müraciət edərək respublikamızda koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması üçün xüsusi karantin rejiminin qaydalarına, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə və Tibbi Ərazi Bölmələrin İdarəetmə Birliyinin (TƏBİB) müvafiq təlimatlarına riayət edilməsinin vacibliyini bildirdilər. Onlar vətəndaşları arxa cəbhədə pandemiya dövrünün tələblərinə uyğun olaraq, COVID-19-a qarşı aparılan mübarizədə fəal iştirak etməyə çağırıblar. Vurğulayıblar ki, bu gün Ermənistanın işğalına son qoymaq üçün şanlı Azərbaycan Ordusu cəbhədə zəfərlər qazanır. Biz cəmiyyət olaraq həmrəylik nümayiş etdirib, gözəgörünməz düşmən olan koronavirusla mübarizədən də qalib çıxmalıyıq.

Qeyd edək ki, oktyabrda xidmətə yollanan gənc əsgərlər cəbhəyə deyil, müvafiq qoşun növlərinin hərbi hissələrinə - təlim mərkəzlərinə göndərilir və qarşıdakı üç ay müddətində orada təlimlər keçərək hərbin sirlərini öyrənəcək və sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışçılara hərbi xidmətlərində uğurlar arzulayır.

# Azərbaycanda koronavirus infeksiyasına 825 yoluxma faktı qeydə alınıb, daha 171 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 825 yeni yoluxma faktı qeydə alınıb, daha 171 nəfər sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 47 min 418 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 619 nəfər müalicə olunaraq sağalıb, 648 nəfər vəfat edib. Aktiv xəstə sayı 6151 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 260 min 193 test aparılıb. Dünənki test sayı isə 9457-dir.





## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi Anbar sahəsinin icarəsi xidmətinin satın alınması məqsədilə 19.08.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir.

Qiymətləndirmənin nəticəsində fiziki şəxs Nurəddin Sovet oğlu Abbasov (VÖEN:3401497352) qalib müəyyən edilmiş və həmin şəxslə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi *açıq tenderə dəvət edir*

Fondun Aparatı və struktur bölmələrinin istifadəsi üçün inventarların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı : 300 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (notarial qaydada təsdiq olunmuş) və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **13.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **23.11.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **24.11.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası maşın, avadanlıq və ləvazimatların satın alınması üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək elektron tenderə dəvət edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 700.00 (yeddi yüz) manat**
**Təşkilat: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**VÖEN: 1500374911**
**H/Hesabı: AZ20AIIB38090019440138430118**
**Bankın adı: "KAPİTAL BANK" ASC Gənclik Filialı**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWİFT BİK: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13.11.2020-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 23.11.2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 24.11.2020-ci il saat 11:00-da açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 06.08.2020-ci il tarixli 152 nömrəli sayında dərc edilmiş "10 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işləri"nin satın alınması prosedurunun qalibi "Dekor İnteks" MMC müəyyən edilmişdir. "Azərpoçt" MMC və "Dekor İnteks" MMC arasında 21.10.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 15 oktyabr 2020-ci il tarixdə keçirilmiş Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "Xocasən" elektrik deposunda Blok Post binasında, B-DA-00 yarımstansiyasında, 1 və 2 saylı Nəzarət Buraxılış məntəqələrində ventilyasiya sisteminin quraşdırılması işlərinin Açıq Tender üsulu ilə satın alınmasına dair müsabiqədə "ALTEN" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 21.10.2020-ci il tarixdə ƏDV daxil 191 630,58 (yüz doxsan bir min altı yüz otuz manat 58 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi "Fondun Aparatı və struktur bölmələrinin istifadəsi üçün idarənin xərcləri maddəsində nəzərdə tutulmuş vəsait hesabına təsərrüfat mallarının" satın alınması məqsədilə 28.08.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmişdir. Qiymətləndirmənin nəticəsində "OFFİCE GENİUS NM" MMC qalib müəyyən edilmiş və həmin təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Dövlət Pedaqoji Universiteti Mətbəə mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 493-00-32 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.10.2020-ci il saat 15:00-dan 26.10.2020-ci il saat 16:00-dək qəbul olunur.

**Ünvan: Üzeyir Hacıbəyov, 68. Telefon nömrəsi: +99412 493-00-32**
**E-mail: maliye.adpu@gmail.com**

*Tender komissiyası*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi bir sıra təhsil müəssisələrinin təmir-tikinti işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 11 noyabr 2020-ci il saat 18:00-dək qəbul olunur.

Zərflərin açılışı 12 noyabr 2020-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanında yerləşən nazirliyin Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Sirac Əliyev (012) 465-73-48 (daxili: 110).

*Tender komissiyası*

## "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi Tabeli müəssisələrinin həyətyanı sahələrində abadlaşdırma işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 569-82-89 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.10.2020-ci il saat 15:00-dan 29.10.2020-ci il saat 15:00-dək qəbul olunur.

*Tender komissiyası*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi inzibati binada Azərbaycan Respublikasının Dövlət bayrağının əks olunması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 23.10.2020-ci il tarixdən 28.10.2020-ci il saat 15:00-dək qəbul olunur.

Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85

Telefon: +99412 497-71-34. E-mail: dmx@mlspp.gov.az; shahin.gubadov@sosial.gov.az

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

*Hümbətov Ayaz Musa oğlunun adına 17.07.1992-ci il tarixdə verilmiş (İT-I № 2103434) əmək kitabçası itdiyi üçün etibarsız sayılır.*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi agentliyin inzibati binasında isitmə, soyutma və havalandırma sistemlərinə göstəriləcək periodik texniki servis xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 29 oktyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisə təqdim olunmalıdır. (telefon: 012 525-50-26) Zərflər 30 oktyabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 1 saylı Bakı DOST mərkəzinin AZ1073 Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Onlayn platforma üzərindən taksi, sürücülük və çatdırılma xidmətlərinin göstərilməsi ilə bağlı tələbatın öyrənilməsi üzrə bazar araşdırmalarının aparılması xidmətlərinin satın alınması" məqsədi ilə 30 sentyabr 2020-ci il tarixdə elan olunmuş elektron açıq tender prosedurunda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbul edilmə tarixi 26 oktyabr 2020-ci il saat 16:00-a, tender təklifinin və bank zəmanətinin qəbul edilmə tarixi 03 noyabr 2020-ci il saat 16:00-a və tender təkliflərinin açılış tarixi 04 noyabr 2020-ci il saat 16:00-dək uzadılmışdır.

*Tender komissiyası*

## REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ Date: 22.10.2020

**Assignment Title: (i) Translators with experience on Plant Disease Diagnosis & Management pest risk analysis, pest control and (ii) Scientific Editor with experience on Plant Disease Diagnosis & Management pest risk analysis, pest control**

**Reference No.** A2G-11a

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:
(i) *Component A - Component A - Support for sanitary and phytosanitary services;*
(ii) *Component B - Agri-food value chain development;*
(iii) *Component C - Financial services to agribusiness;*
(iv) *Component D - project management and implementation.*

Proposed assignment will be implemented under Sub-Component A2.

***Sub-component A2: Upgrading Plant Health and Phytosanitary System.***

This sub-component supports upgrading the State Phytosanitary Control Services (SPCS) which is mandated to ensure phytosanitary safety on the import, production, storage and processing of plant and plant products.

***The general objective of the assignment***

The Project activities aimed under this assignment will be implemented in close coordination with the Azerbaijan State Agrarian University (ASAU), which is a Beneficiary. The Project purchased the following fundamental textbooks on Plant Disease Diagnosis & Management:

| № | Description |
|---|---|
| 1 | Basic Plant Pathology Methods by James B. Sinclair |
| 2 | Agricultural Pests Of South Asia And Their Management 6th Ed |
| 3 | Essential Plant Pathology, Second Edition by Gail L. Schumann |
| 4 | Plant Pathology, Fifth Edition by George N. Agrios |
| 5 | The Plant Disease Clinic and Field Diagnosis of Abiotic Diseases by Malcolm C. Shurtleff |
| 6 | Laboratory Techniques in Plant Bacteriology |

In order to support the Beneficiary and provide opportunity to the students in a field of plant protection at the University of ASAU, the Project is aimed to translate the above-mentioned books from English into Azerbaijani. Expected average translation material is 5 000 pages (with consideration of 350 symbols in a page).

For this purpose, the Project intends to involve:

1) Currently available **several translators,** well experienced and with specific knowledge in Plant Disease Diagnosis & Management area. Except the translation of books from English into Azerbaijani, the selected Translators will be also responsible for technical correctionseditingformatting of provided translated material.

2) **Scientific Editor (one (1) person),** who will be responsible for provision on scientific revisions and check of the translated materials, in a view of scientific correctness. The Scientific Editor will closely work with the Project Team, Beneficiary members and selected Translators, as well. HeShe will be also responsible in provision of recommendations and attendance of the meetings, in case of need.

***Duration:*** It is estimated that the implementation shall require around 4-6 months, starting from November 2020.

***The shortlisting criteria:***

**Translators:**
- University degree in Translation with background EnglishAzerbaijani;
- Over 10 years' experience in translation field;
- At least 5 years of proven translation experience in Agriculture area;
- Previous specific experience in provision of translation services in Plant Disease Diagnosis & Management or Plant HealthPest Control area;
- Previous experience with World Bank- funded projects and understanding of its requirements is preferable;
- Excellent written and spoken English skills;
- Working knowledge of Russian asset, but not a requirement;
- Sharing knowledge and experience, communicating ideas and managing information flow;
- Good inter-personal and communication skills.

**Scientific editor:**
- Scientific degree in in Plant Disease Diagnosis & Management or Plant HealthPest Control area;
- Over 10 years' experience in Agriculture - Plant Disease Diagnosis & Management or Plant HealthPest Control;
- At least 5 years of proven experience in provision of Scientific Editions;
- Excellent written and spoken Azerbaijani and skills;
- Working knowledge of English and Russian is asset;
- Previous experience with World Bank- funded projects and understanding of its requirements is preferable
- Sharing knowledge and experience, communicating ideas and managing information flow;
- Good inter-personal and communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form (with indication of position) to the address below (in person, or by mail, or by fax, or by e-mail) by November 06, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of AzerbaijanAgricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**AZ1108, Ziya Bunyadov av.1965, Chinar Park Business Center, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail:a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 02 noyabr 2020-ci il saat 15:00-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün yaxma və yapışdırıcı malların satın alınması üzrə Açıq Tenderin vaxtı 12 noyabr 2020-ci il saat 15:00-a keçirilmişdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 noyabr 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 11 noyabr 2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi
**AYDIN ALLAHVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi
**AYDIN ALLAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Tahir Tağızadəyə anası
**QÜLŞAT TAĞIZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Property İnvestment-2" MMC-nin direktoru Fazil Rüstəmova anası
**MURQUSA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Anar Qurbanova anası
**SAHİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftmaş" ASC-nin prezidenti Şahmar Vəliyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi
**AYDIN ALLAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7466
Sifariş 2451
Qiyməti 40 qəpik